# NURUL-QURAN

## Maidə surəsinin təfsiri



*Ayətullah Seyyid Kamal Fəqih İmani*

# NURUL-QURAN

## (Maidə surəsinin təfsiri)

*Ayətullah Seyyid Kamal Fəqih İmani*

*Tbilisi 2018*

Kitabın adı:

***Nurul-Quran***

***(Maidə surəsinin təfsiri)***

Müəllif:

***Ayətullah Seyyid***

***Kamal Fəqih İmani***

Tərcüməçi:

***M.Əlizadə***

***Gürcüstan Müsəlmanları İdarəsi***

## BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

# «MAİDƏ» SURƏSİ

Bu surə Peyğəmbəri-Əkrəmin (s) vəfatından bir-iki ay qabaq nazil olmuş və onun ayələrindən heç biri nəsx edilməmişdir (yəni hökmü dəyişdirilməmiş və qüvvədən salınmamışdır).

Bu surənin 114-cü ayəsində qeyd olunduğu kimi, Həzrət İsanın (ə) öz dostlarına səmavi süfrə nazil olması barədə dua etdiyi üçün «**Maidə**» («Süfrə») adlandırılmışdır («**Maidə**» içinə yemək qoyulmuş tabağa deyilir).

Bu surə 120 ayədən ibarətdir və onun əksər xitabı «**ya əyyuhəlləzinə amənu**» ("Ey iman gətirənlər") olub bütün surələrdən daha çox təkrar olunmuşdur. Məsələn, bu xitab «Bəqərə» surəsində 11 dəfə gəldiyi halda, «Maidə» surəsində 16 dəfə gəlmişdir.

Bu surə özündə ümmətdə vilayət və rəhbərlik, məsihilərin üçlük əqidəsinin rədd olunması, əhdə vəfalı qalmaq, ədalət əsasında şahidlik etmək, qətlin haram edilməsi, yeyiləcək şeylərin hökmləri, dəstəmaz və təyəmmüm, eləcə də ictimai ədalət və sair məsələləri əhatə edir.

Bu, nazil olan axırıncı surə olduğundan əvvəlində bütün əhd-peymanlara əməl edilməsinə tövsiyə edilir.

[ بسم الله الرحمن الرحيم ]

**AYƏ 1:**

[ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَوْفُواْ بِالْعُقُودِ أُحِلَّتْ لَكُم بَهِيمَةُ الأَنْعَامِ إِلاَّ مَا يُتْلَى عَلَيْكُمْ غَيْرَ مُحِلِّي الصَّيْدِ وَأَنتُمْ حُرُمٌ إِنَّ اللّهَ يَحْكُمُ مَا يُرِيدُ ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, əhd-peymanlarınıza (nəzr, əhd və and içmək kimi özünüzlə olan peymanlara, müqavilə və digər sazişlər kimi camaatla bağladığınız peymanlara və dinin hökmlərinə riayət etməyi boyuna götürmək kimi Allahla olan peymanlara ki, bəzi şeylərin halallığına və haramlığına riayət etmək də bu qəbildəndir) vəfa edin. Dördayaqlı heyvanlar(ın ətləri və kəsilərkən analarının qarınlarından ölü halda çıxan balaları) sizə oxunan istisna olmaqla, ehram halında ov etməyi halal hesab etməyən sizlərə halal edildi. Həqiqətən Allah istədiyini hökm edir.»***

**TƏFSİR:**

Müsəlmanlar bütün əhd-peymanlara, müqavilələrə, hansı növdən, eləcə də hər hansı qrup və şəxs tərəfindən olmasına baxmayaraq vəfalı qalmalıdırlar. İstər şifahi, istər yazılı, istərsə də əməli şəkildə bağlanan əhd-peymanlar, eləcə də istər siyasi müqavilələr olsun, istərsə iqtisadi, ictimai və ailəvi, istər zəif şəxslərlə bağlanmış

olsun, istərsə də güclü şəxslərlə, istər dostla, istərsə düşmənlə,[1] istər Allahla (nəzir və əhd kimi), istərsə də camaatla, istər bir şəxslə, istərsə də cəmiyyətlə, istər kiçik adamla, istərəsə də böyük adamla, istər məntəqədaxili, istərsə də beynəlxalq səviyyəli müqavilələr olsun, heç bir fərqi yoxdur. Əhd-peymanı pozmaq və zülm etmək bütün məhrumiyyətlərin mənşəyi olduğu kimi,[2] əhd-peymana vəfalı qalmaq da insanın bütün nemətlərdən bəhrələnməsinə səbəb olur. Bunu da qeyd etmək lazımdır ki, səmavi kitablar da Allahın bəndələr üzərində olan əhdidir, buna görə də onlara vəfalı qalmaq vacibdir: Əhdi-qədim (qədim əhd – Tövrat), Əhdi-cədid (yeni əhd – İncil) və Əhdi-əxir (axırıncı əhd – Quran). İmam Sadiq (ə) bir hədisdə buyurur: «***Quran Allahın bəndələrlə bağladığı əhd-peymandır.***»[3]

Ümumiyyətlə, imanın əsası əhd-peymana əməl etməkdən ibarətdir. Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: «***Əhd-peymana vəfalı olmayan bir kimsənin dindən bəhrəsi yoxdur.***»

Əgər əhd-peymanlara əməl olunmazsa, cəmiyyətin əsası olan qarşılıqlı etimad aradan gedər və hərc-mərclik yaranar.

Əhd-peymana vəfalı qalmaqla bağlı göstərişdən sonra ardıcıl olaraq bir neçə İslam hökmü bəyan edilir. Əvvəlcə buyurulur ki, bəzi heyvanların əti sizin üçün halal oldu.

Bu hökmdən yalnız iki hal istisna edilir: Haram olması sizin üçün tezliklə bəyan olunacaq heyvanların əti və ehram halında olduğunuz zaman ov etmək sizə halal deyildir. Allah istədiyi hökmü verir. Çünki O hər şeydən agah və hər şeyə malikdir. Yəni bəndə-

---

[1] Qur’an müşriklərlə və günahkar insanlarla belə bağlanan əhdə vəfalı qalmağı vacib bilir. İmam Sadiqdən (ə) nəql olunan hədisə əsasən. «Kafi», 1-ci cild, səh. 162

[2] «Nisa» surəsinin 154 və 159-cu ayələrinə işarədir.

[3] «Nurus-Səqəleyn», 4-cü cild, səh. 14

lərin mənafeyinə və məsləhətinə olan, eləcə də hikmətin tələb etdiyi hökmləri qanun şəklinə salır.[1]

**AYƏ 2:**

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تُحِلُّواْ شَعَآئِرَ اللّهِ وَلاَ الشَّهْرَ الْحَرَامَ وَلاَ الْهَدْيَ وَلاَ الْقَلآئِدَ
وَلا آمِّينَ الْبَيْتَ الْحَرَامَ يَبْتَغُونَ فَضْلاً مِّن رَّبِّهِمْ وَرِضْوَانًا وَإِذَا حَلَلْتُمْ فَاصْطَادُواْ
وَلاَ يَجْرِمَنَّكُمْ شَنَآنُ قَوْمٍ أَن صَدُّوكُمْ عَنِ الْمَسْجِدِ الْحَرَامِ أَن تَعْتَدُواْ وَتَعَاوَنُواْ عَلَى
الْبرِّ وَالتَّقْوَى وَلاَ تَعَاوَنُواْ عَلَى الإِثْمِ وَالْعُدْوَانِ وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, Allahın (həcc və ümrə əməlləri və o ibadətlərin məkanları kimi tovhid və pərəstiş) nişanələrinə, haram aylara (Rəcəb, Zilqədə, Zilhiccə və Məhərrəm aylarına), nişansız qurbanlığa və boynunda boyunluq olan qurbanlığa və Rəbblərindən lütf və razılıq diləyən Beytül-Həram zəvvarlarına hörmətsizlik etməyin. Ehramdan çıxdıqdan sonra ov ovlaya bilərsiniz. Məscidül-Harama girməyinizə mane olmuş bir dəstənin ədavəti sizi (onlara qarşı) həddi aşmağa vadar etməsin. Bütün xeyir iş(lərdə) və təqvada bir-birinizə kömək edin və günah və həddi aşmaqda bir-birinizlə köməkləşməyin. Allahdan qorxun ki, həqiqətən Allah ağır cəzalandırandır.»***

[1] «Biharul-ənvar», 69-cu cild, səh. 198

**TƏFSİR:**

## *BİR AYƏDƏ SƏKKİZ İLAHİ HÖKM*

Bu ayədə Peyğəmbəri-Əkrəmə (s) nazil olan ilahi hökmlərdən və mühüm İslam göstərişlərindən bir neçəsi bəyan olunmuşdur. Onların hamısı, yaxud əksəriyyəti həcc və Allah evinin ziyarəti ilə əlaqədardır:

1. Əvvəlcə imanlı şəxslərə xitabən buyurulur: Ey iman gətirənlər! İlahi şüarları pozmayın və onların hədd-hüdudunu (pozmağı) halal hesab etməyin.

2. Haram ayların hörmətini saxlayın, bu aylarda müharibə etməyin.

3. Həcc üçün gətirdiyiniz qurbanlıqları – istər əlamətsiz (hədy) olsunlar, istərsə də əlamətli (qəlaid), halal saymayın. Qoyun qurbangaha gətirilib orada kəsilsin.

4. Allah evi ziyarətçilərinin hamısı bu böyük İslam mərasimində tam azadlıqdan bəhrələnməlidirlər. Bu zaman onların arasında qəbilə, irq, dil və s. baxımından heç bir fərq yoxdur. Buna əsasən, Pərvərdigarın razılığını cəlb etmək üçün, hətta ticarət yolu ilə mənfəət əldə etmək məqsədi ilə olsa belə, Allah evinə doğru hərəkət edənlərə də maneçilik törətməyin – istər sizinlə dost olsunlar, istərsə də düşmən. Onlar sadəcə müsəlman olub Allah evinin ziyarətinə gəldikləri üçün toxunulmazdır.

5. Ov etmək yalnız hacının ehram halında olduğu müddətdə haramdır. Buna əsasən, həcc və ya ümrə ehramından çıxdığı zaman onun ov etməsinə icazə verilir.

6. Əgər bütpərəstlərdən bir qrupu cahiliyyət dövründə («Hüdeybiyyə» hadisəsində) sizin Allah evini ziyarət etməyinizə mane olmuşlarsa da bu iş onların İslamı qəbul etdiklərindən sonra sizdə onlara qarşı kin-küdurət yaratmamalıdır. Siz onların Allah evini ziyarət etmələrinə mane olmamalısınız.

Bu cümlədə külli və ümumi bir qanun bəyan edilir: müsəlmanlar heç vaxt kin-küdurət bəsləməməli, keçmişdə baş verən hadisələrlə əlaqədar intiqamçılıq ruhiyyəsində olmamalıdırlar.

7. Bu bəhslərin təkmilləşdirilməsi üçün buyurulur: Siz bir-birinizlə əlbir olub dünən düşmən, bu gün isə dost olanlardan intiqam almaq əvəzinə, yaxşılıq və təqva yolunda bir-birinizə köməklik göstərib müttəhid olun.[1]

8. Ayənin axırında, yuxarıda qeyd olunan hökmləri bir daha möhkəmləndirmək məqsədi ilə buyurulur: Təqvalı olun və Allahın fərmanları ilə müxalifətçilik etməkdən çəkinin, çünki Allahın cəzaları şiddətlidir.

Bizə tövsiyə edilmişdir ki, hətta məscid tikmək kimi savab işdə belə zalıma kömək etməyək.[2]

Biz şərab istehsal edənlərə üzüm satmamalı, zalıma silah verməməli, tağuta, hətta Məkkəyə getmək üçün olsa belə, nəqliyyat vasitəsi verməməli, tutumu az olanlara sirr verməməli, günahkar adamlara təbəssüm etməməliyik.

---

[1] "Birr" - yə'ni Allaha, Qiyamət gününə, peyğəmbərlərə, asimani kitablara, mələklərə iman gətirmək, cəmiyyətdəki məhrum və yazıq kəslərin halına yanmaq, müqavilələrə vəfalı qalmaq, ağır işlərdə səbrli olmaq və yaxşı işlərdə həmkarlıq edib qarşılıqlı kömək göstərməkdir. Məsələn, elm öyrənmək yaxşı əməl sayılırsa, onun üçün lazım olan şərtlər də, o cümlədən mədrəsə, kitabxana labaratoriya tikmək, dərslik və nəqliyyat vəsaitləri hazırlamaq, ustad və müəllimləri dərs deməyə təşviq etmək və s. – bunların hamısı yaxşı əmələ kömək etmək sayılır. Əksər rəvayətlərdə yaxşı işlərdə əlbir olub həmkarlıq etmək, məzlum və məhrum təbəqələrə kömək etmək tövsiyə olunmuş, zalımlara kömək etmək, onlarla əlbir olmaq qadağan edilmişdir. Biz də təbərrük üçün bir neçə hədisi burada qeyd edirik: "Müsəlmana kömək etmək bir ay müstəhəb oruc tutmaqdan və e'tikafdan daha yaxşıdır." ("Vəsail", 11-ci cild, səh. 345)

İmam Sadiq (ə) buyurur: "Hər kəs yaxşılıq etmək üçün bir addım atsa, mücahidin savabını qazanar." ("Vəsail", 8-ci cild, səh. 586)

"Hər kim zalıma kömək etsə, onun özü də zalımdır." ("Vəsail", 11-ci cild, səh. 345)

[2] «Vəsail», 12-ci cild, səh. 130

**AYƏ 3:**

[حُرِّمَتْ عَلَيْكُمُ الْمَيْتَةُ وَالْدَّمُ وَلَحْمُ الْخِنْزِيرِ وَمَا أُهِلَّ لِغَيْرِ اللّهِ بِهِ وَالْمُنْخَنِقَةُ وَالْمَوْقُوذَةُ وَالْمُتَرَدِّيَةُ وَالنَّطِيحَةُ وَمَا أَكَلَ السَّبُعُ إِلاَّ مَا ذَكَّيْتُمْ وَمَا ذُبِحَ عَلَى النُّصُبِ وَأَن تَسْتَقْسِمُواْ بِالأَزْلاَمِ ذَلِكُمْ فِسْقٌ الْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُواْ مِن دِينِكُمْ فَلاَ تَخْشَوْهُمْ وَاخْشَوْنِ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا فَمَنِ اضْطُرَّ فِي مَخْمَصَةٍ غَيْرَ مُتَجَانِفٍ لِّإِثْمٍ فَإِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ]

**TƏRCÜMƏ:**

***«Ölü (kəsilmədən murdar olmuş) heyvan, qan, donuz əti, (kəsilən zaman başı üzərində) Allahdan qeyrisinin adı çəkilmiş, boğulmuş, vurmaqla öldürülmüş, hündürlükdən yıxılaraq ölmüş, başqa bir heyvanın buynuzu vasitəsilə ölmüş və yırtıcı heyvanın öldürərək yediyi heyvan – (yuxarıda qeyd edilən heyvanların əti halal olanlarından canı çıxmamış) şəriət qanunu ilə kəsə bildikləriniz istisna olmaqla – (bunları yemək,) həmçinin, müqəddəs daşın üzərində (ya bütlər üçün) kəsilmiş heyvan(ın ətini yemək) və eləcə də (heyvanın ətini) qumar oxları ilə bölmək sizə haram oldu. Bu əməllərin hamısı Allaha qarşı itaətsizlikdir. Bu gün kafirlər sizin dininiz(i məhv edib aradan apara biləcəklərin)dən ümidlərini kəsiblər. Odur ki, onlardan qorxmayın, Məndən qorxun. Bu gün dininizi sizin üçün kamilləşdirdim, sizə Öz nemətimi tamamladım və (möhkəm və sabit) bir din kimi sizin üçün İslamı qəbul etdim. Beləliklə əgər kimsə qəhətlik və şiddətli aclıq halında günaha meyli olmadan (həmin haram şeylərin bəzilərindən yeməyə) məcbur olsa, Allah çox bağışlayan və mehribandır.»***

**TƏFSİR:**

Bu surənin əvvəlində, sonradan qeyd olunacaq hallar istisna olmaqla, heyvanların ətinin halal olması bəyan edilirdi. Bu ayədə isə həqiqətdə vədə verilmiş istisnalar bəyan olunur. On bir şey haram edilmişdir:

1. Özü ölmüş heyvan, həmçinin qan, donuz əti, cahiliyyət dövrünün adətlərinə uyğun olaraq bütlərin və ümumiyyətlə, Allahdan başqasının adına kəsilən heyvanlar, boğulub ölən heyvanlar haramdır.

2. İstər öz-özünə ölmüş olsun, istərsə tələyə düşməklə, yaxud insan tərəfindən bu cür (qeyri-şəri yolla) öldürülən heyvanlar. Belə ki, cahiliyyət dövründə mövcud olan adətlərə görə, bəzən heyvanı iki ağacın, yaxud bir ağacın iki budağı arasında ölənə qədər sıxırdılar ki, onun ətindən istifadə etsinlər.

3. Döyülməklə, yaxud işgəncə verilməklə, yaxud xəstəlik nəticəsində ölən heyvanlar. Qurtubinin təfsirində qeyd olunur ki, ərəblər bütlərin xatirinə bəzi heyvanları ölüncəyə qədər döyür və bunu da bir növ ibadət hesab edirdilər!

4. Yırtıcıların həmləsi nəticəsində ölən heyvanlar da haramdır.

Yuxarıda haram edilən halların ardınca buyurulur: Əgər yırtıcıların həmlə etdiyi heyvanlar can verməmişdən qabaq ona çatıb başlarını İslama uyğun qaydada kəssəniz və onlardan kifayət qədər qan çıxsa, əti halal olacaqdır.

Cahiliyyət dövrünün bütpərəstləri Kəbənin ətrafında həmişə xüsusi şəkildə olan bütlərdən fərqli olaraq, heç bir xüsusi forması olmayan müxtəlif daşlar qoymuşdular və onları «nüsub» adlandırırdılar. Bütpərəstlər heyvanları onların müqabilində qurbanlıq edir, qanını onların üstünə yaxırdılar. Qeyd olunan ayədə bu cür ətlər haram edilir və buyurulur: Bütlərin üstündə, yaxud qarşısında kəsilən heyvanların hamısı sizə haramdır. Bu cür ətlər maddi və cismani cəhətdən deyil, əsas etibarı ilə mənəvi və əxlaqi yöndən haram sayılır.

Ayədə haram olunan heyvanlardan biri də bəxt yoxlamaq məqsədi ilə kəsilərək bölüşdürülən heyvan ətləridir. Belə ki, on nəfər bir-biri ilə şərtləşib bir heyvan alır və onu kəsirdilər. Sonra, ucu itilənmiş olan və «əzlam» adlandırılan on dənə çubuğun yeddisinin üstünə «udmaq», üçünün üstünə isə «uduzmaq» yazılır, sonra bir kisəyə tökülür və onları püşk şəklində bir-bir çıxarırdılar. Yeddi uduş çubuğu hər kəsin adına çıxsaydı, ətdən müəyyən qədərini götürür və əvəzində heç nə vermirdi. Lakin uduzan çubuqlar kimin adına çıxsaydı, hər biri heyvanın pulunun üçdə birini ödəməli idilər, ətdən də onlara heç bir şey düşmürdü. İslamda belə ətlərin yeyilməsi ətin özünə görə deyil, qumar və bəxt yoxlamaq məqsədilə olduğuna görə haram edilmişdir.

Sonra buyurulur: Həmçinin, ucları yonulmuş xüsusi bəxt yoxlama çubuqları vasitəsi ilə bölüşdürülən ətlər də sizə haram edildi.

Aydındır ki, qumar və sair şeylərin haram edilməsi təkcə heyvan ətləri ilə əlaqədar deyildir. Onlar başqa şeylərlə oynanılsa da qadağandır. Ümumiyyətlə ictimai cəhətdən hesaba alınmayan faliyyətlərin ziyanları və ondakı xurafatçı proqramların hamısı qadağandır.

Ayənin axırında onların haram edilməsi ilə əlaqədar bir daha buyurulur: Bu əməllərin hamısı fisq-fücur və Allahın itaətindən çıxmaqdır.

## ƏTDƏN İSTİFADƏ ETMƏKDƏ MÖTƏDİL YOL

Yuxarıdakı bəhslərin məcmusundan, eləcə də rəvayətlərdən aydın olur ki, İslam dini özünün digər göstərişlərində olduğu kimi, ətlərdən bəhrələnmək barəsində də tamamilə mötədil bir yol seçmişdir. Cahiliyyət dövründə kərtənkələ, ölü heyvan, qan və sair kimi iyrənc şeylər yeyilirdi, müasir dövrdə də qərb ölkələrində hətta xərçəngin və müxtəlif növ həşəratların yeyilməsinə belə icazə verilir, hindistanlılar isə ətin yeyilməsini ümumiyyətlə qadağan edir. Amma bunların əksinə olaraq, müqəddəs İslam dini tərkibində

pak qidası olan, insanda nifrət yaratmayan ətləri halal buyurmuş, bununla da qeyd olunan ifratçı və ya təfritçi üslubların əsassız olduğunu isbat etmiş, ətdən istifadə edilməsində də müəyyən şərtlər qoymuşdur.

Yuxarıdakı hökmlər bəyan olunduqdan sonra iki dolğun mənalı cümlə ilə rastlaşırıq. Əvvələcə buyurulur: Bu gün kafirlər sizin dininizdən məyus oldular, buna görə də onlardan deyil, yalnız Məndən (Mənim əmr və fərmanlarımla müxalifət etməkdən) qorxun.

Sonra buyurulur: Bu gün sizin dininizi kamil etdim, Öz nemətlərimi sizə tamamladım və bir din kimi İslamı sizin üçün bəyəndim.

## DİN HANSI GÜN KAMİL OLMUŞDUR?

Bütün şiə müfəssirlərinin öz kitablarında qeyd etdiyi, məşhur şiə və sünni raviləri tərəfindən nəql olunan çoxlu rəvayətlərin təsdiq etdiyi və ayənin məzmunu ilə tamamilə uyğun gəldiyinə əsasən, yuxarıdakı iki cümlədə təkrar olunan «əl-yəum» (bu gün) kəlməsində məqsəd “Qədir-Xum” günüdür ki, həmin gündə Peyğəmbəri-Əkrəm (s) Həzrət Əlini (ə) rəsmi olaraq özünün ümmət arasındakı canişini təyin etdi. Məhz belə bir gündə İslam özünün kamil mərhələsinə çatdı. Kafirlər isə məyusluq və ümidsizlik tufanında qərq oldular. Onlar belə təsəvvür edirdilər ki, İslam dini bir şəxsə – Peyğəmbərə (s) bağlıdır və onun vəfat etməsilə vəziyyət tam əksinə dəyişəcək, İslam tədricən məhv olub aradan gedəcəkdir. Amma Peyğəmbərdən (s) sonra ümmət arasında elm, təqva, qüdrət və ədalət baxımından misilsiz olan bir insanın canişin seçildiyini, habelə camaatın ona beyət etməsini gördükdə onlarda İslamın gələcəyi barədə ümidsizlik yarandı və İslam dininin köklü və əbədi bir din olduğunu başa düşdülər.

Burada diqqət yetirilməli və maraqlı məsələlərdən biri də budur ki, «Nur» surəsinin 55-ci ayəsində buyurulur: “Allah sizdən iman gətirib saleh əməl görənlərə vəd vermişdir ki, onlardan qabaqkıları

yer üzünün varisləri və xəlifələri qərar verdiyi kimi, onları da yer üzünün xəlifələri qərar versin. Həmçinin vəd vermişdir ki, onlar üçün bəyənilən bir din müəyyən edib möhkəmləndirsin, onlara, qorxularından sonra aramlıq, xatircəmlik bağışlasın."

Bu ayədə isə buyurulur: «Onlar üçün bəyənilmiş dini yer üzündə möhkəmləndirəcəkdir.» «Nur» surəsinin «Maidə» surəsindən qabaq nazil olduğunu, eləcə də qeyd olunan ayədə Həzrət Əlinin (ə) vilayəti ilə əlaqədar nazil olan «**və rəziytu ləkumul-İslamə dinən**» (və sizə din olaraq İslamı bəyəndim) cümləsini nəzərə almaqla belə nəticə alınır ki, İslam dini yalnız vilayətlə yanaşı olduqda yer üzündə möhkəmlənib kök atacaqdır. Çünki Allahın bəyəndiyi və yer üzündə möhkəmlənəcəyinə dair vəd verdiyi İslam məhz bu İslamdır. Başqa sözlə, İslam o zaman dünya səviyyəsində yayılacaqdır ki, Əhli-Beytin (ə) vilayətindən ayrı düşməsin.

Digər məsələ də budur ki, «Nur» surəsinin 55-ci ayəsinə hazırda bəhs olunan ayə ilə birlikdə nəzər yetirilməlidir. «Nur» surəsinin həmin ayəsində imanlı şəxslərə üç vəd verilmişdir: **Birincisi** yer üzündə xilafət, **ikincisi,** Pərvərdigara pərəstiş etmək üçün əmin-amanlıq və ruhi asudəlik, **üçüncüsü** isə, Allahın bəyənib razı olduğu dinin yer üzündə möhkəmlənməsi.

Bu üç vəd Qədir-Xum günündə «**əl-yəvmə əkməltu ləkum dinəkum**» ayəsinin nazil olması ilə əməli olaraq gerçəkləşdi, çünki imanlı və əməlisaleh şəxsin kamil nümunəsi olan Əli (ə), Peyğəmbərin (s) canişinliyinə təyin edildi və «**əl-yəumə yəisəl-ləzinə kəfəru min dinikum**» (bu gün kafirlər sizin dininizdən məyus oldular) cümləsinin məzmununa əsasən, müsəlmanlar orada nisbi əminamanlıq və aramlıqda oldular. Eləcə də «**və rəziytu ləkumul-İslamə dinən**» (sizə din olaraq İslamı bəyəndim) ayəsinin

məzmununa əsasən də Allahın razı olduğu din müsəlmanların arasında qərarlaşdı.[1]

Ayənin axırında bir daha ayənin əvvəlindəki mətləblə əlaqədar məsələlərə qayıdır, insanın çıxılmaz vəziyyətə düşdüyü zamandakı hökm bəyan edilir və buyurulur: Aclıq zamanında haram ət yemək məcburiyyətində qalan şəxslərə, onun yeyilməsi günaha meyl etmədikləri halda halaldır. Çünki Allah bağışlayan və mehribandır, çıxılmaz vəziyyətdə bəndələrini çətinliyə salmır və onları cəzalandırmır.

### *İNCƏ MƏTLƏBLƏR*

1. Bir məktəb və ideologiyanın davamlı olması onun rəhbərinə bağlıdır: kafirlər başqa şeylə yox, yalnız rəhbərin varlığı ilə məyus olurlar.
2. Əgər cəmiyyətdə rəhbərlik (və vilayət) təyin olunarsa, müsəlmanların heç nədən qorxusu olmamalıdır.
3. Kafirlərin ən böyük ümidləri müsəlmanların rəhbərinin vəfat etməsi idi ki, Əmirəl-möminin Əlinin (ə) rəhbərliyə təyin olunması ilə həmin ümid qapıları birdəfəlik bağlandı. Ümumiyyətlə, heç bir din rəhbərsiz kamil ola bilməz.
4. Kafirlər rəhbər təyin olmamışdan öncə müəyyən qədər ümidvar idilər, Qədir-Xumda rəhbərin təyin olunması ilə məyus və naümid oldular. Deməli, Əli ibn Əbutalib (ə) təklikdə bütün kafirləri ümidsiz etmişdir.

---

[1] Ayənin bu hissəsi, çox həssas olduğuna, eləcə də müxaliflərin həsəd hissinin təhrik olunması mümkün olduğuna görə, murdar ətlərin haram edilməsi ilə əlaqədar olan ayələrin arasında yerləşdirilmişdir ki, təhrifdən amanda qalsın. Bu da eynilə öz cəvahiratlarını və qiymətli əşyalarını, bir kimsə onu tapa bilməsin deyə, başqa şeylərin arasına qoyaraq gizlədən bir şəxsə bənzəyir.

**AYƏ 4:**

[يَسْأَلُونَكَ مَاذَا أُحِلَّ لَهُمْ قُلْ أُحِلَّ لَكُمُ الطَّيِّبَاتُ وَمَا عَلَّمْتُم مِّنَ الْجَوَارِحِ مُكَلِّبِينَ تُعَلِّمُونَهُنَّ مِمَّا عَلَّمَكُمُ اللّهُ فَكُلُواْ مِمَّا أَمْسَكْنَ عَلَيْكُمْ وَاذْكُرُواْ اسْمَ اللّهِ عَلَيْهِ وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ سَرِيعُ الْحِسَابِ]

**TƏRCÜMƏ:**

***«Səndən onlara nəyin halal edildiyini soruşurlar. De: «Bütün pak şeylər (ağılın qəbul etdiyi və insan təbiətinin meyl göstərdiyi ərzaq, geyim və digər yaşayış vasitələri) sizə halal edildi. (Həmçinin) Allahın sizə öyrətdiklərindən onlara öyrədərək təlim keçib əhliləşdirdiyiniz ov heyvanlarının (ovladıqları sizə halaldır). (Beləliklə) sizin üçün tutub saxladıqları hər bir heyvandan yeyin və (onları ov üzərinə göndərərkən) onun üçün Allahın adını çəkin. Allahdan qorxun. Şübhəsiz Allah tez hesab çəkəndir.»***

**AYƏNİN NAZİLOLMA SƏBƏBİ**

Bu ayənin nazilolma səbəbi ilə bağlı bir neçə hadisə qeyd etmişlər ki, onların hamısından münasibi aşağıdakı hadisədir:

Peyğəmbərin (s) səhabələrindən olan Zeydul-Xeyir və Ədi ibn Hatəm o Həzrətin (s) hüzuruna gəlib dedilər: "Biz itlərlə və tazılarla ov edirik. Onlar əti halal olan vəhşi heyvanları tutub bəzilərini bizim əlimizə diri çatdırırlar. Biz də onların başını kəsirik. Bəzilərini isə öldürürlər. Onların başını kəsməyə fürsət olmur. Halbuki murdar olmuş heyvan ətinin haram edildiyini bilirik. Biz nə etməliyik?" Yuxarıdakı ayə nazil olaraq onlara cavab verdi.

**TƏFSİR:**

### *HALAL OV*

Haram və halal ətlər barədə nazil olan əvvəlki ayədəki hökmlərin ardınca, bu ayədə də onların bir qisminə işarə olunur və bu barədə olunan suala cavab olaraq belə buyurulur: Səndən halal şeylər barəsində soruşurlar, onlara de ki, pakizə olan hər şey sizin üçün halaldır. Yəni İslamın qadağan etdiyi bütün şeylər natəmizliklər, napaklıqlar və çirkinliklərdir. İlahi qanunlar təbii olaraq insanın istifadəsi üçün yaradılan pak şeyləri heç vaxt qadağan etmir.

Sonra ov barəsində buyurulur: Sizin təlim verdiyiniz, yəni Allahın sizə təlim verdiyi şeyləri öyrətdiyiniz ov itlərinin və sair ov heyvanlarının etdiyi ov sizin üçün halaldır. İtlərin ovladıqları heyvanlar sizin əlinizə diri halda çatsa, onun başı İslam qaydalarına uyğun olaraq kəsilməlidir. Amma əgər insan ona çatmazdan qabaq can verərsə, hətta başı kəsilməsə belə, halaldır.

Sonra ayə əsnasında belə ovların halalolma şərtlərindən digər ikisi qeyd edilir: Şikarçı itlərin sizin üçün saxladığı ovlardan yeyin. Deməli, əgər ov itləri özlərinin ovladıqları heyvanın bir hissəsini yemək, qalanını isə saxlamağa adət etmiş olsa, belə ovlar halal deyildir və həqiqətdə belə itlər təlim görmüş sayılmır. Onların öz sahibi üçün saxladığına «ələykum» (sizin üçün) deyilmir. Əksinə, həmin heyvanı özü üçün ovlamış olur. Digər məsələ budur ki, ov itini ovun dalınca göndərdiyiniz zaman gərək Allahın adını çəkəsiniz.

Ayənin sonunda bütün bu göstərişlərə riayət olunsun deyə, buyurulur: Allah qarşısında təqvalı olun. Həqiqətən, Allah hesablara çox sürətlə yetişəndir.

**AYƏ 5:**

[الْيَوْمَ أُحِلَّ لَكُمُ الطَّيِّبَاتُ وَطَعَامُ الَّذِينَ أُوتُواْ الْكِتَابَ حِلٌّ لَّكُمْ وَطَعَامُكُمْ حِلُّ لَّهُمْ وَالْمُحْصَنَاتُ مِنَ الْمُؤْمِنَاتِ وَالْمُحْصَنَاتُ مِنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ إِذَا آتَيْتُمُوهُنَّ أُجُورَهُنَّ مُحْصِنِينَ غَيْرَ مُسَافِحِينَ وَلاَ مُتَّخِذِي أَخْدَانٍ وَمَن يَكْفُرْ بِالإِيمَانِ فَقَدْ حَبِطَ عَمَلُهُ وَهُوَ فِي الآخِرَةِ مِنَ الْخَاسِرِينَ]

**TƏRCÜMƏ:**

***«Bu gün, pak olan şeylər sizə halal oldu. (Səmavi) kitab verilmiş kəslərin yeməyi sizə halal, sizin yeməyiniz onlara halaldır. (Həmçinin) zina əhli olmadan və gizlində qeyri-qanuni aşna saxlamadan, ismətli olub mehriyyələrini ödəyəcəyiniz təqdirdə möminələrdən olan azad və ismətli qadınlar(la), eləcə də sizdən əvvəl (səmavi) kitab verilmiş kəslərdən olan azad və ismətli qadınlar(la evlənmək sizə halaldır). Kim iman gətirməli olduğu şeyə kafir olsa, həqiqətən onun əməli puç olub və o, axirətdə ziyana uğrayanlardan olacaqdır.»***

**TƏFSİR:**

***KİTAB ƏHLİNİN YEMƏYİNDƏN YEMƏK VƏ ONLARLA EVLƏNMƏK***

Əvvəlki ayələrin təkmilləşdiricisi olan bu ayədə əvvəlcə buyurulur: Bu gün pakizə olan şeylər sizin üçün halal oldu. Habelə, kitab əhlinin yeməkləri sizin üçün, sizin yeməkləriniz də onlar üçün halaldır. «Kitab əhlinin təamı» dedikdə məqsəd onların əli ilə kəsilən heyvan ətləri nəzərdə tutulmur.

Bu ayənin təfsirində İmam Sadiq (ə) belə buyurur: «***Kitab əhlinin təamı dedikdə onların kəsdikləri heyvanlar deyil, meyvələr və dənli yeməklər nəzərdə tutulur. Çünki onlar heyvanın başını kəsərkən Allahın adını zikr etmirlər.***»

## QEYRİ-MÜSƏLMAN QADINLARLA EVLƏNMƏK

Kitab əhlinin təamının halal olması bəyan edildikdən sonra bu ayədə həm müsəlmanlardan, həm də kitab əhlindən olan pak və iffətli qadınlarla evlənmə məsələsini irəli çəkərək buyurur: Müsəlmanlardan və kitab əhlindən olan pak-pakizə qadınlar sizin üçün halaldır. Yəni onlarla evlənə də bilərsiniz. Bu şərtlə ki, onların mehriyyələrini vermiş olasınız.

Digər bir şərti budur ki, bu evlilik açıq-aşkarda olan zina, yaxud gizli dost seçmə yolu ilə deyil, qanuni evlənmə yolu ilə olmalıdır.

Həqiqətdə ayənin bu hissəsi müsəlmanların qeyri-müsəlmanlarla evlənməsində mövcud olan məhdudiyyətləri azaldır və onların kitab əhlindən olan qadınlarla evlənməsinə müəyyən şərtlərlə icazə verir. Bu barədə əlavə məlumatlar fiqhi kitablarda qeyd olunmuşdur.

Qeyd etmək lazımdır ki, cahiliyyət adət-ənənələrinin bir çoxunun dirçəldildiyi hazırkı dünyada belə bir yanlış təfəkkür də yaranmışdır ki, subaylar üçün qadın və ya “kişi dostu» seçilməsinin (nəinki İslamdan qabaqkı cahiliyyət dövründə mövcud olan gizli şəkildə, ondan da aşkar şəkildə olmasının) heç bir eybi yoxdur! Həqiqətdə müasir dünya cinsi açıq-saçıqlığa və heyvani istəklərə bulaşmaqda cahiliyyət dövrü ilə müqayisədə onları bir addım da qabaqlamışdır. Çünki əgər cahiliyyət dövründə təkcə “gizlin dostun» – məşuqənin seçilməsinə icazə verilirdirsə, müasir dövrdə aşkar olan «dostluğu» da maneəsiz hesab edir və son dərəcə həyasızlıqla onunla iftixar da edirlər. Aşkar bir fahişəlik, rüsvayçılıq və çoxlu bədbəxtçiliklərin mənşəyi olan bu mənfur adətlər qərbdən

şərqə ötürülən son dərəcə iyrənc və insaniyyətə yabançı «ərməğan»lardan ibarətdir.

Yuxarıdakı ayədə kitab əhli ilə qaynayıb-qarışmaq və onların qadınları ilə evlənməyin mümkün olması ilə əlaqədər bəyan edilən bəzi güzəştlərdən sui-istifadə olunmasının, eləcə də bilərəkdən, yaxud bilməyə-bilməyə onlara tərəf çəkilməyin qarşısını almaqdan ötrü ayənin axırında müsəlmanlara xəbərdarlıq edilərək buyurulur: Hər kəs iman gətirməli olduğu şeylərə kafir olsa və möminlərin yolunu buraxaraq kafirlərin yolunu seçsə onun əməlləri bada gedəcək, axirətdə də zərər çəkənlərin cərgəsində olacaq.

Qeyd olunan güzəştlər müsəlmanların həyat və məişətində yaranacaq müəyyən çətinlikləri həll etməkdən əlavə, İslamın bu dinə yad olanların arasında genişlənməsinə, nüfuz etməsinə səbəb olmalıdır. Amma müsəlmanların onların dinlərindən və özlərindən təsirlənməsinə, nəticədə öz dinindən dönmələrinə səbəb olmamalıdır. Əks halda, onlara verilən cəzalar çox ağır olacaqdır.

**AYƏ 6:**

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا قُمْتُمْ إِلَى الصَّلاةِ فاغْسِلُواْ وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى الْمَرَافِقِ وَامْسَحُواْ بِرُؤُوسِكُمْ وَأَرْجُلَكُمْ إِلَى الْكَعْبَينِ وَإِن كُنتُمْ جُنُبًا فَاطَّهَّرُواْ وَإِن كُنتُم مَّرْضَى أَوْ عَلَى سَفَرٍ أَوْ جَاء أَحَدٌ مَّنكُم مِّنَ الْغَائِطِ أَوْ لاَمَسْتُمُ النِّسَاء فَلَمْ تَجِدُواْ مَاء فَتَيَمَّمُواْ صَعِيدًا طَيِّبًا فَامْسَحُواْ بِوُجُوهِكُمْ وَأَيْدِيكُم مِّنْهُ مَا يُرِيدُ اللهُ لِيَجْعَلَ عَلَيْكُم مِّنْ حَرَجٍ وَلَـكِن يُرِيدُ لِيُطَهَّرَكُمْ وَلِيُتِمَّ نِعْمَتَهُ عَلَيْكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, namaza durarkən (dəstəmazınız olmayanda) üzlərinizi və dirsəklərinizə qədər əllərinizi yuyun və başınıza və iki ayaqlarınızın üzərinə hər iki ayağınızın üstün-***

***dəki qabarıq yerə kimi məsh edin. Əgər cənabətli olsanız yuyunun (qüsl edin). Əgər xəstə və ya səfərdə ikən sizlərdən biri ayaqyolundan gəlmiş, yaxud qadınlarla yaxınlıq etmiş olsa və su tapmasanız, onda pak torpaq axtarın. (Hər iki əlinizin içini ona vurduqdan sonra) həmin torpaqdan üzünüzə və əllərinizə çəkin (təyəmmüm edin). Allah əsla sizə çətinlik yaratmaq istəmir, lakin sizi paklaşdırmaq və Öz nemətini sizə tamamlamaq istəyir (ki,) bəlkə şükr edəsiniz.»***

**TƏFSİR:**

Keçən ayələrdə cismi pakizəlik və maddi nemətlər barəsində müxtəlif mövzular irəli çəkildi. Bu ayədə isə insan ruhunun paklığına səbəb olan məsələlər qeyd edilir, ruhun səfalı və pak olmasına səbəb olan dəstəmaz, qüsl və təyəmmümün hökmlərindən böyük bir qismi bəyan edilir. Əvvəlcə imanlı şəxslərə xitab edilərək dəstəmazın hökmləri aşağıdakı ardıcıllıqla bəyan edilir: Ey iman gətirənlər! Namaz üçün qalxanda üzünüzü və əllərinizi biləyə qədər yuyun, başınızın, eləcə də ayağınızın üstünə – ayağın üstündəki çıxıntıya qədər məsh çəkin.

Buna əsasən, ayədə qolun yalnız yuyulacaq miqdarı qeyd olunur, amma onun necə yuyulması Əhli-beyt (ə) vasitəsi ilə bizə gəlib çatan Peyğəmbər (s) sünnəsində bəyan olunmuşdur. Bu da qolun dirsəkdən başlayaraq barmaqların ucuna tərəf yuyulmasıdır.

Sonra qüslün hökmü izah edilir və buyurulur: Əgər cünub olsanız, qüsl edin. Aydındır ki, «**fəttəhhəru**» cümləsində məqsəd bədənin hər yerinin yuyulmasıdır. «Nisa» surəsinin 43-cü ayəsində də qeyd olunduğu kimi, «cünub» uzaqlaşan deməkdir. Cənabətli şəxsin «cünub» adlandırılmasının səbəbi həmin halda namazdan və paklıqla şərtlənən digər işlərdən çəkinməli olmasıdır.

Yuxarıdakı ayədə «əgər cünub olsanız, namaz üçün qüsl edin» deyilməsindən məlum olur ki, cənabət qüslü dəstəmazın əvəzində kifayət edir.

Daha sonra təyəmmümün hökmləri belə bəyan edilir: Əgər yuxudan qalxıb namaz qılmaq istəsəniz, xəstə, yaxud müsafir olsanız, ya sizin hər hansı biriniz ayaq yolundan qayıtsa, yaxud qadınlarınızla yaxınlıq etmisinizsə, bütün bu hallarda su tapa bilməyirsinizsə, pak torpaqla təyəmmüm edin.

Təyəmmümün alınma qaydası icmali şəkildə belə bəyan edilir: Əllərinizi pak torpağa vurun, əllərinizdə qalan torpaqla üz və əllərinizə məsh edin.

Ayənin axırında bu göstərişlərin heç birində müsəlmanlar üçün çətinlik qoyulmadığını, onların hamısının nəzərə çarpacaq dərəcədə məsləhət xatirinə bir qanun olduğunu bəyan etmək üçün buyurulur: Allah sizin zəhmətə, məşəqqətə düşməyinizi istəmir, əksinə, Onun nemətlərinə şükr edəsiniz deyə, sizi pak etmək və Öz nemətlərini sizə tamamlamaq istəyir. Həqiqətdə şərif ayə bir daha bu həqiqəti çatdırmaq istəyir ki, bütün ilahi göstərişlər və İslamın mütərəqqi proqramları insanların mənafeyinin qorunması istiqamətində qoyulmuş və bundan başqa heç bir şey nəzərdə tutulmamışdır. Allah-təala bu göstərişlərlə bəndələrə həm ruhi, həm də cismi paklıq bağışlamaq istəyir. Şərif ayənin axırıncı cümləsi ümumi bir qaydada buyurur ki, ilahi hökmlər heç bir halda üzücü mükəlləfiyyət formasında deyildir.

**AYƏ 7:**

[ وَاذْكُرُواْ نِعْمَةَ اللّهِ عَلَيْكُمْ وَمِيثَاقَهُ الَّذِي وَاثَقَكُم بِهِ إِذْ قُلْتُمْ سَمِعْنَا وَأَطَعْنَا
وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ ]

**TƏRCÜMƏ:**

***«Allahın sizə olan nemətini və «eşitdik və itaət etdik» dediyiniz zaman (peyğəmbərliyi və dini qəbul etməklə) sizinlə bağladığı əhd-peymanını xatırlayın. Allahdan qorxun ki, həqiqətən Allah ürəklərdə olanı biləndir.»***

**TƏFSİR:**

Bu ayədə Allahın sonsuz nemətlərinin əhəmiyyəti bir daha müsəlmanlara xatırladılır ki, onların da ən mühümü iman və düz yola hidayətdir. Allah-təala buyurur: «Allahın sizə verdiyi nemətləri xatırlayın.» İslam dini sayəsində bütün nemətlərin, iftixarların və imkanların müsəlmanlara nəsib olmasından, əvvəllər tam mənada pərakəndə vəziyyətdə olan cahil, azğın, qaniçən, fasiq və dinsiz insanların mütəşəkkil, müttəhid, elmli, maddi və mənəvi imkanlara sahib olan bir cəmiyyət formasına düşməsindən də böyük nemət ola bilərmi?

Sonra Allahla bağlanan əhd-peyman xatırladalaraq buyurulur: Allahın sizinlə bağladığı möhkəm zamanı «eşitdik və itaət etdik» dediyinizi unutmayın . Bu ayə həm təkvini, həm də təşrii əhd-peymanlara – həm fitrətin hökmü ilə Allahın insanlardan aldığı, həm də Peyğəmbəri-Əkrəmin (s) müxtəlif mərhələlərdə müsəlmanlardan aldığı əhd-peymanlara şamil ola bilər. Çoxlu rəvayətlərə əsasən, yuxarıdakı ayələrdəki əhd-peyman Həzrət Əlinin (ə) vilayət və rəhbərliyi barəsində alınan əhd-peymandır ki, Peyğəmbəri-Əkrəm (s) vida həccində, Qədir-Xum çölündə onlardan bu əhd-peymanı almış, onlar da qəbul etmişlər.

Ayənin axırında təkidlə buyurulur: Təqvalı olun, Allah sizin qəlblərinizin sirlərindən agahdır.

İmam Baqirdən (ə) nəql olunmuşdur ki, Peyğəmbəri-Əkrəm (s) vida həccində haram şeylərin haramlığını bəyan etmiş və Həzrət Əlinin (ə) vilayətinə itaət etməyin vacibliyini müsəlmanlara buyurmuşdur.[1]

---

[1] «Təfsiri-Burhan», 1-ci cild, səh. 454

**AYƏ 8:**

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ لِلّهِ شُهَدَاء بِالْقِسْطِ وَلاَ يَجْرِمَنَّكُمْ شَنَآنُ قَوْمٍ عَلَى أَلاَّ تَعْدِلُواْ اعْدِلُواْ هُوَ أَقْرَبُ لِلتَّقْوَى وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, (bütün fərdi və ictimai işlərdə) həmişə Allaha görə möhkəm və mətin dayanan və ədalətə şəhadət verənlərdən olun! Hər hansı bir dəstə ilə düşmənçilik sizi ədalətsizliyə vadar etməsin. Ədalətli olun, ki, o, təqvaya daha yaxındır. Təqvalı olun! Həqiqətən Allah etdiklərinizdən xəbərdardır.»***

**TƏFSİR:**

Bu ayə möminləri ədalətin bərqərar edilməsinə dəvət edir. Əvvəlcə onlara xitab edərək buyurur: Ey iman gətirənlər! Həmişə Allah üçün qiyam edənlərdən olun, haqq-ədalətə şahidlik verin.[1]

Sonra ədalət yolundan çıxma amillərindən biri xatırladılır və müsəlmanlara belə xəbərdarlıq edilir: Hər hansı bir qövmə qarşı sizdə olan ədavət və kinlər, eləcə də şəxsi işləriniz ədalətin icrasına mane olmamalı, başqalarının hüquqlarına təcavüz etməyinizə gətirib çıxarmamalıdır. Çünki ədalət bunların hamısından mühüm bir işdir.

Həmin məsələnin kəsb etdiyi əhəmiyyətə görə bir daha ədalət məsələsinə təkid edilərək buyurulur: Ədalətli olun, çünki bu iş pərhizkarlığa daha yaxındır.

---

[1] «Cəvamiül-cami» təfsiri, 3-cü cild, səh. 44

Ədalət pərhizkarlıq və təqvanın mühüm yollarından olduğuna görə, ikinci dəfə əlavə təkidlə buyurulur: Allah qarşısında təqvalı olun, çünki Allah sizin bütün əməllərinizdən agahdır.

**AYƏ 9-10:**

[ وَعَدَ اللهُ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ لَهُم مَّغْفِرَةٌ وَأَجْرٌ عَظِيمٌ. وَالَّذِينَ كَفَرُواْ وَكَذَّبُواْ بِآيَاتِنَا أُوْلَـئِكَ أَصْحَابُ الْجَحِيمِ ]

**TƏRCÜMƏ:**

***9. «Allah iman gətirib yaxşı işlər görən kəslər üçün bağışlanma və böyük mükafat olacağını vəd etmişdir.»***
***10. «Kafir olub ayələrimizi təkzib edənlər isə Cəhənnəm əhlidirlər.»***

**TƏFSİR:**

9-cu ayədə Quranın həmişəki üslubuna uyğun olaraq, xüsusi dini hökmlər bəyan edildikdən sonra onun təkmil olunaraq tərtibə salınması, eləcə də ümumi qayda-qanunlara işarə edilməsi üçün yenə də ədalətin icra olunması və haqq şüarına təkid edərək buyurur: Allah-təala iman gətirib saleh əməllər görənlərə bağışlanmaq və böyük mükafat vədəsi vermişdir.

Bunların da müqabilində 10-cu ayədə buyurulur ki, Allahı inkar edərək Onun ayələrini təkzib edənlər cəhənnəm əhlidir.

Diqqət yetirilməlidir ki, birinci ayədə bağışlanmaq və böyük mükafat «ilahi vəd» kimi, cəhənnəm əzabı isə «yaramaz əməllərin nəticəsi» kimi göstərilərək belə əməl sahiblərinin həmin aqibətə düçar olacaqları buyurulur. Bu da həqiqətdə Allah-təalanın axirət aləmində bəndələrə verəcəyi mükafatlarla əlaqədar geniş rəhmət və mərhəmətini göstərir ki, bu iş insanın düzgün əməlləri ilə əsla

müqayisə olunmazdır. Bu dünyanın cəzaları da intiqam xarakteri daşımır, sadəcə olaraq insanların öz nalayiq əməllərininin nəticəsidir.

**AYƏ 11:**

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اذْكُرُواْ نِعْمَتَ اللّهِ عَلَيْكُمْ إِذْ هَمَّ قَوْمٌ أَن يَبْسُطُواْ إِلَيْكُمْ أَيْدِيَهُمْ فَكَفَّ أَيْدِيَهُمْ عَنكُمْ وَاتَّقُواْ اللّهَ وَعَلَى اللّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, bir dəstənin sizə əl uzatmaq qəsdinə düşdüyü (müsəlmanları terror etmək və onların üzərinə qəfildən hücum etmək fikrində olduğu) zaman Allahın sizə olan nemətini yada salın. Onda Allah onların əllərini sizdən üzdü. Allahdan qorxun! Möminlər gərək yalnız Allaha təvəkkül etsinlər.»***

**TƏFSİR:**

Müfəssirlər arasında bu ayənin hansı hadisəni bəyan etməsi ilə əlaqədar fikir ayrılığı olmasına baxmayaraq, onu sonradan qeyd olunacaq halların hamısına aid etmək olar. Belə ki, müsəlmanlar düşmənin hücumları və ya onların bəd niyyətləri qarşısında Allaha arxalanır və qələbə çalaraq xilas olurdular. Lakin ümumi halda Allahın nemətlərinin yad edilməsi bir növ şükürdür və insandan qürur və qəfləti uzaqlaşdırır, onun Allaha olan eşqini daha da artırır.

***İNCƏ MƏTLƏBLƏR***

1. Düşmən tərəfindən törənən təhlükələrin aradan qaldırılması ən böyük ilahi nemətlərdən biridir.

2. Təqva, təfəkkür və imanla Allahın mərhəmətli nəzərlərini özünüzə cəlb edin, düşmənin təhlükələrini dəf edin və bununla yanaşı bilin ki, günah nəticəsində Allah insanın düşmənini ona müsəllət edər və Allaha diqqət yetirilməsi düşmənin dəf edilməsinə səbəb olar.

**AYƏ 12:**

[وَلَقَدْ أَخَذَ اللّهُ مِيثَاقَ بَنِي إِسْرَآئِيلَ وَبَعَثْنَا مِنهُمُ اثْنَيْ عَشَرَ نَقِيبًا وَقَالَ اللّهُ إِنِّي مَعَكُمْ لَئِنْ أَقَمْتُمُ الصَّلاَةَ وَآتَيْتُمُ الزَّكَاةَ وَآمَنتُم بِرُسُلِي وَعَزَّرْتُمُوهُمْ وَأَقْرَضْتُمُ اللّهَ قَرْضًا حَسَنًا لَّأُكَفِّرَنَّ عَنكُمْ سَيِّئَاتِكُمْ وَلأُدْخِلَنَّكُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ فَمَن كَفَرَ بَعْدَ ذَلِكَ مِنكُمْ فَقَدْ ضَلَّ سَوَاء السَّبِيلِ]

**TƏRCÜMƏ:**

***«Həqiqətən Allah İsrail övladlarından əhd-peyman aldı. Biz onlardan (on iki qəbilə üçün) on iki nəfər başçı seçdik. Allah onlara dedi: «Şübhəsiz, Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, (gələcəkdə göndərəcəyim) peyğəmbərlərimə iman gətirsəniz, onlara ehtiramla kömək etsəniz və Allaha gözəl borc versəniz (mallarınızı Allah yolunda xərcləsəniz), mütləq sizin günahlarınızı təmizləyər və sizi (binalarının və ağaclarının) altından çaylar axan Cənnətlərə daxil edərəm. Beləliklə, əgər bundan sonra sizdən kimsə kafir olsa, doğrudan da o, doğru yolu itirmişdir.»***

**TƏFSİR:**

On iki nəfərdən ibarət olan Bəni-İsrail nəqibləri Həzrət Musanın (ə) vəzirləri və Bəni-İsraildən olan on iki tayfanın rəisləri idi.

Rəsuli-Əkrəmdən (s) rəvayət olunur: «Məndən sonrakı xəlifələr də Bəni-İsrail nəqiblərinin sayı qədər, yəni on iki nəfərdir.»

Əhli-Beyt (ə) yoluna müxalif olanlar əbəs yerə çalışaraq bu sayı Raşidi xəlifələrinə, eləcə də Bəni-Üməyyə və Bəni-Abbas xəlifələrinə uyğunlaşdırmaq istəyirlər, halbuki, həmin say onların heç biri ilə uyğun gəlmir. Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan hədisdə əvvəldə Əli ibn Əbi Talib (ə), axırda isə Həzrət Məhdi (ə) olmaqla həmin on iki nəfərin hamısının adı qeyd olunub.

«Əzzərə» kəlməsi (əzzərtumuhum) ehtiramla yanaşı olan kömək etmək, onun kökü olan «təzir» də günahkar və müqəssir şəxsin günahının tərk olunmasında ona bir növ kömək etmək mənasınadır. Deməli, İslamın cəza qanunları intiqamçılıq deyil, yalnız təlim-tərbiyə məqsədi güdür.[1]

## *İNCƏ MƏTLƏBLƏR*

1. Allahın bizimlə olmasının bir neçə şərti var: iman gətirmək, namaz qılmaq, zəkat vermək, peyğəmbərlərə kömək etmək və Allah yolunda infaq etmək. Bunlar olmazsa, Allahın bəndələrinə olan mərhəməti kəsilər.
2. Namaz, zəkat, infaq bütün ilahi dinlərdə olan göstərişlərdəndir. Bunu da qeyd edək ki, təkcə vacibatın yerinə yetirilməsi kifayət deyildir. Vaciblər yalnız müstəhəbbi əməllərin yerinə yetirilməsi və haram işlərdən uzaq olmaqla birlikdə mühüm rol oynayır.
3. Namaz, zəkat, infaq kimi işlər özünün həqiqi məfhum və mənasını məhz vilayət və rəhbərliklə yanaşı olduğu zaman tapır. O da bütün ilahi rəhbərlərin vilayət və rəhbərliyini qəbul etməkdən ibarətdir.
4. Behişt mənəviyyatını itirmiş, ruhu çirkinləşmiş insanların yeri deyil. Əvvəlcə paklaşmaq, sonra behiştə getmək olar.

---

[1] «Müsnəd» (Əhməd ibn Hənbəl), 1-ci cild, səh. 398. «Səvaus-səbil» mö'tədil və orta yoldur ki, ondan çıxmaq insanı mə'nəvi süquta yönəldir.

5. Allahın əhdini əldə etməyin yolu iman və saleh əməldən ibarətdir.

**AYƏ 13:**

[فَبِمَا نَقْضِهِم مِّيثَاقَهُمْ لَعنَّاهُمْ وَجَعَلْنَا قُلُوبَهُمْ قَاسِيَةً يُحَرِّفُونَ الْكَلِمَ عَن مَّوَاضِعِهِ وَنَسُواْ حَظًّا مِّمَّا ذُكِّرُواْ بِهِ وَلاَ تَزَالُ تَطَّلِعُ عَلَىَ خَآئِنَةٍ مِّنْهُمْ إِلاَّ قَلِيلاً مِّنْهُمُ فَاعْفُ عَنْهُمْ وَاصْفَحْ إِنَّ اللّهَ يُحِبُّ الْمُحْسِنِينَ]

**TƏRCÜMƏ:**

***«Beləliklə öz əhd-peymanlarını pozduqlarına görə onlara lənət etdik (surət, qəlb və təbiətlərini eybəcərliyə və hökümətlərini süquta məhkum etdik) və qəlblərini sərtləşdirdik. (Belə ki,) (Allahın) sözlərin(in) yerini dəyişib təhrif edirdilər və xəbərdar edildikləri şeylərdən (Tövrat elmləri və İslam Peyğəmbərinin peyğəmbərlik nişanələrindən) olan layiqli pay(ların)ı unutdular. Sən həmişə onların – az bir qismi istisna olmaqla –xəyanətkarlıqlarından xəbərdar olacaqsan. Buna görə də (hələlik, nə qədər ki, cihada əmr olunmamısan) onlardan keç və üz döndər ki, həqiqətən Allah yaxşıları və yaxşı iş görənləri sevir.»[1]***

**TƏFSİR:**

1. Bu surənin ilk ayəsində əhd-peymanlara, müqavilələrə vəfalı qalmağa dair göstəriş verilməsi, 12-ci ayədə Allahın Bəni-İsrail ilə olan əhd-peymanı, bu ayədə isə onların əhd-peyman pozmaları irəli çəkildiyindən bu surəyə «Əhd» surəsi də demişlər.

[1] «Tövbə» surəsinin 77-ci ayəsində isə belə buyurulur: «Əhd-peymanı pozmaq nifaqa səbəb olur.»

2. Əhd-peymanı pozmaq Allahın mərhəmətindən məhrum olmağa, insanın daşürəkli olmasına, qəlbinin bərkiməsinə zəmin yaradır.

3. Xəyanət əhli olan Bəni-İsrail Allah dinini təhrif etdiyinə görə əzaba düçar oldu.

**AYƏ 14:**

[وَمِنَ الَّذِينَ قَالُواْ إِنَّا نَصَارَى أَخَذْنَا مِيثَاقَهُمْ فَنَسُواْ حَظًّا مِّمَّا ذُكِّرُواْ بِهِ فَأَغْرَيْنَا
بَيْنَهُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاء إِلَى يَوْمِ الْقِيَامَةِ وَسَوْفَ يُنَبِّئُهُمُ اللّهُ بِمَا كَانُواْ يَصْنَعُونَ]

**TƏRCÜMƏ:**

***«Biz xaçpərəstlərik (Allaha köməyə qalxırıq) deyənlərdən (dünyada pəhrizkar olmaları, sözlərinin bir olması və dində parçalanmamaları barəsində) əhd-peyman aldıq. Onlar sonra xəbərdar edildikləri şeylərdən (İncilin tovhid məsələləri və İslam Peyğəmbərinin əlamətləri və sifətləri kimi təlimlərindən) olan layiqli pay(ların)ı unutdular. Buna görə də onların arasında Qiyamət gününədək düşmənçilik və kin yaratdıq. Tezliklə Allah onları etdiklərindən xəbərdar edəcəkdir.»***

**TƏFSİR:**

Əvvəlki ayədə Bəni-İsrailin, burada isə məsihilərin əhd-peyman pozmasından söz açılır. Əvvəldə az bir qrup istisna olmaqla bütün Bəni-İsraildən əhd-peyman alınması bəyan edilir. Bu ayədə isə məsihilərdən az bir qrupun əhd-peyman pozmasına işarə edilir. Deməli, yəhudilərin yollarını azanları məsihilərlə müqayisədə daha çoxdur.

**Qeyd:** «Nəsara», nəsrani kəlməsinin cəm formasıdır. Həzrət Məsihin (ə) köməkçilərinin şüarı «nəhnu ənsarullah» (biz Allah köməkçiləriyik) olduğuna görə məsihilərə nəsara deyilir.[1]

Başqalarının əhd-peyman pozmaq nəticəsində düçar olduqları ağır və acı aqibətdən ibrət almaq lazımdır. Nəsranilər, onlardan alınan əhd-peymanları unutduqlarına görə bədbəxtliyə düçar oldular.

**AYƏ 15:**

[ يَا أَهْلَ الْكِتَابِ قَدْ جَاءكُمْ رَسُولُنَا يُبَيِّنُ لَكُمْ كَثِيرًا مِّمَّا كُنتُمْ تُخْفُونَ مِنَ الْكِتَابِ
وَيَعْفُو عَن كَثِيرٍ قَدْ جَاءكُم مِّنَ اللّهِ نُورٌ وَكِتَابٌ مُّبِينٌ ]

**TƏRCÜMƏ:**

***«Ey kitab əhli, şübhəsiz, sizə Bizim peyğəmbərimiz gəlib ki, o, sizin üçün öz kitabınızdan (İslam peyğəmbərinin xüsusiyyətləri və Onun peyğəmbərliyinin nişanələri kimi) gizlətdiklərinizin bir çoxunu bəyan edir və bir çoxuna (Allahın cism olması barəsindəki sözlərə və peyğəmbərlərə günah nisbət verilməsinə də hələlik) göz yumur. Həqiqətən Allah tərəfindən sizə bir nur və (özü) aydın (olan) və aydınlıq gətirən bir kitab gəlib.»***

**TƏFSİR:**

İslam dünyəvi bir dindir və bütün dinlərin ardıcıllarını haqqa – özünə doğru dəvət edir.

İslam ilahi dinlər arasında ən asan, cəmiyyəti idarə etməyə qadir olan ən yaxşı dindir. Buna əsasən, camaatın haqq yola dəvət edilib yol göstərilməsində heç nədən, hətta kitab əhlinin əhd-peyman

---

[1] «Səff» surəsi, ayə 14

pozmalarından belə məyus olmayın. Məxfi saxlanmış mətləblərin bəyan olunması qeyb elminin nişanələri və Peyğəmbəri tanıma yollarından biridir.

Bir sözlə, bəşəriyyət aləmi Quransız zülmətlidir.

**AYƏ 16:**

[ يَهْدِي بِهِ اللّهُ مَنِ اتَّبَعَ رِضْوَانَهُ سُبُلَ السَّلاَمِ وَيُخْرِجُهُم مِّنِ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِهِ وَيَهْدِيهِمْ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ ]

**TƏRCÜMƏ:**

***«Allah (iman gətirib) Onun razılığına tabe olanları o (nur və kitabın) vasitəsilə (üsulid-din və füruid-dinin yolu olan) salamatlıq yollarına hidayət edir, onları Öz köməyi ilə qaranlıqlardan (küfr, nifaq və itaətsizlik zülmətlərindən) nura tərəf çıxardır və doğru yola hidayət edir.»***

**TƏFSİR:**

***"SALAM" ALLAHIN ADLARINDAN BİRİDİR!***

Behiştə də «Darus-salam» (salam, sağlamlıq evi) deyilir. Deməli, «salam (salamatlıq) yollarına doğru hidayət» dedikdə, Allah yolu və behişt yolu nəzərdə tutulur. Bu iki «salam»a çatmaq yolu yalnız haqq ardıcıllarına məxsus olan «subulussəlam» – salam yollarından olmalıdır.

"Salam" hər növ sağlamlığa – həm şəxsin, həm cəmiyyətin, həm ailənin, həm nəslin, həm fikir və təfəkkürün, həm ruhun, həm də namusun salamatlığına şamildir.

Məqama çatmaq, mal-dövlət toplamaq, nəfs istəklərinə tabe olmaq və intiqam almaq fikrində olanlar deyil, yalnız Allahın razılığını əldə etmək istəyənlər hidayət olunmağa layiqdirlər.

Şübhəsiz, bütün salamatlıq və səadət yolları Allahın razılığını qazanmaqda xülasələnir. Hər kəs Allahdan başqasını razı salmaq fikrində olsa, azğınlıqdadır. Əsas yoldan kənarda olan çoxlu yollar axırda haqq yolunda əsl vəhdətə çatır. “Subulus-səlam” “sirati-müstəqim”də yekunlaşır. Müxtəlif şəraitlərdə müəyyən vəzifələri yerinə yetirərək Allahın razılığını qazanmaq istəyənlərin hamısı bir mənzilə çatır.

Bunu da qeyd edək ki, Quran insanlara şəfa verən, bütün zülmətlərdən xilas edən bir dərmandır. Onları şəkk-şübhə, şəhvət, xurafat, cinayət, iztirab və s. kimi zülmətlərdən xilas edir.

**AYƏ 17:**

[لَّقَدْ كَفَرَ الَّذِينَ قَآلُواْ إِنَّ اللّهَ هُوَ الْمَسِيحُ ابْنُ مَرْيَمَ قُلْ فَمَن يَمْلِكُ مِنَ اللّهِ شَيْئًا
إِنْ أَرَادَ أَن يُهْلِكَ الْمَسِيحَ ابْنَ مَرْيَمَ وَأُمَّهُ وَمَن فِي الأَرْضِ جَمِيعًا وَلِلّهِ مُلْكُ السَّمَاوَاتِ
وَالأَرْضِ وَمَا بَيْنَهُمَا يَخْلُقُ مَا يَشَاء وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ]

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, «həqiqətən Allah həmin Məryəm oğlu Məsihdir (vücudu vacib olan varlıq vücudu mümkün olan varlığa çevrilib və ya vacib varlıq mümkün varlığa daxil olub)» deyən kəslər kafir oldular. De: «Əgər Allah Məryəm oğlu Məsihi, onun anasını və yer üzündə olanların hamısını öldürmək istəsə, Allahın müqabilində kim bir şeyə malikdir? Halbuki, göylərin, yerin və o ikisinin arasında olanların həqiqi sahibi Allahdır. İstədiyini yaradır. Allah hər şeyə qadirdir.»***

**TƏFSİR:**

Məsihilərin Allahla bağlı bir neçə puç iddiaları vardır. Quran onların hamısını rədd edir:

1. Üçlük təşkil edən məbudlar.[1]

2. Yaradan Allah – Ata Rəbb - üçlük təşkil edən məbudlardan biridir.[2]

3. Allahın Məsih və Ruhul-quds kimi bir varlıq olması. Yuxarıdakı ayə də həmin məsələni rədd edir.

«***Yəxluqu ma yəşau***» ***(istədiyini xəlq edir)*** cümləsi Həzrət İsanın (ə) atasız dünyaya gətirilməsinə, Həzrət Adəmin (ə) isə həm atasız, həm də anasız olaraq xəlq edilməsinə işarədir.

İslam dini hər hansı bir ideologiyada olursa-olsun, hər növ küfr, şirk və xurafatla müxalifətçilik edir. Əgər Məsih Allahdırsa, onda necə ola bilər ki, (onların əqidəsinə görə) o öldürülsün və xaç onun məzlumluq rəmzinə çevrilsin?

**AYƏ 18:**

[وَقَالَتِ الْيَهُودُ وَالنَّصَارَى نَحْنُ أَبْنَاء اللّهِ وَأَحِبَّاؤُهُ قُلْ فَلِمَ يُعَذِّبُكُم بِذُنُوبِكُم بَلْ أَنتُم بَشَرٌ مِّمَّنْ خَلَقَ يَغْفِرُ لِمَن يَشَاء وَيُعَذِّبُ مَن يَشَاء وَلِلّهِ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا بَيْنَهُمَا وَإِلَيْهِ الْمَصِيرُ]

**TƏRCÜMƏ:**

***«Yəhudi və xaçpərəstlər dedilər: "Biz Allahın oğulları və Onun sevimliləriyik." De: "Onda bəs nə üçün Allah sizə günahlarınıza görə əzab verir?" Əksinə, siz də Onun yaratdıqlarından bir bəşərsiniz. İstədiyi şəxsi (rəhmətinin tələbinə əsasən) bağışlayır və istədiyi şəxsə (ədalətinin tələbi əsasında) əzab verir. Göylərin, yerin və onların arasındakıların həqiqi sahibi Odur və qayıdış Ona tərəfdir.»***

[1] «Nisa», 171.
[2] «Maidə», 3.

**TƏFSİR:**

Rəsuli-Əkrəm (s) yəhudilərdən bir qrupunu İslama dəvət edərkən onlar dedi: “Biz Allahın dostları və övladlarıyıq!”[1] («Təfsiri Fəxri Razi»dən).

Yəhudilər və məsihilər özlərini Allahın həqiqi övladları hesab etmir, əksinə, özləri üçün bir növ övladlıq şərafətinə inanırdılar. «Əbnaullah» (Allahın oğlanları) kəlməsi onların heç bir dəlil olmadan özləri üçün nəzərdə tutduqları təvəqqelərə işarədir.

Həmçinin irqçilik, millətçilik, özünü imtiyazlı və üstün hesab etmək, yalnız özünü və öz qrupunu haqq bilmək, qohumluğa və tanışlığa baxmaq kimi işlər qadağandır. Həmçinin heç bir fərd, qövm, irq və ümmət Allah tərəfindən sözsüz bağışlanacağını güman etməməli, digər tərəfdən, Allahın rəhmətindən də məyus olmamalıdır. Lakin yəhudilər ilahi ayə və nişanələri görə-görə və törətdikləri bütün cinayətlərlə belə, özlərini həyasızcasına Allahın xüsusi dostları hesab edirdilər![2]

Dağın öz yerindən qoparaq başlarının üstündə qərar tutması, 40 il sərgərdançılıq, məsx olunaraq heyvan (donuz və meymun) sifətinə düşmək, əbədi zillətə düçar olmaq və s. onların Allah tərəfindən cəzalandırılması nümunəsidir.

---

[1] «Allahın dostu və övladı olmaq» iddiası Yühənna incilinin səkkizinci babında birinci cümlədə də gəlmişdir.

[2] Peyğəmbərləri qətlə yetirmək, İslam peyğəmbəri (s) barəsində verilən müjdələri gizlətmək, əhd-peymanı pozmaq, səmavi kitabları təhrif etmək, şəhərə daxil olmaqdan qorxmaq, buzova sitayiş etmək, hər zaman bəhanə axtarmaq, qarınqululuq, eyni yeməyə səbr etməmək və sair kimi işlər onların cinayətlərindən nümunələrdir. Həmçinin, Allahın onlara qəzəb etməsi, dağın öz yerindən qopması və s.

## AYƏ 19:

[يَا أَهْلَ الْكِتَابِ قَدْ جَاءكُمْ رَسُولُنَا يُبَيِّنُ لَكُمْ عَلَى فَتْرَةٍ مِّنَ الرُّسُلِ أَن تَقُولُواْ مَا جَاءنَا مِن بَشِيرٍ وَلاَ نَذِيرٍ فَقَدْ جَاءكُم بَشِيرٌ وَنَذِيرٌ وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ]

### TƏRCÜMƏ:

***«Ey kitab əhli, həqiqətən (Qiyamət günü) «bizə heç bir müjdə verən və qorxudan gəlmədi» deməməyiniz üçün Bizim peyğəmbərimiz sizin yanınıza gəldi ki, o, peyğəmbərlər silsiləsinin arası kəsildiyi dövrdə (İsa ilə Muhəmmədin – səlləllahu əleyhi və alihi və səlləm – peyğəmbərlik dövrləri arasındakı zaman fasiləsində dini maarifi) sizə bəyan edir. Deməli doğrudan da sizə müjdə verən və qorxudan gəldi. Allah hər şeyə qadirdir.»***

### TƏFSİR:

Həzrət Məsih (ə) ilə Həzrət Məhəmmədin (s) arasında təqribən 600 illik zaman fasiləsi vardır. Peyğəmbərlərin göndərilmədiyi dövrlərdə yer üzü Allahın höccətindən boş qalmır. Çünki peyğəmbərlərin vəsiləri ayrı-ayrı dövrlərdə mövcud olmuşdu. Həzrət Əlinin (ə) təbiri ilə desək, «***Yer üzü heç vaxt Allahın höccətindən boş qalmır; istər (fiziki) qüdrəti olsun, istərsə də olmasın. Çünki Allahın yolu, bu yolu getmək istəyənlər üçün məxfi qalmamalıdır.***»[1] Deməli müəyyən bir zaman ərzində peyğəmbər göndərilməməsi camaatın özbaşına buraxılması mənasına deyildir.

---

[1] «Nəchül-bəlağə», Kəlimati-qisar, 147

Bunu da qeyd edək ki, peyğəmbərlərin göndərildiyi dövr arasında qısa və ya uzun müddətli fasilənin olması ilahi tərbiyə sistemində faydalı proqramlardan biridir.[1]

**AYƏ 20:**

[ وَإِذْ قَالَ مُوسَى لِقَوْمِهِ يَا قَوْمِ اذْكُرُواْ نِعْمَةَ اللّهِ عَلَيْكُمْ إِذْ جَعَلَ فِيكُمْ أَنبِيَاء وَجَعَلَكُم مُّلُوكًا وَآتَاكُم مَّا لَمْ يُؤْتِ أَحَدًا مِّن الْعَالَمِينَ ]

**TƏRCÜMƏ:**

***«Və (yada sal) o zaman(ı) ki, Musa öz qövmünə dedi: Ey mənim qövmüm, Allahın aranızda peyğəmbərlər təyin etdiyi və sizi (insanlara) padşahlar etdiyi və sizə (düşməninizin suda batması, müfəssəl Tövrat, içindən çeşmə çıxan daş, bir növ ağac şirəsindən hazırlanmış yemək və bildirçin kimi) aləmdəkilərdən heç kəsə vermədiyi şeyi verdiyi zamandakı nemətini xatırlayın.»***

**TƏFSİR:**

Nemətlərin xatırladılması Allaha eşq, şükr və bəndəlik (Onun əmr və fərmanlarına qeydsiz-şərtsiz itaətetmə) amilidir. Nemətlərin də ən böyüyü nübüvvət, hökumət, qüdrət və azadlıqdır.[2]

İnsanları haqq yola dəvət edərkən onların insani atifə və duyğularından da istifadə etmək lazımdır. Məhz buna görə də onları

---

[1] Onun tarixdəki nümunələri: Musanın (ə) öz qövmündən ayrılması, peyğəmbərlərin e’tikaf etməsi, İslam peyğəmbərinə (s) nazil olan vəhyin kəsilməsi, böyük və kiçik qeybət dövrü və s.

[2] Nil çayından keçmələri, Tur dağının yerindən qopması, «mənn» və «səlvanın» nazil olması, 12 bulağın qaynaması Bəni-İsrailə verilən xüsusi ne’mətlərdəndir.

müəyyən bir şeyə dəvət etməzdən əvvəl ilahi mərhəmətləri yad edərək onları bu iş üçün hazırlayın.

Peyğəmbərlərin vəzifələrindən biri kimi ilahi nemətlərin insanlara xatırladılmasını qeyd etmək olar. Bununla yanaşı, tarixdən ibrət almalıyıq; Musanın qövmü Allahın xüsusi nemətlərindən bəhrələndikdən və hökumətə çatdıqdan sonra Allahın hökmü ilə müxalifətçilik etdiklərinə görə əbədi zillət və xarlığa düçar oldu.

### AYƏ 21:

[ يَا قَوْمِ ادْخُلُوا الأَرْضَ الْمُقَدَّسَةَ الَّتِي كَتَبَ اللهُ لَكُمْ وَلاَ تَرْتَدُّوا عَلَى أَدْبَارِكُمْ فَتَنقَلِبُوا خَاسِرِينَ ]

**TƏRCÜMƏ:**

***«Ey mənim qövmüm, Allahın sizin üçün yazdığı və qərara aldığı bu müqəddəs torpağa (Beytül-Müqəddəsə) daxil olun, geriyə dönməyin və arxaya çəkilməyin ki, (əks təqdirdə) ziyana uğrayarsınız.»***

**TƏFSİR:**

Ayədə Bəni-İsrailin müqəddəs diyara daxil olmaları belə bəyan edilir: Musa (ə) öz qövmünə dedi: «Allahın sizin üçün qərar verdiyi müqəddəs diyara daxil olun və oraya daxil olmaq üçün çətinliklərdən qorxmayın, sinə gərib fədakarlıq göstərin, əgər bu fərmana arxa çevirsəniz, ziyankar olarsınız.»

«Müqəddəs yer» ya bütün Şam əyalətidir (Suriya, İordaniya, Fələstin və sair), ya da təkcə Beytül-Müqəddəsdir.

## AYƏ 22:

[ قَالُوا يَا مُوسَى إِنَّ فِيهَا قَوْمًا جَبَّارِينَ وَإِنَّا لَن نَّدْخُلَهَا حَتَّىَ يَخْرُجُواْ مِنْهَا فَإِن يَخْرُجُواْ مِنْهَا فَإِنَّا دَاخِلُونَ ]

**TƏRCÜMƏ:**

***«Dedilər: "Ey Musa, həqiqətən orada qüdrətli və zalım bir dəstə var və onlar oradan çıxmayınca biz əsla ora daxil olmaya-cağıq. Amma əgər onlar ordan çıxsalar biz mütləq daxil olacağıq."»***

**TƏFSİR:**

Ayədəki «cabbar» sözü cəbr kökündən alınıb və bir şeyin zorla, təzyiqlə islah olunmasına deyilir.

Sonra aşağıdakı iki mənadan hər birində təklikdə işlədilmişdir:[1]

1. Bərpa etmək;

2. Qəhr etmək və qələbə çalmaq.

Allah barəsində hər iki mənada işlənir.

Cabbar qövmü Sami irqindən olan Əmaliqə tayfasıdır. Onlar Ərəbistanın şimal tərəfində yerləşən Sina səhrasında yaşayırdılar və Misirə hücum edərək 500 il hökmranlıq etmişlər.[2]

Qeyd edək ki, hər hansı bir yerdə ləyaqətsiz insanların olması ləyaqətli şəxslərin kənara çəkilməsinə səbəb ola bilməz. Düşməni onların özləri çıxana qədər gözləmək olmaz. Onları zorla çıxartmaq lazımdır.

İslamda rahatlıq axtarmaq, tənbəllik qadağandır. Düşməni çölə çıxartmaq üçün tədbir görmək və Allahdan yardım diləmək lazımdır.

---

[1] Başqa bir yerdə həmin qövm barədə oxuduq. Onlar da «Bizim Calutla mübarizə etməyə qüdrətimiz yoxdur» - demişdilər. («Bəqərə», 249)

[2] «Dairətul-məarif», Fərid Vəcdi.

**AYƏ 23:**

[ قَالَ رَجُلاَنِ مِنَ الَّذِينَ يَخَافُونَ أَنْعَمَ اللهُ عَلَيْهِمَا ادْخُلُواْ عَلَيْهِمُ الْبَابَ فَإِذَا دَخَلْتُمُوهُ فَإِنَّكُمْ غَالِبُونَ وَعَلَى اللهِ فَتَوَكَّلُواْ إِن كُنتُم مُّؤْمِنِينَ ]

**TƏRCÜMƏ:**

***«(Allahdan) qorxanlardan olan və Allahın (iman və şücaət) nemət(i) verdiyi şəxslərdən iki kişi dedi: "Bu qapıdan (şəhərin darvazasından) onlara hücum edin və elə ki, oraya daxil oldunuz, mütləq siz qalibsiniz.Əgər imanınız varsa yalnız Allaha təvəkkül edin."»***

**TƏFSİR:**

Təfsirlərdə qeyd olunur ki, o iki nəfər Bəni-İsrailin on iki nəqibindən olan Yuşe ibn Nun və Kalib ibn Yuhənna idi ki, adları Tövratın "təsniyə sifri"ndə qeyd olunmuşdur.

Allahdan qorxub təqvalı olmaq ilahi nemətlərin və mərhəmətin nazil olmasına şərait yaradır. Hər kəs Allahdan qorxsa, başqa qüdrətlərdən qorxmaz və yalnız Allaha təvəkkül edər.

## AYƏ 24:

[ قَالُواْ يَا مُوسَى إِنَّا لَن نَّدْخُلَهَا أَبَدًا مَّا دَامُواْ فِيهَا فَاذْهَبْ أَنتَ وَرَبُّكَ فَقَاتِلا إِنَّا هَاهُنَا قَاعِدُونَ ]

**TƏRCÜMƏ:**

***«Dedilər: "Ey Musa, nə qədər ki, onlar oradadırlar (həmin şəhərdədirlər) biz əsla ora daxil olmayacağıq. Odur ki, sən və Rəbbin gedin (onlarla) vuruşun, biz mütləq elə burada oturacağıq."»***

**TƏFSİR:**

Həm Beytül-Müqəddəs, həm də Məkkə müqəddəs diyardır. Amma Musanın (ə) öz qövmünə buyurduğu «o diyara daxil olub düşmənlə vuruşun» sözündən sonra bəhanə gətirərək onun fərmanına qarşı itaətsizlik etdilər. Amma müsəlmanlar 6-cı hicri ilində ümrə qəsdi ilə Peyğəmbərlə (s) birlikdə Məkkəyə yaxınlaşdıqları zaman o Həzrət (s) mane olmasaydı, onlar şəhərə hücum edəcəkdilər. (Bu səfərdə Hüdeybiyyə sülhü bağlandı.)

Bəli, hər iki tayfa müqəddəs şəhərin darvazasına yaxınlaşmışdılar. Lakin onlardan biri çox qorxaq, digəri isə həddindən artıq şücaətli idi.

Bəni-İsraildən olanlar ədəbsizlik, bəhanəçilik, zəiflik, rifahtələblik və firavançılıqda «nümunə» idilər.

**AYƏ 25:**

[ قَالَ رَبِّ إِنِّي لا أَمْلِكُ إِلاَّ نَفْسِي وَأَخِي فَافْرُقْ بَيْنَنَا وَبَيْنَ الْقَوْمِ الْفَاسِقِينَ ]

**TƏRCÜMƏ:**

***«(Musa) dedi: "Ey Rəbbim, (boynuma qoyduğun vəzifənin çatdırılması və cihada dəvət etmək barəsində) mənim özümdən və qardaşımdan başqa heç kəsə gücüm çatmır (və tayfadan yalnız az bir hissəsi mənim tabeçiliyimdədir). Odur ki, bizimlə bu itaətsiz dəstə arasında ayrılıq sal."»***

**TƏFSİR:**

Bu ayədə oxuyuruq ki, Musa (ə) bu qövmdən tam mənada məyus olub dua etdi və onlardan ayrılmaq istədiyini bu təbirlə dedi: Pərvərdigara! Mən yalnız özümün və qardaşımın ixtiyar sahibiyəm. Pərvərdigara! Bizimlə bu fasiq və üsyankar camaatın arasında fasilə sal ki, öz əməllərinin nəticəsini görüb islah olunsunlar.

Əlbəttə, Bəni-İsrail tayfasının etdiyi iş – öz peyğəmbərlərinin fərmanlarını rədd etmək küfrə çox yaxın idi. Onlara fasiq ləqəbi verilməsinin səbəbi də bu sözün daha geniş mənası olub Allaha bəndəlik, hüdudlarından xaric olmağın hər növünə aid edilməsidir.

**AYƏ 26:**

[ قَالَ فَإِنَّهَا مُحَرَّمَةٌ عَلَيْهِمْ أَرْبَعِينَ سَنَةً يَتِيهُونَ فِي الأَرْضِ فَلاَ تَأْسَ عَلَى الْقَوْمِ الْفَاسِقِينَ ]

**TƏRCÜMƏ:**

***«(Allah) dedi: "Bu torpaq (günahlarının cəzası olaraq) qırx il onlara haram oldu. (Bu müddət ərzində) onlar daim yer üzündə***

***(Sina çölündə) sərgərdan qalacaqlar. Odur ki, bu itaətsiz dəstəyə görə qəmgin olma".»***

**TƏFSİR:**

«Yətihunə» kəlməsi «tə-yə-hə» kökündən alınıb sərgərdançılıq mənasını ifadə edir. Lakin zamanın keçməsi ilə Sina səhrasına, yəni o qövmün sərgərdan qaldığı yerə «təyəhə» deyilmişdir. Belə ki, onlar 40 il ərzində bütün maddi-mənəvi nemətlərdən və yerin bərəkətlərindən məhrum olaraq həmin məntəqədə yaşadılar.

Bəni-İsrail qövmünün ilahi əmrlərdən boyun qaçırması, eləcə də Allahın qəzəbinə düçar olması və Tiyhədə sərgərdan qalması Tövratın Edad sifrinin 4-cü fəslində qeyd olunmuşdur.

İmam Baqirdən (ə) nəql olunan rəvayətlərə əsasən, onlar 40 il sərgərdançılıqdan, Musa (ə) və Harunu (ə) əldən verdikdən sonra yenidən hərbi hücumla məntəqəyə daxil oldular. Onların rifahda, eyş-işrətdə yaşamağa meylləri sərgərdançılıqdan başqa bir nəticə vermədi.

İmam Baqir (ə) yenə buyurur: «***Bəni-İsrailin başına gələn hadisələrin oxşarı müsəlmanların da başına gələcəkdir.***»

***İNCƏ MƏTLƏBLƏR***

1. Özündən zəiflik, zəlillik göstərməyin, Allahın əmr və fərmanlarından imtina edib müharibədən qaçmağın cəzası məhrumiyyət və sərgərdançılıqdan ibarətdir.[1]

2. Sərgərdançılıq fasiqlər üçün bir növ əzab, nur və furqana malik olmaq isə təqvalılar üçün bir hədiyyədir.

---

[1] Musanın qədrini bilməyənlər və Fironun səltənətinə aşiq olanlar dünyadan getməli, yeni nəsil azad bir fəzada, səhra həyatının çətinlikləri ilə yanaşı inkişaf etməli idi ki, ilahi şəxsiyyətlərin rəhbərliyi sayəsində şəhərdə yaşamağın qədrini bilsinlər. Hədisdə qeyd olunur ki, onlar Təhəyə məntəqəsində dünyadan getdilər və onların övladları müqəddəs diyara daxil oldular.

**AYƏ 27-28:**

[وَاتْلُ عَلَيْهِمْ نَبَأَ ابْنَيْ آدَمَ بِالْحَقِّ إِذْ قَرَّبَا قُرْبَانًا فَتُقُبِّلَ مِن أَحَدِهِمَا وَلَمْ يُتَقَبَّلْ مِنَ الآخَرِ قَالَ لَأَقْتُلَنَّكَ قَالَ إِنَّمَا يَتَقَبَّلُ اللهُ مِنَ الْمُتَّقِين. لَئِن بَسَطتَ إِلَيَّ يَدَكَ لِتَقْتُلَنِي مَا أَنَاْ بِبَاسِطٍ يَدِيَ إِلَيْكَ لَأَقْتُلَكَ إِنِّي أَخَافُ اللهَ رَبَّ الْعَالَمِينَ]

**TƏRCÜMƏ:**

***27. «Adəmin iki oğlunun (Habil ilə Qabilin) qurbanlıq zamanı olmuş əhvalatını həqiqi və düzgün şəkildə onlara oxu (Habil dəvə kəsdi, Qabil isə bir az buğda gətirdi). Beləliklə birindən qəbul olundu və digərindən qəbul olunmadı. (Qabil) dedi: "Səni mütləq öldürəcəyəm." (Habil) dedi: "Həqiqətən Allah yalnız təqvalılardan qəbul edir."»***

***28. «Əlbəttə, əgər sən məni öldürmək üçün əlini mənə uzatsan (da), mən (özümü müdafiə etsəm) səni öldürmək üçün sənə əl uzadan deyiləm. Həqiqətən mən aləmlərin Rəbbi olan Allahdan qorxuram.»***

**TƏFSİR:**

Həsədçi adamla qarşılaşarkən çox təmkinlə danışmaq, danışıqda yumşaqlıq və mülayim rəftarla həsəd odunu söndürmək lazımdır. Nəhy əz münkərin yollarından biri də günahkarlara, təcavüz edilməyəcəyinə dair xatircəmlik verməkdir.

Habil qardaşını öldürmək fikrində deyildi. Amma özünü müdafiə etməkdən də çəkinmirdi (çünki qatilə təslim olmaq təqva ilə uyğun deyildir).

Bunu da qeyd edək ki, dəyərli sayılan iş kimisə bacarıqsızlıq və zəifliyə görə deyil, Allahdan qorxu əsasında öldürməməkdir. Ümumiyyətlə, təqva və Allahdan qorxmaq insanı ən həssas anlarda günahdan saxlayan, təcavüzün qarşısını alan bir amildir.

## AYƏ 29-30:

[ إِنِّي أُرِيدُ أَن تَبُوءَ بِإِثْمِي وَإِثْمِكَ فَتَكُونَ مِنْ أَصْحَابِ النَّارِ وَذَلِكَ جَزَاء الظَّالِمِينَ. فَطَوَّعَتْ لَهُ نَفْسُهُ قَتْلَ أَخِيهِ فَقَتَلَهُ فَأَصْبَحَ مِنَ الْخَاسِرِينَ ]

### TƏRCÜMƏ:

***29. «Mən istəyirəm (əvvəl başlamayım) ki, sən (məni öldürmək günahı və) mənim (digər) günah(lar)ımla və öz günahlarınla (Allah dərgahına) qayıdasan və Cəhənnəm əhlindən olasan. Budur zalımların cəzası!»***

***30. «Beləliklə, (pis işlərə əmr edən) nəfsi onu qardaşını qətlə yetirməyə həvəsləndirdi və (bu işi ona) asan göstərdi. Beləliklə onu öldürdü və ziyana uğrayanlardan oldu.»***

### TƏFSİR:

Habil başqasının günah yükünü öz üzərinə çəkmək istəmirdi. Buna görə də qardaşını öldürüb qan axıtmaq istəmədi. Bundan əlavə öz günah yükünü də qatilin üzərinə qoydu. İmam Baqirdən (ə) nəql olunan bir hədisdə buyurulur: «***Hər kəs bir mömini qəsdən öldürsə, Allah qətlə yetirilənin bütün günahlarını qatilin hesabına yazar və öldürüləni günahlardan paklayar.***»

Əlbəttə, ayənin mənası bizim günahlarımızı öz üzərinə çəkməsi ümidi ilə zalımın müqabilində sükut etmək deyildir. Nəhy əz münkərin aparılma yollarından biri də zalım şəxsə, öz zülmlərinin cəzasından əlavə, məzlumun da günah yükünü öz üzərinə çəkəcəyini və ona verilən əzabın daha artıq olacağını anlatmaqdır. Bunu da qeyd edək ki, pak və insani fitrət adam öldürməyə ikrahla yanaşır və ona nifrət edir. Lakin nəfs bu işi yaxşı cilvələndirib insanı qətlə vadar edir. Bilməliyik ki, məada iman yer üzündəki insanların lap ilkin əqidələrindən biridir və məhz bu iman insanı başqasını nahaq yerə öldürməkdən və sair xətalardan saxlayır.

**AYƏ 31:**

[فَبَعَثَ اللهُ غُرَابًا يَبْحَثُ فِي الأَرْضِ لِيُرِيَهُ كَيْفَ يُوَارِي سَوْءةَ أَخِيهِ قَالَ يَا وَيْلَتَا أَعَجَزْتُ أَنْ أَكُونَ مِثْلَ هَـذَا الْغُرَابِ فَأُوَارِيَ سَوْءةَ أَخِي فَأَصْبَحَ مِنَ النَّادِمِينَ]

**TƏRCÜMƏ:**

***«Allah ona qardaşının görünməməli olan cəsədini necə gizlətməsini göstərmək üçün (nəyisə basdırmaq üçün) yeri qazan bir qarğa göndərdi. O dedi: "Vay olsun mənə! Məgər mən bu qarğa kimi olub qardaşımın cəsədini gizlətməkdən də aciz olmuşam?!" Beləliklə o, peşman olanlardan oldu.»***

**TƏFSİR:**

İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə buyurulur ki, Qabil qardaşını öldürüb çölə atmışdı və nə edəcəyini bilmirdi. Bir qədər keçməmiş yırtıcı heyvanlar cəsədə yaxınlaşdılar. Bu zaman, Quranın buyurduğu kimi, Allah bir qarğanı göndərdi ki, torpağı bir tərəfə eşsin (qarğada adət olduğu kimi, başqa bir ölü qarğanı, yaxud öz yeminin bir qismini necə gizlətməyi göstərsin). Bununla da öz qardaşının cəsədini necə dəfn etməyi Qabilə göstərsin. Sonra buyurulur ki, bu zaman Qabil öz qəflət və xəbərsizliyindən narahat oldu və belə fəryad etdi: «Vay olsun mənə! Mən bu qarğadan da aciz və bacarıqsızam ki, qardaşımın cəsədini dəfn edə bilmirəm.»

Amma axırda öz əməlindən peşman oldu, əlbəttə, onun bu peşmançılığı günahdan tövbə etməsinə dəlalət etmirdi.

Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan bir hədisdə deyilir: «***Hər bir insanın qanı nahaq yerə tökülsə, onun məsuliyyətinin bir***

***qismi Qabilin öhdəsinədir. Çünki dünyada adam öldürməyin əsasını o qoymuşdur.***»[1]

**AYƏ 32:**

[مِنْ أَجْلِ ذَلِكَ كَتَبْنَا عَلَى بَنِي إِسْرَائِيلَ أَنَّهُ مَن قَتَلَ نَفْسًا بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعًا وَمَنْ أَحْيَاهَا فَكَأَنَّمَا أَحْيَا النَّاسَ جَمِيعًا وَلَقَدْ جَاءتْهُمْ رُسُلُنَا بِالبَيِّنَاتِ ثُمَّ إِنَّ كَثِيرًا مِّنْهُم بَعْدَ ذَلِكَ فِي الأَرْضِ لَمُسْرِفُونَ]

**TƏRCÜMƏ:**

***«Bu səbəbdən (belə bir faciə baş verdiyi üçün) İsrail övladlarına (və tarix boyu olacaq bütün millətlərə belə) yazdıq və qərara aldıq ki, kim can qisası (haqqına malik) olmadan və ya yer üzündə fitnə-fəsad törətməmiş bir insanı öldürsə (ya İslamdan küfrə aparsa), sanki bütün insanları öldürmüşdür (və azdırmışdır və o, günahsızların qatillərinə məxsus Cəhənnəmdə olacaqdır) və kim bir insana həyat bəxş etsə (ölümdən nicat versə, yaxud küfrdən İslama gətirsə), sanki bütün insanları diriltmiş (və hidayət etmiş)dir. Doğrudan da Bizim peyğəmbərlərimiz onlar (İsrail övladları) üçün aydın dəlillər gətirdilər, sonra onların çoxu onun ardınca yer üzündə həddən artıq fəsad və qan tökməyə başladılar.»***

---

[1] «Sünən» (Əhməd ibni Hənbəl), «Fi zilal» təfsirinin nəqlinə görə, 2-ci cild səh. 703

**TƏFSİR:**

### *İNSANLARIN QARŞILIQLI ƏLAQƏLƏRİ*

Adəmin övladlarının hadisəsi qeyd edildikdən sonra, bu ayədə ümumi və insani nəticə alınır. Əvvəlcə buyurulur: Bu işin xatirinə Bəni-İsrailə yazıldı ki, hərgah bir insan başqasını bir kəsi qətlə yetirmədiyi, yaxud yer üzündə fəsad törətmədiyi halda qətlə yetirərsə, sanki bütün insanları öldürmüşdür və bir kəs başqa birisini ölümdən xilas etsə, sanki bütün insanları ölümdən xilas etmişdir.

Burada sual yaranır ki, bir insanın öldürülməsi bütün insanların qətlə yetirilməsinə, bir insana nicat verilməsi isə bütün insanların xilas edilməsinə necə bərabər ola bilər?

Cavabda demək lazımdır ki, Quran bu ayədə ictimai və tərbiyəvi bir həqiqəti xatırladır. Çünki bir adam əlini günahsız bir insanın qanına batırsa, deməli, onda digər günahsız insanları da qətlə yetirməyə hazırlıq vardır. O həqiqətdə bir qatildir və onun «yemi» də günahsız insanlardır. Bildiyimiz kimi, günahsız insanların arasında bu baxımdan heç bir fərq yoxdur.

Həmçinin, insanları sevən və insani atifə və duyğular xatirinə başqalarını ölümdən xilas edən şəxsdə bu insani məram və tədbirləri digərlərinin barəsində də yerinə yetirməyə hazırlıq vardır. Quranın «**fəkəənnəha**» (və elə bil ki,) deyə buyurmasından məlum olur ki, bir insanın öldürülməsi cəmiyyətin ölümü, bir insanın dirildilməsi də cəmiyyətin həyatı ilə bərabər olmasa da, bunların aralarında çox uyğunluq və oxşarlıq var.

Bunu da demək olar ki, hər bir insanda yeni bir nəslin və böyük bir cəmiyyətin yaranması qabiliyyəti vardır. Buna görə də bir fərdin məhv edilməsi bir nəslin qətlə yetirilərək məhv olunması ilə bərabərdir.

Bir nəfər bu ayənin təfsiri barəsində İmam Sadiqdən (ə) soruşduqda həzrət (ə) buyurdu: «***Bu ayədə gələn*** «***öldürmək***» ***və***

«***ölümdən nicat vermək***» ***dedikdə məqsəd ona yanğın, yaxud qərq olmaq və bu kimi şeylərdən nicat verməkdir.***» Sonra bir az sükut etdi, yenidən buyurdu: «***Daha böyük məfhum və əzəmətli təvil bundan ibarətdir ki, bir şəxs başqasını haqq, yaxud batil yola dəvət etsin, o da bu dəvəti qəbul etsin.***»

Ayənin axırında Bəni-İsrailin qanunu pozmasına işarə olaraq buyurulur: Bizim peyğəmbərlərimiz onları düz yola hidayət etmək üçün aşkar dəlillərlə gəldilər, lakin onlardan çoxu ilahi qanunları pozdular və hədlərini aşmaq yolunu tutdular.

Lüğətdə «israf» kəlməsinin daha geniş mənası vardır və həddən keçməyin hər növünə aid edilir. Amma əksər hallarda xərclər və hədiyyələr barəsində işlədilir.

## *İNCƏ MƏTLƏBLƏR*

1. İnsanlar müştərək həqiqətlərə, vahid ruhlara malik olub bir bədən üzvləri kimidir. Onlardan birinin qətlə yetirilməsi hamısının qətlə yetirilməsi kimidir.
2. Hər hansı bir əmələ, hədəf və məqsədlə əlaqədar dəyər verilir. Təcavüzkarlıq məqsədi ilə bir nəfəri öldürmək bir cəmiyyəti öldürməkdir. Amma bir kəsin qanuni qisas ünvanı ilə öldürülməsi cəmiyyətə yeni həyat verir.
3. Bir nəfərin ölümü, yaxud həyatı bəzən bir cəmiyyətin ölüm və həyatında təsir qoyur. Bəzən də fərdi qətl hadisələri kütləvi qırğınlara zəmin yaradır.
4. Canlı və donuq olmayan cəmiyyətin nişanə və əlaməti çətinlikdə olanlara kömək etmək, canları xilas etməkdir.
5. İntihar (özünü öldürmək), həmçinin uşaq saldırmaq «qətli-nəfsin» bariz nümunələrindən olub haram iş sayılır.
6. Bir şəxsin fərdi hüquqlarına təcavüz etmək bir cəmiyyətin təhlükəsizliyini təhdid edir.

7. İşləri insanları xilas etmək olan şəxslər, o cümlədən, həkimlər, tibb bacıları, yanğınsöndürənlər, təcili yardımçılar, dava-dərman hazırlayanlar və s. kimi şəxslər öz işlərinin də qədrini bilməlidirlər.

**AYƏ 33:**

[إِنَّمَا جَزَاء الَّذِينَ يُحَارِبُونَ اللّهَ وَرَسُولَهُ وَيَسْعَوْنَ فِي الأَرْضِ فَسَادًا أَن يُقَتَّلُواْ أَوْ يُصَلَّبُواْ أَوْ تُقَطَّعَ أَيْدِيهِمْ وَأَرْجُلُهُم مِّنْ خِلافٍ أَوْ يُنفَوْاْ مِنَ الأَرْضِ ذَلِكَ لَهُمْ خِزْيٌ فِي الدُّنْيَا وَلَهُمْ فِي الآخِرَةِ عَذَابٌ عَظِيمٌ]

**TƏRCÜMƏ:**

***«Həqiqətən Allahla və Onun peyğəmbəri ilə vuruşan və yer üzündə fitnə-fəsad törətmək istiqamətində çalışan (insanları qorxutmaq, asayişi pozmaq və onların haqlarına təcavüz etmək məqsədi ilə soyuq və ya isti silahla zahir olan) kəslərin cəzası yalnız öldürülmək və ya dar ağacından asılmaq, yaxud əlləri və ayaqlarının (bir əlin dörd barmağı ilə bir ayağın dörd barmağının) çarpazvari kəsilməsi və ya həmin yerdən sürgün olunmaqdır. Bu, onlar üçün dünyada həqirlik və xarlıqdır və onlar üçün axirətdə böyük bir əzab vardır.»***

**TƏFSİR:**

Bu ayənin şəni-nüzulu barəsində qeyd olunur ki, müşriklərdən bir qrupu Mədinəyə gəlib müsəlman oldu. Xəstə olduqlarına görə Peyğəmbərin (s) fərmanı ilə Mədinənin kənarında yerləşən səfalı, gözəl ab-havaya malik olan bir yerə getdilər ki, orada zəkat kimi verilən dəvələrin südündən istifadə etsinlər. Sağaldıqdan sonra müsəlman çobanlarını öldürüb ayaqlarını kəsdilər, gözlərini çıxartdılar, dəvələri qarət edib özləri də dindən çıxdılar. Rəsuli-Əkrəm (s) göstəriş verdi ki, onları tutsunlar, çobanlara rəva gördükləri işləri onların da başına gətirsinlər. Bu məsələ ilə

əlaqədar yuxarıdakı ayə nazil olaraq belə işlərin hökmlərini və onlara veriləcək cəzaları bəyan etdi.

Ayədə gələn və «həqqullah» adlanan cəza tədbiri əfv edilə və ya dəyişdirilə bilməz. («Ətyəbul-bəyan»dan).[1]

Cəmiyyətin islah olunması üçün həm mövizə edib yol göstərmək, həm də qılınc işlətmək, qətiyyətli və inqilabi davranış lazımdır. (Əvvəlki ayədə qatilə mədəni xatırlatmalar və xəbərdarlıqlar verilir, burada isə müharib və müfsidin cəzası bəyan olunur.)

Diqqət yetirmək lazımdır ki, Allahın məxluqu ilə müharibə aparmaq elə Allahla müharibə aparmaqdır. Bir kəs insanlara qarşı çıxsa, sanki Allaha qarşı çıxmışdır. Buna görə də cəmiyyətin əminamanlığını, təhlükəsizliyini pozanlar üçün bir neçə cəza növü təyin edilmişdir: Boynunu vurmaq, sürgün etmək, əl-ayağını kəsmək və dar ağacından asmaq.

Eyni zamanda cəza ədalətlə yanaşıdır. Fəsadın mərtəbəsi və fəsad törədənlərin xüsusiyyətləri müxtəlif olduğuna görə onlara verilən cəza da eyni səviyyədə olmayacaqdır. Rəvayətlərdən düşünüldüyü kimi, fəsad faciəli şəkildə olarsa, onun cəzası qətl, yüngülvari olarsa sürgündür.

Qətlin cəzası edam, cəmiyyəti qorxutmağın cəzası sürgün, oğurluğun cəzası əl-ayağın kəsilməsi, qətl və silahlı oğurluğun cəzası əl-ayağın kəsilib həmin şəxsin dara asılmağıdır. («Təfsiri-Safi»)

## *İNCƏ MƏTLƏBLƏR*

1. Hökumətin vəzifəsi cəmiyyətdə, şəhərlərdə, kəndlərdə, yollarda və sair yerlərdə əminamanlığı, təhlükəsizliyi bərqərar etməkdir.

2. Peyğəmbərin (s) qurduğu hakimiyyəti yıxmaq və ilahi dövlətlə müharibə etmək fikrində olan müxaliflər tar-mar edilməlidir.

---

[1] «Əl-mizan» təfsirində qeyd olunur ki, dörd cəza növündən hansının seçilməsi müsəlmanların imamının öhdəsinədir. Əgər öldürülən şəxsin qəyyumları qatili əfv etsələr, bu cəzalardan biri icra olunacaqdır.

3. Müsəlmanların imamına, yaxud İslami hökumətin əleyhinə qiyam edənlər «yuharibunəllah» (Allahla müharibə edirlər) kəlməsinin nümunəsidir. («Fi zilalil Quran» təfsiri)

4. İmam Rza (ə) buyurur: «Müfsidin sürgünolunma müddəti bir ildir. Sürgün olunduğu yerdə camaata elan olunmalıdır ki, həmin adamla bütün əlaqələrini kəssinlər, onunla alver etməsinlər, onun yanına gedib-gəlməsinlər və onunla evlilik əlaqəsi qurmasınlar. («Nurus-səqələyn» təfsiri)

5. Quran ayələrinə əsasən riba və sələm (faiz) alanlar müharib sayılmışdır.[1] Çünki onlar iqtisadiyyatdakı əminamanlığı pozurlar. Rəvayətlərdə də mömini təhqir edən şəxs Allahla müharibə edən şəxs hesab edilir.[2]

**AYƏ 34:**

[ إِلاَّ الَّذِينَ تَابُواْ مِن قَبْلِ أَن تَقْدِرُواْ عَلَيْهِمْ فَاعْلَمُواْ أَنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ ]

**TƏRCÜMƏ:**

***«Siz ələ keçirməmişdən qabaq tövbə edənlər istisna olmaqla! Buna görə də bilin ki, Allah çox bağışlayan və mehribandır.»***

**TƏFSİR:**

Müharib və müfsidin tövbəsi qətl və oğurluqda deyil, təkcə təhdid və qorxutma növlü cəzaları əhatə edir. Yəni tövbə Allahın haqqı barəsində təsirlidir, camaatın haqqında yox. Camaatın haqqı haqq sahiblərinin razılığına bağlı olduğundan, müharib qatil və oğrudan fərqlənir.

---

[1] «Bəqərə» surəsi, 279

[2] «Bihar», 5-ci cild, səh. 283, 3-cü hədis, «Müsnəd» (Əhməd ibn Hənbəl), 6-cı cild, səh. 256

Qeyd etmək lazımdır ki, tövbə qapısı hamının üzünə açıqdır. Müqəssirin və günahkarın tutularaq, məhkəməyə çəkilməsindən qabaq edilən bir tövbənin dəyəri vardır. Eləcə də tövbə gərək agahlıq üzündən və azad şəkildə olsun. İkrah üzündən deyil, iradə əsasında olsun. (Başqa günahlar barəsində də tövbə ölümdən qabaq faydalıdır. «Nisa» surəsi, 18)

Ümumiyyətlə, ilahi cəzalar intiqam almaq üçün deyildir. Onlar yalnız tərbiyəvi yönə malikdir, cəmiyyətin və fərdin islah olunması məqsədini daşıyır. Buna görə də günahkarların tövbə etməsi çox təsirlidir.

### AYƏ 35:

[ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَابْتَغُواْ إِلَيهِ الْوَسِيلَةَ وَجَاهِدُواْ فِي سَبِيلِهِ لَعَلَّكُمْ تُفْلِحُونَ]

### TƏRCÜMƏ:

«***Ey iman gətirənlər, Allahdan qorxun, Ona (yaxınlaşmaq üçün dərgahına yaxın olanlardan və saleh əməllərdən Ona) tərəf vasitə axtarın və Onun yolunda cihad edin, bəlkə nicat tapdınız.***»

Əmirəl-möminin Əli ibn Əbitalib (ə) «Nəhcül-Bəlağə»nin 110-cu xütbəsində buyurur: «***Allaha yaxınlaşmaq üçün ən yaxşı vasitə Allaha və Onun Peyğəmbərinə iman gətirmək, Allahın yolunda, ixlas kəlməsini bəyan etmək yolunda cihad etmək, namazı bərqərar etmək, zəkat vermək, Ramazan ayının orucunu tutmaq, həcc və ümrəyə getmək, qohum-əqrəba ilə gediş-gəliş edərək sileyi-rəhm etmək, gizlində və aşkarda infaq etmək və yaxşı işlər görməkdir.***»

Buna görə də qurtuluşa nail olmaq, nicat tapmaq üçün həm günah işlər tərk olunmalı, həm də Allaha itaət edilməlidir. Yaxşı işlər də səadətə zəmin və vasitə yaradır, bu şərtlə ki, günah vasitəsilə onları məhv edib aradan aparmayaq.

Bunu da qeyd edək ki, Əhli-Beyt (ə) Allah dərgahına yaxınlaşmaqda möhkəm vasitə və qırılmaz ipdir.[1]

**AYƏ 36-37:**

[ إِنَّ الَّذِينَ كَفَرُواْ لَوْ أَنَّ لَهُم مَّا فِي الأَرْضِ جَمِيعًا وَمِثْلَهُ مَعَهُ لِيَفْتَدُواْ بِهِ مِنْ عَذَابِ يَوْمِ الْقِيَامَةِ مَا تُقُبِّلَ مِنْهُمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ. يُرِيدُونَ أَن يَخْرُجُواْ مِنَ النَّارِ وَمَا هُم بِخَارِجِينَ مِنْهَا وَلَهُمْ عَذَابٌ مُّقِيمٌ ]

**TƏRCÜMƏ:**

***36. «Şübhəsiz, əgər yer üzündə olanların hamısı və üstəlik bir o qədəri də kafirlərin olsa ki, onu Qiyamət gününün əzabı(ndan qurtulmaları) üçün fidyə versinlər, onlardan qəbul olunmaz. Onlar üçün ağrılı bir əzab vardır.»***

***37. «Daim oddan çıxmaq istəyərlər. Amma əsla oradan çıxan deyildirlər. Onlar üçün həmişəlik bir əzab vardır.»[2]***

**TƏFSİR:**

36. Möminlərə təqva, cihad və vəsilə əldə etmək barəsində göstəriş verən əvvəlki ayələrin ardınca bu ayədə imansız və pis insanların taleyinə işarə edilərək buyurulur: Kafir olanlar yer üzün-

---

[1] Mə'sumların (ə) rəvayətlərində vəsilə «imam» kimi tə'bir olunmuşdur. («Təfsiri Safi»)

Sünnilərin də bir çox kitablarında təvəssül məsələsi qeyd olunmuşdur. Məsələn, İbn Həcərin «Əs-səvaiq» kitabında, Beyhəqinin «Sünən»ində, həmçinin «Vəfaul-Vəfa», 3-cü cild, səh. 1371. Eləcə də «Nisa» surəsinin 64-cü, «Yusif» surəsinin 97-ci və «Tövbə» surəsinin 117-ci ayələri də təvəssülün qanuni bir iş olmasının sənədi sayıla bilər.

[2] «Həcc» surəsinin 22-ci ayəsində buyurulur: «Onlar hər vaxt cəhənnəmdən çıxmaq və qəm-qüssədən xilas olmaq istədikdə yenidən cəhənnəmə qaytarılarlar.»

dəkilərinin hamısına və onun qədər əlavə mal-dövlətə malik olub Qiyamət gününün cəzasından nicat tapmaq üçün fidyə versələr, yenə də onlardan qəbul olunmayacaq və onlar dərdli əzaba düçar olacaqlar. Yalnız iman, təqva, cihad və saleh əməl sayəsində ondan xilas olmaq mümkündür.

37. Sonra bu cəzanın davam etməsinə işarə edilərək buyurulur: Onlar cəhənnəm odundan həmişə çıxmaq istəyərlər, lakin ona qüdrətləri çatmaz, onların cəzaları sabit və bərqərardır. Hər bir halda, bütün qurtuluş yolları kafirlərin üzünə bağlanar. Onlar nə ilahi rəhmətdən bəhrələnəcəklər (çünki rəhmət təqva əhlinə məxsusdur), nə də şəfaətdən (çünki şəfaət yalnız Allahın razı olduğu şəxslərə məxsusdur). Ölümdən də bir xəbər yoxdur, onlar həmişə cəhənnəm odunda diridirlər və onların ölüm istəkləri qəbul olunmayacaqdır.

Bu dünyada mövcud olan çoxlu açıq-aşkar dəlil və yolgöstərmələrə baxmayaraq, şirk və cəhalət zülmətlərindən bir an belə kənara çıxmayan şəxslər axirətdə də cəhənnəm odundan çıxmayacaqlar.

**AYƏ 38:**

[ وَالسَّارِقُ وَالسَّارِقَةُ فَاقْطَعُواْ أَيْدِيَهُمَا جَزَاء بِمَا كَسَبَا نَكَالاً مِّنَ اللّهِ وَاللّهُ عَزِيزٌ حَكِيمٌ ]

**TƏRCÜMƏ:**

***«(Ey İslam hakimləri,) oğru kişi və oğru qadının əlini (baş barmaqlarını çıxmaqla sağ əllərinin dörd barmaqlarını) etdikləri işin müqabilində Allah tərəfindən müəyyənləşdirilmiş bir cəza olaraq kəsin. Allah yenilməz qüdrət və (yaradılış və şəriətdə) hikmət sahibidir.»***

**TƏFSİR:**

Bu ayədə əvvəlcə oğru kişinin, sonra isə oğru qadının adı qeyd olunur. Lakin «Nur» surəsinin 2-ci ayəsində zinakarların hökmü bəyan olunarkən əvvəlcə zinakar qadının (zaniyə), sonra isə zinakar kişinin (zani) adı çəkilir. Bunun səbəbi bəlkə də bu ola bilər ki, oğurluqda kişinin, zinada isə qadının rolu daha artıqdır.

1000 il bundan qabaq yaşamış böyük İslam alimi mərhum Seyyid Mürtəza Ələmul-Hudadan soruşdular: «Nə üçün beş yüz misqal qızıl dəyərində olan bir əl bir misqalın dörddə-biri qədər qızıl oğurladıqda kəsilməlidir?» Cavab verdi: «Əmanət əlin dəyərini yüksəldir, xəyanət isə azaldır.»

Rəvayətlərə əsasən oğru əlin kəsilməli olan miqdarı dörd barmaqdır, baş barmaqla əlin içi qalmalıdır. Buna görə də onun əlinin kəsilməsinə səbəb olan malın miqdarı da aşağısı dinarın (qızıl misqalın) dörddə-biri qədər olmalıdır.

Oğurlanan mal da mühafizə olunan yerdə olmalı, karvansara, hamam, məscid və sair ümumi məkanlar kimi açıq-aşkar yerlərdə olmamalı, hökm icra olunduqdan sonra mal sahibinə qaytarılmalıdır. Oğru da əlin kəsilməsi qanunundan xəbərdar olmalıdır, əks halda onun əli kəsilməz. Həmçinin əgər oğru öz şərikinin malını oğurlasa, yaxud qəhətlik illərində zərurət üzündən yeyinti məhsullarını oğurlasa, onun əli kəsilməyəcəkdir. Eləcə də əgər ata öz övladının, yaxud qul öz ağasının malını oğurlasa, həmçinin, həddibüluğa çatmayan, dəli, yaxud malı aparmağa haqlı olduğunu təsəvvür edən şəxs üçün bu işlər əlinin kəsilməsinə səbəb olmaz. Əlbəttə, əlin kəsilmədiyi halların hamısında başqa cəzalar verilir.

Peyğəmbəri-Əkrəm (s) bir hədisdə ən pis oğurluq kimi namazın oğurlanması, yəni onun rüku və səcdələrinin kamil şəkildə yerinə yetirilməməsini buyurub.[1]

---

[1] «Biharul-ənvar», 84-cü cild, səh. 257, 55-ci hədisdə Peyğəmbəri-Əkrəm (s) buyurur: «Ən pis oğru o kəsdir ki, namazından oğurlasın.»

Bəzi dini şəxsiyyətlər öz kəlamlarında buyururlar ki, nə üçün müsəlmanlardan bəziləri «Həmd» surəsini tilavət edərkən «Bismillahir-rəhmanir-rəhim»i oğurlayırlar?

Əlin kəsilməsi oğurluğun birinci mərhələsindədir. İkinci dəfə sol ayağı dabanın altından kəsilir. Üçüncü dəfə əbədi olaraq həbsə məhkum edilir, dördüncü dəfə isə edam olunur.[1]

## *İNCƏ MƏTLƏBLƏR*

1. Əlin kəsilməsi oğurluğun qarşısını almaq üçün yeganə ağır cəza və cərimədir.
2. İlahi cəza qanunlarının icra olunması zamanı insani duyğulara qapılmaq olmaz.
3. Oğru, əli kəsilməkdən əlavə, oğurladığı mala da zamindir.
4. Bu hökmlərin icra olunmasında hökumət, qüdrət və təşkilata ehtiyac duyulur. Deməli, İslam hökumət və siyasət dinidir.
5. Bir kəsin «yoxsulluqdan oğurluq etməyə məcbur idim» – deməsi əsas sayılmır.

(İslam dini əlin kəsilməsindən öncə fəqirlərin məişət xərclərini və ehtiyaclarını beytül-maldan təmin etməklə, qohum-əqrəbasının köməkliyi ilə, faizsiz borc verməklə, qarşılıqlı kömək, həmkarlıq və sair kimi yollarla təmin olunmasına kömək etməklə iş və fəaliyyətin zərurətinə və əhəmiyyətinə diqqət yetirir.[2]

---

«Biharul-ənvar»ın 263-cü səhifəsində Peyğəmbər (s) buyurur: «Oğruların ən oğrusu o kəsdir ki, namazından bir şey oğurlasın, yə'ni onu naqis qılsın.»

267-ci səhifənin 68-ci hədisində isə buyurur: «Oğru təkcə camaatın malını oğurlayan deyil, namazından da bir şey oğurlayan oğru sayılır.»

«Müsnəd» (Əhməd ibni Hənbəl), 3-cü cild, səh. 56, «Sünəni Darəmi»nin 1-ci cildinin 305-ci səhifəsində Rəsuli-Əkrəmdən (s) belə nəql olunur: «Camaatın ən pisi o kəsdir ki, namazından oğurlasın.» «Ya Rəsuləllah, namazdan necə oğurlanar?» – deyə soruşulduqda buyurdu: «Rüku və səcdələri naqis yerinə yetirməklə.»

[1] «Təfsiri Safi», «Məcməul-bəyan», 3-cü cild, səh. 192

[2] «Fi zilalil-Qur'an» təfsiri, 2-ci cild, səh. 71, «Maidə» surəsi, ayə 38

6. İlahi cəzalar intiqam deyildir, onlar insanı pis əməllərdən çəkindirir.

**AYƏ 39:**

[ فَمَن تَابَ مِن بَعْدِ ظُلْمِهِ وَأَصْلَحَ فَإِنَّ اللّهَ يَتُوبُ عَلَيْهِ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ ]

**TƏRCÜMƏ:**

***«(Kim etdiyi zülmündən sonra tövbə etsə və (əqidə və əməlini) düzəltməyə başlasa, şübhəsiz, Allah ona nəzər salar və tövbəsini qəbul edər. Həqiqətən Allah çox bağışlayan və mehribandır.»***

**TƏFSİR:**

İslamda ilahi cəza qanunları insanların haqqa dəvət və tərbiyə olunması, onlara yol göstərilməsi ilə yanaşıdır. Əvvəlki ayədə oğrunun cəzası bəyan olunurdu. Burada isə tövbə edərək bağışlayan və mehriban Allah dərgahına qayıtmağa, öz pis əməllərini islah etməyə dəvət edilir ki, bu da Allahın Öz mərhəmətinin yenidən bəndəyə şamil olmasına səbəb olur.

Öz çirkin və yaramaz əməllərindən qayıdıb özünü islah etmək yolu – tövbə qapısı xətakar insanlar üçün həmişə açıqdır. Tövbə sadəcə olaraq batini peşmançılıqdan ibarət deyil, əksinə, keçmiş nalayiq əməllərin islah edilməsi ilə yanaşı olmalıdır.

Əgər oğru tutulub məhkəməyə verilməzdən qabaq tövbə etsə və malı geri qaytarsa, həm dünyada, həm də axirətdə bağışlanacaq, amma tutulandan sonra ilahi cəza qanunu icra olunmalıdır, tövbə isə yalnız Qiyamətdə faydalı olacaqdır.

**AYƏ 40:**

[ أَلَمْ تَعْلَمْ أَنَّ اللّهَ لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ يُعَذِّبُ مَن يَشَاء وَيَغْفِرُ لِمَن يَشَاء وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ]

**TƏRCÜMƏ:**

***«Məgər göylərin və yerin həqiqi səltənət və mülkiyyətinin Allaha məxsus olmasını bilmirsən?! (Çünki yaratmaq, qorumaq, işlərin nizama salınması və yox etmək, bunların hamısı Onun iradə və istəyinin təsiri altındadır.) İstədiyinə (ədalət və hikmətə uyğun olaraq) əzab verər və istədiyini (rəhmət əsasında) bağışlayar. Allah hər şeyə qadirdir.»***

**TƏFSİR:**

Allahın bəndələrin tövbəsinə heç bir ehtiyacı yoxdur. Çünki bütün varlıq aləmi Ona məxsusdur. Günah əhli də bilməlidir ki, heç bir qaçış yolu yoxdur, yalnız Allaha tərəf qayıtmalıdır.

**AYƏ 41:**

[يَا أَيُّهَا الرَّسُولُ لاَ يَحْزُنكَ الَّذِينَ يُسَارِعُونَ فِي الْكُفْرِ مِنَ الَّذِينَ قَالُواْ آمَنَّا بِأَفْوَاهِهِمْ وَلَمْ تُؤْمِن قُلُوبُهُمْ وَمِنَ الَّذِينَ هِادُواْ سَمَّاعُونَ لِلْكَذِبِ سَمَّاعُونَ لِقَوْمٍ آخَرِينَ لَمْ يَأْتُوكَ يُحَرِّفُونَ الْكَلِمَ مِن بَعْدِ مَوَاضِعِهِ يَقُولُونَ إِنْ أُوتِيتُمْ هَـذَا فَخُذُوهُ وَإِن لَّمْ تُؤْتَوْهُ فَاحْذَرُواْ وَمَن يُرِدِ اللّهُ فِتْنَتَهُ فَلَن تَمْلِكَ لَهُ مِنَ اللّهِ شَيْئًا أُوْلَـئِكَ الَّذِينَ لَمْ يُرِدِ اللّهُ أَن يُطَهِّرَ قُلُوبَهُمْ لَهُمْ فِي الدُّنْيَا خِزْيٌ وَلَهُمْ فِي الآخِرَةِ عَذَابٌ عَظِيمٌ]

**TƏRCÜMƏ:**

***«Ey Peyğəmbər, küfrdə (ona meyl göstərməkdə və kömək etməkdə) tələsən kəslər – istər dilləri "iman gətirdik" deyib qəlbləri iman gətirməmiş kəslər (münafiqlər), istərsə də yəhudilər səni kədərləndirməsinlər. Onlar çox yalan eşidən və sənin yanına gəlməyən dəstənin (alimlərinin) əmrlərinə çox qulaq asan (tabe olan)lardır. (Onların alimləri) o kəslər(dir) ki, (Tövratın) kəlmələri (və hökmlərini) öz yerlərində qərar tutduqdan sonra təhrif edirlər (və avamlarına) «əgər bunu (bu hökmü) sizə versələr, götürün və əgər onu verməsələr (ondan başqasını versələr) çəkinin» deyirlər. Sən Allahın əzab(a düçar) və xar olmasını istədiyi kəsdən Allah(ın əzabın)dan əsla bir şeyi dəf edə bilməzsən. Onlar Allahın qəlblərini pak etmək istəmədiyi kəslərdir. Onlar üçün dünyada xarlıq, axirətdə isə böyük bir əzab olacaqdır.»***

**TƏFSİR:**

Peyğəmbərlər günahkar bəndələrə ürək yandırırlar.

Münafiqlər yəhudilərlə əl-ələ verərək bir hədəfi izləyirlər. Bu da başqalarını dindən azdırmaqdır. Kafirlər həmişə müsəlmanların arasına casus göndərirlər. Buna görə də dini təbliğatçılar bütün dinləyiciləri xoşniyyətli hesab etməməlidirlər.

Bunu da qeyd edək ki, münafiqlər dünyada bədbəxtdirlər (çünki dini casusluq, təhrif, qazanc əldə etmək kimi məqsədlərlə istəyirlər), Qiyamətdə də onları böyük əzab gözləyir.

Hər bir halda biz Allahın əmr və fərmanlarına qeydsiz-şərtsiz təslim olmalı, dini hökmləri öz istəklərimizə uyğunlaşdırmağa çalışmamalıyıq.

## AYƏ 42:

[سَمَّاعُونَ لِلْكَذِبِ أَكَّالُونَ لِلسُّحْتِ فَإِن جَآؤُوكَ فَاحْكُم بَيْنَهُم أَوْ أَعْرِضْ عَنْهُمْ وَإِن تُعْرِضْ عَنْهُمْ فَلَن يَضُرُّوكَ شَيْئًا وَإِنْ حَكَمْتَ فَاحْكُم بَيْنَهُمْ بِالْقِسْطِ إِنَّ اللهَ يُحِبُّ الْمُقْسِطِينَ]

**TƏRCÜMƏ:**

***«Onlar yalana çox qulaq asaraq onu qəbul edən və haram yeyənlərdir (onlar öz alimlərindən yalan qəbul edirlər və alimləri camaatdan rüşvət alırlar). Buna görə də əgər sənin yanına gəlsələr, istəsən onların arasında hökm et, yaxud onlardan üz döndər. Əgər üz döndərsən, sənə əsla bir ziyan vura bilməzlər. Əgər hökm etsən, aralarında haqq-ədalətlə hökm et, çünki Allah ədalətliləri sevir.»***

**TƏFSİR:**

Möhsinə zina edən yəhudilərdən bəziləri yəhudi dinində də mövcud olan daşqalaq cəzasından amanda qalmaq üçün[1] Peyğəmbərin (s) yanına gəldilər ki, o Həzrət (s) onların barəsində mühakimə yürütsün. Halbuki, İslamda da zinakarın daşqalaq olunması hökmündən qafil idilər. İslamda da hökmün məhz belə olduğunu gördükdə onu qəbul etməyə hazır olmadılar.

Rəvayətlərə əsasən, «süht» müəyyən bir işi yerinə yetirmək üçün verilən hədiyyə və rüşvətə aid edilir, mənası da həlakət, yaxud həlakətə səbəb olan bir şeydir.

---

[1] Tövratın «Təsniyə sifri»nin 22-ci fəslində zinanın hökmü bəyan olunur.

**AYƏ 43:**

[ وَكَيْفَ يُحَكِّمُونَكَ وَعِندَهُمُ التَّوْرَاةُ فِيهَا حُكْمُ اللّهِ ثُمَّ يَتَوَلَّوْنَ مِن بَعْدِ ذَلِكَ وَمَا أُوْلَـئِكَ بِالْمُؤْمِنِينَ ]

**TƏRCÜMƏ:**

***«Allahın hökmü içərisində olan Tövrat onların yanlarında ola-ola səni necə hakim təyin edir, sonra onun (sənin çıxardığın hökmün) ardınca (çıxarılmış hökmün kitabları ilə üst-üstə düşməsinə baxmayaraq) üz döndərirlər?! Onların (öz kitablarına da) imanları yoxdur.»***

**TƏFSİR:**

Bu ayə yəhudilərin, Peyğəmbərdən (s) onların arasında hakim olmaq istəyini bəyan edərək təəccüblə buyurur: Bunlar sənin onların arasında hakim olmağını necə istəyirlər, halbuki Tövrat onların yanındadır?! Allahın hökmü orada mövcuddur və ona imanları vardır.

Bilmək lazımdır ki, yuxarıdakı hökm – möhsinə zina edən kişi və qadının daşqalaq edilməsi hazırkı Tövratın təsniyə sifrinin 22-ci fəslində də gəlmişdir.

**AYƏ 44:**

[إِنَّا أَنزَلْنَا التَّوْرَاةَ فِيهَا هُدًى وَنُورٌ يَحْكُمُ بِهَا النَّبِيُّونَ الَّذِينَ أَسْلَمُواْ لِلَّذِينَ هَادُواْ وَالرَّبَّانِيُّونَ وَالأَحْبَارُ بِمَا اسْتُحْفِظُواْ مِن كِتَابِ اللّهِ وَكَانُواْ عَلَيْهِ شُهَدَاء فَلاَ تَخْشَوُاْ النَّاسَ وَاخْشَوْنِ وَلاَ تَشْتَرُواْ بِآيَاتِي ثَمَنًا قَلِيلاً وَمَن لَّمْ يَحْكُم بِمَا أَنزَلَ اللّهُ فَأُوْلَـئِكَ هُمُ الْكَافِرُونَ]

**TƏRCÜMƏ:**

***«Həqiqətən Biz onda hidayət və nur olan Tövratı nazil etdik. (Musanın zamanından İsanın zamanına qədər Musanın dininə) təslim olan peyğəmbərlər onun əsasında yəhudilər üçün hökm çıxarırdılar. Həmçinin rəbbani (Allahpərəst) alimlər və (Tövratşünas) bilik sahibləri onlardan Allahın kitabının qorunması istənildiyi və onlar onun (qalması və toxunulmazlığına) şahid olduqları üçün (onun əsasında hökm çıxarırdılar). Odur ki, (ey yəhudi alimləri,) insanlardan qorxmayın, Məndən qorxun və Mənim ayələrim(i təhrif etmək) vasitəsilə az bir qazanc əldə etməyin! Allahın nazil etdiyinin əsasında hökm etməyənlər – məhz onlardır kafirlər!»***

**TƏFSİR:**

Tövrat və İncilin təhrif olunmasını etiraf etməklə yanaşı, səmavi kitabın əslini təqdirəlayiq bilməliyik. Tövratın Musaya (ə), İncilin İsaya (ə) nazil olmasına baxmayaraq, onlardan sonrakı bütün peyğəmbər və alimlərin tərəfindən qəbul olunurdu və onlar da məhz onun hökmləri əsasında əməl edirdilər. Peyğəmbərlər özlərindən heç bir hökm vermir, əksinə, Allahın hökmünə tabe idilər. Əgər peyğəmbərlər Allahın hökmünə təslimdirsə, onda biz nə üçün təslim olmamalıyıq? İslam bütün insanların dinidir. Bəni-İsrail peyğəmbərləri də yəhudiyyət və nəsraniyyətlə deyil, «əsləmu» cümləsi ilə vəsf edilmişlər.

Ümumiyyətlə, hər ümmətin alimləri ilahi hökmlərin məhz onların arasında icra olunmasına cavabdehdir. Vilayəti-fəqih məsələsi bütün dinlərdə mövcud olmuşdur.

***İNCƏ MƏTLƏBLƏR***

«Rəbbani» kəlməsi «tərbiyə edən» mənasında olan bir kəlmədir (rəbban – ətşan vəznindədir). Bəzilərinin nəzərinə əsasən, rəbbani

o kəsə deyilir ki, Rəbbul-aləminlə əlaqəsi olsun, Ondan başqası ilə aramlıq tapmasın, elm və əməli ilə ilahi bir insan olsun və digər insanların tərbiyəsini də öhdəsinə alsın.

«Hibr» yaxşı əsər mənasınadır. Cəmiyyətdə olan alimlər yaxşı əsərin mənşəyi olduğundan onlara hibr və əhbar deyilir (əhbar – hibrin cəm formasıdır).[1]

**AYƏ 45:**

[وَكَتَبْنَا عَلَيْهِمْ فِيهَا أَنَّ النَّفْسَ بِالنَّفْسِ وَالْعَيْنَ بِالْعَيْنِ وَالأَنفَ بِالأَنفِ وَالأُذُنَ بِالأُذُنِ وَالسِّنَّ بِالسِّنِّ وَالْجُرُوحَ قِصَاصٌ فَمَن تَصَدَّقَ بِهِ فَهُوَ كَفَّارَةٌ لَّهُ وَمَن لَّمْ يَحْكُم بِمَا أنزَلَ اللّهُ فَأُوْلَـئِكَ هُمُ الظَّالِمُونَ]

**TƏRCÜMƏ:**

***«Biz o kitabda onlar üçün (belə) qərara aldıq ki, canın müqabilində can, gözün müqabilində göz, burunun müqabilində burun, qulağın müqabilində qulaq və dişin müqabilində dişdir (və bunların hər birinin qisası alınır). Yaraların da qisası vardır. Kim qisas alınmasına boyun qoysa bu, (onun həmin günahı üçün) bir kəffarədir. Kim qisas almaqdan keçsə, bu, (onun günahları üçün) bir kəffarədir. Allahın nazil etdiyinin əsasında hökm etməyənlər – məhz onlardır zalımlar!»***

**TƏFSİR:**

***QİSAS VƏ GÜZƏŞT***

Bu ayə Tövratın ilahi cəza qanunları və cinayət hökmlərinin bir qismini şərh edərək buyurur: Biz Tövratda qisas qanununu belə qərara aldıq ki, əgər bir kəs qəsdən günahsız bir insanı qətlə yetirsə,

---

[1] Həzrət Əlidən (ə) nəql olunur ki, «bu ümmətin rəbbanisi mənəm.» («Təfsiri Məraği»). İmam Sadiq (ə) buyurur: «Rəbbaniyyun Əhli-beyt imamlarıdır.» («Təfsiri Safi»)

öldürülən şəxsin vəliləri qatildən qisas alaraq (onun əməli müqabilində) edam edə bilərlər.

Əgər bir kəs başqasının gözünə xəsarət yetirib onu kor etsə, o da həmin şəxsin (xəsarət vuranın) gözünü çıxarıb kor edə bilər. Həmçinin biri başqasının burnunu kəsərsə, onun burnunu kəsməsi, qulağını kəssə, qulaq kəsənin də qulağını kəsməsi caizdir. Əgər bir kəs başqasının dişini sındırsa, caninin dişini sındıra bilər. Ümumiyyətlə, hər kəs başqasına bir yara (xəsarət) vursa, onun müqabilində həmin şəxsdən qisas alına bilər.

Buna əsasən, qisas hökmü ədalətli şəkildə, irqi, ictimai və sinfi təbəqə, tayfa və şəxsiyyət baxımından heç bir fərq qoyulmadan icra olunur. Lakin Allah-təalanın bu kimi hallarda qisas alaraq xəsarətin əvəzini çıxmağı vacib etməsi düşünülməsin deyə, bu hökmün ardınca buyurulur: Əgər bir kəs öz haqqından keçərək qisas almayıb güzəştə gedərsə, onun günahlarının kəffarəsi hesab olunar. O nə qədər güzəştə getsə, Allah da onun günahlarından güzəştə gedər.

Ayənin axırında buyurulur: Hər kəs Allahın hökmü əsasında hökm etməzsə, zalımdır. Bundan da böyük zülm ola bilərmi ki, biz yalançı duyğulara, hissiyyata qapılaraq qatildən «qanı qanla yumaq olmaz» – deyə birdəfəlik göz yumaq?!

## AYƏ 46:

[وَقَفَّيْنَا عَلَى آثَارِهِم بِعَيسَى ابْنِ مَرْيَمَ مُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ التَّوْرَاةِ وَآتَيْنَاهُ الإِنجِيلَ
فِيهِ هُدًى وَنُورٌ وَمُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ التَّوْرَاةِ وَهُدًى وَمَوْعِظَةً لِّلْمُتَّقِينَ]

**TƏRCÜMƏ:**

***«Onların (qabaqkı peyğəmbərlərin) ardınca Məryəm oğlu İsanı göndərdik ki, o, özündən əvvəlki Tövratı təsdiqləyirdi. Və***

***ona içində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən və pəhrizkarlar üçün hidayət və nəsihət olan İncil verdik.»***

**TƏFSİR:**

Tövratla əlaqədar nazil edilən ayələrin ardınca bu ayədə İncilin vəziyyətinə işarə edilir və buyurulur: Əvvəlki peyğəmbərlərdən və ilahi rəhbərlərdən sonra Məsihi (ə) məbus elədik. Halbuki, o, Tövratın haqq olmasını təsdiq edirdi. Onun nişanələri Tövratda gələn nişanələrlə tamamilə uyğun idi.

Sonra buyurulur: İncili onun ixtiyarında qoyduq, halbuki, onda hidayət və nur var idi. Bu iki kitaba «nur» deyildikdə əsl İncil və Tövrat nəzərdə tutulur.

Bir daha təkid ünvanı ilə bu mətləbi çatdırır ki, təkcə İsa ibn Məryəm (ə) Tövratı təsdiq etmirdi, onun səmavi kitabı olan İncil də Tövratın düzlüyünə şahid idi. Ayənin axırında buyurulur: Bu səmavi kitab təqvalılar üçün mövizə, öyüd-nəsihət və hidayət mənbəyi idi.

**AYƏ 47:**

[ وَلْيَحْكُمْ أَهْلُ الإِنجِيلِ بِمَا أَنزَلَ اللّهُ فِيهِ وَمَن لَّمْ يَحْكُم بِمَا أَنزَلَ اللّهُ فَأُوْلَـئِكَ هُمُ الْفَاسِقُونَ ]

**TƏRCÜMƏ:**

***«Gərək İncil əhli Allahın onda nazil etdiyinin əsasında hökm etsin. Allahın nazil etdiyinin əsasında hökm etməyənlər – məhz onlardır fasiqlər!»***

## TƏFSİR:

### *ALLAHIN QANUNU ƏSASINDA HÖKM ETMƏYƏNLƏR*

Keçən ayələrdə İncilin nazil olmasına işarə edildikdən sonra bu ayədə buyurulur: Biz İncil əhlinə göstəriş verdik ki, Allahın onda nazil etdiyi əsasda hökm etsinlər. Yəni Biz İncili İsaya (ə) nazil etdikdən sonra onun ardıcıllarına göstəriş verdik ki, ona əməl edib onun əsasında mühakimə yürütsünlər.

Ayənin axırında bir daha təkid olaraq buyurulur: Allahın hökmü əsasında mühakimə yürütməyənlər fasiqdirlər.

## AYƏ 48:

[وَأَنزَلْنَا إِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ مُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ الْكِتَابِ وَمُهَيْمِنًا عَلَيْهِ فَاحْكُم بَيْنَهُم بِمَا أَنزَلَ اللهُ وَلاَ تَتَّبِعْ أَهْوَاءهُمْ عَمَّا جَاءكَ مِنَ الْحَقِّ لِكُلٍّ جَعَلْنَا مِنكُمْ شِرْعَةً وَمِنْهَاجًا وَلَوْ شَاء اللهُ لَجَعَلَكُمْ أُمَّةً وَاحِدَةً وَلَـكِن لِّيَبْلُوَكُمْ فِي مَآ آتَاكُم فَاسْتَبِقُوا الخَيْرَاتِ إِلَى اللهِ مَرْجِعُكُمْ جَمِيعًا فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ فِيهِ تَخْتَلِفُونَ]

## TƏRCÜMƏ:

***«Biz bu kitabı sənə haqq və doğru olaraq özündən əvvəlki (səmavi) kitabları təsdiq edən və onlara hakim, nəzarətçi, qoruyan və şahid kimi nazil etdik. Buna görə də onların arasında Allahın (sənə) nazil etdiyinin əsasında hökm et və heç vaxt sənə gəlmiş haqdan dönərək onların (nəfsi) istəklərinə tabe olma. Siz (ümmətlər)in hər biriniz üçün aydın bir şəriət və yol qoyduq. Əgər Allah (Öz qəti iradəsi ilə) istəsəydi, şübhəsiz, sizin hamınızı (bütün ümmətləri) bir ümmət edərdi (tarix boyu bütün bəşəriyyətə eyni durğun zehni istedad verər və hamını bir şəriətə möhtac edərdi). Lakin sizi, sizə verdiyi şeylə imtahan***

***etmək istədi (buna görə də insanlara kamilləşməsi mümkün olan müxtəlif istedadlar verdi və onun təkamülünə uyğun olaraq şəriətlər nazil etdi). Buna görə də xeyir işlərə doğru bir-birinizi qabaqlayın. Hamınızın qayıdışı Allaha tərəfdir. O sizi, barəsində ixtilafda olduğunuz şeydən xəbərdar edəcəkdir.»***

**TƏFSİR:**

Əvvəlki peyğəmbərlərin səmavi kitabı zikr edildikdən sonra bu ayədə Quranın mövqeyinə işarə edilir. Əvvəlcə buyurulur: Biz bu səmavi kitabı haqq olaraq sənə nazil etdik. O əvvəlki kitabları təsdiq edir və onun nişanələri əvvəlki kitablarda gələnlərlə tam müvafiqdir və Quran onların keşikçisi, qoruqçusudur.

Ümumiyyətlə, bütün səmavi kitablar əsl məsələlərdə bir-birləri ilə uyğundur və onlar vahid bir hədəfi, yəni insanın təkamül və tərbiyəsi məsələsini izləyirlər. Sonra göstəriş verilir ki, buna görə də onların arasında sənə nazil olan hökm əsasında mühakimə yürüt. Daha sonra əlavə edilir: İlahi hökmləri öz istəklərinə uyğunlaşdırmaq istəyənlərin nəfs istəklərinə tabe olma, sənə haqq olaraq nazil olanlardan üz çevirmə. Bu bəhsin təkmilləşdirilməsi üçün buyurulur: Sizlərdən hər biri üçün aydın yol, şəriət və ayin qərar verdik. Sonra buyurulur: Allah insanların hamısını vahid bir ümmət qərar verib, hamını bir dinin ardıcılı edə bilərdi. Lakin O sizə əta etdiyi şeylərlə sizi imtahana çəkmək, nəticədə müxtəlif qabiliyyət və istedadlarınızı çiçəkləndirmək istəyir.

Nəhayət, bütün millət və qövmlərə xitab edərək buyurur ki, öz qüvvələrinizi ixtilaflara sərf etmək əvəzinə, yaxşı işlərdə yarışıb bir-birinizdən qabağa keçin. Çünki, hamınızın qayıdacaq yeri Allaha tərəfdir, O sizi Qiyamət günü ixtilaflı olduğunuz məsələlərdən agah edəcəkdir.

***İNCƏ MƏTLƏBLƏR***

«Şirə» suya çatan yola, «minhac» isə aydın yola deyilir. İbn Abbas demişdir: Şirə Quranda, minhac isə Peyğəmbərin (s) sünnəsində gələn hökmlərdir.[1]

**AYƏ 49:**

[وَأَنِ احْكُم بَيْنَهُم بِمَآ أَنزَلَ اللّهُ وَلاَ تَتَّبِعْ أَهْوَاءهُمْ وَاحْذَرْهُمْ أَن يَفْتِنُوكَ عَن بَعْضِ مَا أَنزَلَ اللّهُ إِلَيْكَ فَإِن تَوَلَّوْاْ فَاعْلَمْ أَنَّمَا يُرِيدُ اللّهُ أَن يُصِيبَهُم بِبَعْضِ ذُنُوبِهِمْ وَإِنَّ كَثِيرًا مِّنَ النَّاسِ لَفَاسِقُونَ]

**TƏRCÜMƏ:**

***«(Sənə vəhy etdik ki,) onların arasında Allahın nazil etdiyinin əsasında hökm et, onların nəfsi istəklərinə tabe olma və onlardan çəkin ki, məbadə səni Allahın sənə nazil etdiyinin bəzisindən döndərələr. Beləliklə əgər onlar (sənin hökm etməyindən) üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarının cəzası olaraq müsibətə düçar etmək istəyib. Əlbəttə insanların çoxu fasiq və Allahın itaətindən çıxandırlar.»***

**AYƏNİN NAZİLOLMA SƏBƏBİ**

İbn Abbasdan rəvayət olunur: Yəhudi böyüklərindən bir neçəsi hiylə qurub dedilər: “ Məhəmmədin (s) yanına gedək, bəlkə onu öz dinindən döndərə bildik.” Sonra Peyğəmbərin (s) yanına gəlib dedilər: “Biz yəhudilərin əyan-əşrafı və alimləriyik. Əgər biz sənə tabe olsaq, digər yəhudilər də bizə baxıb sənə tabe olacaqlar. Lakin bizimlə bir dəstə adamın arasında (bir qətl hadisəsi, yaxud başqa şeylə əlaqədar) münaqişə vardır. Əgər bu münaqişədə bizim

[1] «Müfrədat», Rağib.

xeyrimizə mühakimə yürütsən, sənə iman gətirəcəyik.” Peyğəmbər (s) ədalətli olmayan belə bir mühakimədən imtina etdi və sonra bu ayə nazil oldu.

**TƏFSİR:**

Allah-təala Öz Peyğəmbərinə (s) bir daha təkidlə buyurur ki, kitab əhli arasında Allahın hökmü əsasında mühakimə yürütsün və onların istəklərinə təslim olmasın. Sonra Peyğəmbərə (s) xəbərdarlıq edərək buyurur ki, onlar Allahın nazil etdiyi hökmlərin bəzisində onu yoldan çıxartmaq barədə məkrli hiylə qurmuşlar. Onların barəsində ehtiyatlı olsun. Əgər kitab əhli onun ədalətli mühakiməsi müqabilində təslim olmasalar, bilsin ki, günahları onların amanlarını kəsmiş, tovfiqi onlardan almışdır. Allah da günahlarının bəzilərinə görə onları cəzalandırmaq istəyir.

Ayənin axırında buyurulur: Onların batil yolda bu qədər israr etmələrindən əsla nigaran olma. Çünki camaatın çoxu fasiqdir.

**AYƏ 50:**

[ أَفَحُكْمَ الْجَاهِلِيَّةِ يَبْغُونَ وَمَنْ أَحْسَنُ مِنَ اللهِ حُكْمًا لِّقَوْمٍ يُوقِنُونَ ]

**TƏRCÜMƏ:**

***«Bəs onlar cahiliyyət dövrünün hökmünü istəyirlər?! (Yaradılışın başlanğıc və sonuna) yəqinliyi olanlar üçün kimin hakimliyi Allahın hakimliyindən daha yaxşıdır?!»***

**TƏFSİR:**

Bir qanunu çıxaran şəxs aşağıdakı şərtlərə malik olarsa, o ən yaxşı qanundur:

1. Aləmin və insanın yaradılışının bütün sirlərindən: hazırdakı və gələcəkdəki sirlərindən agah olsun.

2. Şəxsi qazanc məqsədi güdməsin.

3. Onda səhvən, yaxud qəsdən olan heç bir qanun pozuntusu, yaxud sapması olmasın.

4. Heç bir qüdrətdən qorxmasın.

Bu şərtlərin hamısı Allahda mövcuddur. Belə isə, Allahdan yaxşı bir mühakimə yürüdən varmı?

Buna görə də ilahi hökmlərə malik olmaqla bəşər qanunlarının ardınca gedənlər cahiliyyət yolunda qədəm götürürlər.

Allah hökmünün əksinə olan hər bir bəşər qanunu cahiliyyət hökmüdür. Çünki bu qanunlar həvayi-nəfs, həvəs, qorxu, tamah, cəhalət, xəta və xəyalların əsasında qurulmuşdur. Cahiliyyət dövrü də hansısa bir dövrə məxsus deyil. Hər vaxt camaat Allahdan ayrılsa, cahiliyyət dövrünə mübtəla olur. Allah bizim hamımızı azğınçılıqdan qorusun!

**AYƏ 51:**

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ الْيَهُودَ وَالنَّصَارَى أَوْلِيَاء بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ وَمَن يَتَوَلَّهُم مِّنكُمْ فَإِنَّهُ مِنْهُمْ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, yəhudi və xaçpərəstləri özünüzə dost və köməkçi tutmayın, onlar bir-birlərinin dostu və köməkçiləridir. Sizdən kim onları özünə dost və köməkçi tutsa, onlardan olacaqdır (və zalımdır və) şübhəsiz, Allah zalım dəstəni hidayət etməz.»***

**TƏFSİR:**

Düşmənə nifrət etmək imanın şərtidir. Kafirlərlə, onların istilaçılıqlarını və vilayətini qəbul etmək əsasında rabitə quran İslam dövlətləri kafirlərdən hesab olunur. İnsanın hər bir dəstə, yaxud insanla dostluq etməsi onu həmin dəstədən edir.

Müsəlmanların xarici siyasət və əlaqələrdə kafirlərin istilaçılıq və vilayətinə səbəb olan hər növ tədbiri qadağandır, çünki Qurani-Kərim heç bir qeyd gətirmədən mütləq şəkildə və açıq-aşkar hər növ istilaçılığı, hətta mütəxəssis və ya səyyah adı ilə olsa belə, qadağan etmişdir.

Ayədə yəhudi və məsihilərin zikr olunması sadəcə olaraq misal qəbilindəndir. Əslində isə heç bir kafirin vilayətini qəbul etmək olmaz. Əlbəttə, digər Quran ayələrindən məlum olur ki, kafirlərin ətdən başqa yeyinti məhsullarından faydalanmaq, yaxud onlarla alver etmək caizdir və bu məsələlərdən heç biri kafirlərin istilaçılığını qəbul etmək mənasına deyil.

**AYƏ 52:**

[فَتَرَى الَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ يُسَارِعُونَ فِيهِمْ يَقُولُونَ نَخْشَى أَن تُصِيبَنَا دَآئِرَةٌ
فَعَسَى اللّهُ أَن يَأْتِيَ بِالْفَتْحِ أَوْ أَمْرٍ مِّنْ عِندِهِ فَيُصْبِحُواْ عَلَى مَا أَسَرُّواْ فِي أَنْفُسِهِمْ نَادِمِينَ]

**TƏRCÜMƏ:**

***«Beləliklə qəlblərində xəstəlik (nifaq və ikiüzlülük xəstəliyi) olan kəslərin onlar(la dostluğ)a tələsmələrini, «bizə pis bir hadisənin üz verməsindən (İslam dövlətinin süquta uğramasından və onların bizə hakim olmalarından) qorxuruq» demələrini görürsən. Ümid var ki, Allah (müsəlmanlar üçün) bir qələbə, yaxud Öz tərəfindən bir iş qarşıya çıxarsın (kafirləri başqa yolla həlak etsin) və onlar qəlblərində gizlətdikləri şeyə görə peşman olsunlar.»***

**TƏFSİR:**

Bu ayədə qəlbləri xəstə olanların yadlarla qanunsuz əlaqələrinə bəraət qazandırmaq üçün gətirdikləri bəhanələrə işarə edilir. Qəlbən xəstə olanlar israr edirlər ki, kafirləri özlərinə arxalanacaq və həmpeyman seçsinlər. Bu işlərinə bəhanə gətirib deyirlər: «Biz qorxuruq ki, qüdrət onların əlinə düşsün və biz giriftar olaq.»

Quran onların cavabında buyurur: Onlar qüdrətin nə vaxtsa yəhudilərin və məsihilərin əlinə düşəcəyinə ehtimal verirlərsə, bu ehtimalı da verməlidirlər ki, axırda Allah müsəlmanları qalib etsin və qüdrət onların əlinə düşsün. Bu zaman münafiqlər qəlblərində gizlətdiklərindən peşman olsunlar.

**AYƏ 53:**

[ وَيَقُولُ الَّذِينَ آمَنُواْ أَهَـؤُلاء الَّذِينَ أَقْسَمُواْ بِاللّهِ جَهْدَ أَيْمَانِهِمْ إِنَّهُمْ لَمَعَكُمْ حَبِطَتْ أَعْمَالُهُمْ فَأَصْبَحُواْ خَاسِرِينَ ]

**TƏRCÜMƏ:**

***«İman gətirənlər (münafiqlərin nifaqı üzə çıxan zaman bir-birlərinə) deyərlər: "Sizinlə birlikdə olmalarına dair Allaha möhkəm and içənlər bunlar idilər?!" (Doğrudan da) onların (münafiqlərin) əməlləri batil və puç oldu və onlar ziyana uğradılar.»***

**TƏFSİR:**

Bu ayədə münafiqlərin işinin aqibətinə işarə edilərək buyurulur: Fəth və qələbə həqiqi müsəlmanlara nəsib olan zaman münafiqlərin işi aşkar olar və möminlər təəccüb üzündən «məgər münafiqlər bu qədər iddia edən, son dərəcə təkidlə and içib bizimlə olduğunu deyən həmin şəxslər deyildimi?! Nə üçün onların işi belə

nəticələndi? Nə oldu ki, onların bütün yaxşı əməlləri məhv olub aradan getdi? Çünki onların mənşəyi xalis və niyyətləri pak deyildi. Həmin səbəbə görə də həm bu dünyada, həm də axirətdə ziyana uğradılar.

**AYƏ 54:**

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ مَن يَرْتَدَّ مِنكُمْ عَن دِينِهِ فَسَوْفَ يَأْتِي اللّهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّونَهُ أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ يُجَاهِدُونَ فِي سَبِيلِ اللّهِ وَلاَ يَخَافُونَ لَوْمَةَ لآئِمٍ ذَلِكَ فَضْلُ اللّهِ يُؤْتِيهِ مَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, sizdən kim öz dinindən dönsə (Allaha bir ziyan vurmaz), Allah tezliklə Özünün sevdiyi və Onu sevən bir dəstəni gətirər. (Onlar) möminlərin qarşısında ram və təvazökar, kafirlərin qarşısında isə qüdrətli və qalibdirlər, Allah yolunda cihad edir və heç bir tənə vuranın tənəsindən qorxmurlar. Bu (iman, məhəbbət və şücaət) Allahın lütfüdür ki, onu istədiyinə verir. Allah (vücud, qüdrət və rəhmət baxımından) geniş və biləndir.»***

**TƏFSİR:**

Münafiqlərin barəsində söhbət aparıldıqdan sonra Quranın uzaqgörənliyinə əsasən sonralar bu müqəddəs dindən üz çevirəcək mürtədlər barəsində söhbət açılır və ümumi bir qanun şəklində bütün müsəlmanlara xitabən buyurulur: Əgər sizdən müəyyən şəxslər öz dinindən çıxsalar, Allaha, Onun dininə, müsəlman cəmiyyətinə və onun sürətli inkişafına heç bir zərər çatdıra bilməzlər. Çünki Allah gələcəkdə Onun dinini himayə edən bir cəmiyyət əmələ gətirəcəkdir.

Sonra bu böyük risaləti yerinə yetirəcək şəxslərin xüsusiyyətləri belə şərh edilir:

1. Onlar Allaha eşq bəsləyir, Onun razılığından başqa bir şey fikrləşmirlər. Allah onları, onlar da Allahı sevirlər.

2. Möminlərin qarşısında təvazökar və mehriban, düşmənlərin və zalımların qarşısında isə tam ciddi şəkildə və qüdrətlidirlər.

3. Allah yolunda cihad etmək onların müntəzəm proqramlarıdır.

4. Onlar üçün qeyd edilən sonuncu imtiyaz budur ki, Allahın əmr və fərmanlarını yerinə yetirmək və haqqı müdafiə etmək yolunda tənə vuranların tənəsindən və dil yarasından əsla qorxmurlar.

Ayənin axırında buyurulur: Bu imtiyazları əldə etmək üçün insanın səy eləməsindən əlavə, Allahın mərhəməti də lazımdır ki, onu ləyaqəti olan hər bir bəndəsinə bəxş edir. Allahın fəzl, mərhəmət və kərəmi genişdir və O buna layiq olanlardan agahdır.

**AYƏ 55:**

[ إِنَّمَا وَلِيُّكُمُ اللهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ ]

**TƏRCÜMƏ:**

***«Həqiqətən sizin başçınız və işlərinizin ixtiyar sahibi yalnız Allah, Onun peyğəmbəri və iman gətirənlər – namaz qılıb rüku halında zəkat verən kəslərdir. (Hər iki məzhəb tərəfindən nəql edilmiş rəvayətlərə əsasən, cəm şəkildə buyurulan bu ayənin yeganə nümunəsi Əli əleyhis-salam və onun rüku halında üzük bağışlamasıdır).»***

**TƏFSİR:**

Bu ayənin nazilolma səbəbi (şəni-nüzulu) ilə əlaqədar qeyd olunur ki, bir dilənçi Peyğəmbər (s) məscidinə daxil oldu və camaatdan kömək istədi. Amma ona heç nə vermədilər. Əli (ə) namaz

halında ona işarə etdi. Dilənçi gəlib rüku halında onun üzüyünü çıxartdı. Bu ehsanı əzəmətlə yad etmək üçün bu ayə nazil oldu.

Bu hadisəni səhabələrdən çoxu, o cümlədən İbn Abbas, Əmmar, Cabir İbn Əbdüllah, Əbuzər, Ənəs ibn Malik, Bilal və başqaları nəql etmişlər. Bu ayənin şəni-nüzulu barəsində sünni və şiələr müvafiqdirlər.[1]

Peyğəmbəri-Əkrəm (s) Qədir-Xumda Həzrət Əlinin (ə) məqamını bəyan etmək üçün bu ayəni oxudu. («Təfsiri-Safi»). Əli (ə) da özünün İslam ümmətinə rəhbərliyə hamıdan artıq haqlı olmasını isbat etmək üçün dəfələrlə bu ayəni oxumuşdu. («Əl-mizan») Əbuzər özü bu hadisənin şahidi olmuş, Məscidül-Həramda camaat üçün bu hadisəni qeyd etmişdir («Məcməul-bəyan» təfsiri). Sünni və şiələrin mötəbər təfsirlərində də (ayədəki) «vəli» kəlməsi dost və köməkçi mənasında deyildir. Çünki dostluq və köməklik təkcə rüku halında infaq edənlərə yox, bütün müsəlmanlara aiddir. Rəvayətlərə əsasən məqsəd Əli ibn Əbutalibdir və «**amənu**» kəlməsinin cəm formasında gəlməsi «Mübahilə» ayəsində də olduğu kimi, onun əhəmiyyətini çatdırır.

Bunu da qeyd edək ki, bir çox alim və müfəssirlər demişlər ki, yuxarıdakı ayədəki vilayət (vəli kəlməsinin köküdür) xüsusilə, bu vilayətin Peyğəmbərin (s) və Allahın vilayəti ilə bir cərgədə qərar tutduğuna və hər üçü bir cümlə ilə bəyan olunduğuna görə insanın maddi və mənəvi rəhbərliyi, sərpərəstliyi və təsərrüfü mənasında olan vilayətdir.

Beləliklə, bu ayə İmam Əlinin (ə) vilayətinə dəlalət edən aşkar Quran hökmüdür.

### *İNCƏ MƏTLƏBLƏR*

1. İslam həm vilayət, həm bəraət, həm cazibə və həm də dafiə dinidir. Əvvəlki ayələrdə yəhudilərin və məsihilərin vəli və rəhbər

---

[1] «Əl-qədir», 2-ci cild, «Ehqahul-həqq», 2-ci cild, səh. 400, «Kənzul ümmal», 6-cı cild, səh. 391

qərar verilməsi qadağan olunur. Burada isə buyurulur ki, yalnız Allahı, Peyğəmbəri (s) və Əlini (ə) özünüzə vəli və ixtiyar sahibi seçin.

2. Allahın, Peyğəmbərin (s) və Əlinin (ə) vilayətinin məfhumu eynidir. Çünki bu üçü tək halda olan «vəliyyukum» kəlməsi ilə buyurulur. Əks halda «əvliyaukum» deyə buyurulardı.

3. Adətən namaz və zəkat yanaşı və ardıcıl şəkildə zikr olunur. Lakin bu ayədə onlar bir-biri ilə qarışmışdır (rüku halında zəkat vermək).

4. Namaz və zəkat əhli olmayanların camaata rəhbərlik və vilayət haqqı yoxdur.

5. Məhrumlara, fəqir-füqəraya kömək etmək üçün hətta namaz belə, maneə deyildir; fəqir şəxs müsəlmanların içindən əliboş qayıtmamalıdır.

6. Allah xatirinə Allahın məxluqatına diqqət yetirmək (rüku halında zəkat vermək) ixlasa zərər çatdırmır. Allahı nəzərdə tutmadan yalnız məxluqata diqqət yetirmək marksizmdir. Məxluqatı nəzərə almadan yalnız Allaha nəzər yetirmək rahiblikdir. Amma Allaha doğru olan yolda məxluqata diqqət yetirmək İslamın tutduğu yoldur.

7. Fəqirlərin ah-fəğanına, naləsinə laqeyd yanaşanlar sizin rəhbər və vəliniz olmamalıdır.

8. İnfaq kimi cüzi işlər namazı batil etmir.

9. Quran müstəhəb sədəqəyə və üzüyə belə zəkat demişdir.

10. Müsəlmanların üzərində rəhbərlik və vilayət haqqı ilk növbədə Allaha, ondan sonra Peyğəmbərə (s), daha sonra imama, ondan sonra isə vəliyyi-fəqihə məxsusdur.

11. Ən gözəl təqdimetmə üslubu budur ki, bir kəsin adı çəkilmədən vəsfləri və xüsusiyyətləri deyilsin, dinləyicilərdə onun xaricdəki nümunələrini tapsınlar (bu ayədə Əlinin (ə) adı çəkilmədən onun sifətləri və işləri sadalanmışdır).

## AYƏ 56:

[ وَمَن يَتَوَلَّ اللّهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُواْ فَإِنَّ حِزْبَ اللّهِ هُمُ الْغَالِبُونَ ]

**TƏRCÜMƏ:**

***«Kim Allahı, Onun peyğəmbərini və iman gətirənləri (öz) sahib və başçı(sı) kimi qəbul etsə (Allahın firqəsindəndir və) şübhəsiz, Allah firqəsi qalibdir.»***

**TƏFSİR:**

Bu ayə əvvəlki ayənin məzmununu təkmilləşdirir və onun izlədiyi hədəfə təkid edərək müsəlmanlara bildirir ki, əvvəlki ayədə Allahın, Peyğəmbərin (s) və imanlı şəxslərin rəhbərliyini qəbul edənlər mütləq qalib olacaqlar. Çünki onlar Allahın dəstəsindəndir və qalib gələnlər də məhz Allahın dəstəsidir.

Əvvəlki ayədə qeyd olunan vilayətin mənasına dair bu ayədə digər bir şahid də mövcuddur. Çünki «hizbullah», «onun qələbəsi» kimi təbirlər sadə və adi bir dostluq mənasına deyil, İslam hökuməti ilə əlaqədardır. Bu da göstərir ki, həmin ayədəki vilayət müsəlmanların və İslamın rəhbəri, hökumət başçısı mənasınadır. Çünki «hizb» kəlməsinin mənasında müştərək hədəflərin təmin olunması üçün həmrəylik və təşəkkül mənası vardır.

## AYƏ 57:

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ الَّذِينَ اتَّخَذُواْ دِينَكُمْ هُزُوًا وَلَعِبًا مِّنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَالْكُفَّارَ أَوْلِيَاء وَاتَّقُواْ اللّهَ إِن كُنتُم مُّؤْمِنِينَ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, sizdən əvvəl (səmavi) kitab verilmiş kəslərdən və (digər) kafirlərdən sizin dininizi lağa qoyan və ələ salanları özünüzə dost və köməkçi tutmayın və əgər möminsinizsə Allahdan qorxun.»***

**TƏFSİR:**

Allahın dininə, dinin müqəddəs əqidələrinə istehza ilə yanaşaraq onları təhqir edənlərin dünyadakı cəzaları onlarla hər növ rabitənin kəsilməsidir. Çünki dinin istehza olunması kafirlərin işidir və imanın da şərti dini qeyrətə malik olub nalayiq insanlara ikrah hissi ilə yanaşmaqdır (nifrət hissi keçirməkdir).

Siz möminlər dini istehza edən kafirlərlə əlaqələri kəsməkdən heç vaxt qorxmayın, əgər imanınız varsa, yalnız Allahdan qorxun.

**AYƏ 58:**

[ وَإِذَا نَادَيْتُمْ إِلَى الصَّلاَةِ اتَّخَذُوهَا هُزُوًا وَلَعِبًا ذَلِكَ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَعْقِلُونَ ]

**TƏRCÜMƏ:**

***«(İnsanları azan vasitəsilə) namaza çağırdığınız zaman onlar onu lağa qoyar və ələ salarlar. Bu ona görədir ki, onlar düşünməyən bir tayfadırlar.»***

**AYƏNİN NAZİLOLMA SƏBƏBİ**

Əvvəlki ayənin davamında nazil olan bu ayənin şəni-nüzulu barəsində qeyd olunur ki, yəhudilərdən bir çoxu və məsihilərdən bir neçəsi azançının səsini eşidərkən müsəlmanların namaza dayandıqlarını görüb istehza etməyə başlayırdılar. Quran müsəlmanları bu kimi şəxslərlə dostluq əlaqələri bərqərar etməkdən çəkindirir.

**TƏFSİR:**

Keçən ayədə münafiqlərlə, İslam hökmlərini istehza edən bəzi kitab əhli ilə dostluq bərqərar edilməsinin qadağan olunması barədə olan bəhslərin ardınca, bu ayədə şahid ünvanı ilə onların əməllərindən birinə işarə olunur və buyurulur ki, siz azan deyib

müsəlmanları namaza dəvət edərkən onlar azanı istehza edib oyun-oyuncağa çevirirlər.

Bilmək lazımdır ki, namaz dinin siması olduğuna görə namazın istehza olunması dinin simasının istehza olunmasıdır. Buna görə də namaz üçün nida olunmalıdır ki, hamı bir yerə toplansın və namaz sözün tam mənasında açıq-aşkar bərqərar olunsun. İslam cəmiyyətində namaz üçün ucadan fəryad edilməli, hər yerdə təbliğ olunmalı və heç kəs bu işə mane olmamalıdır.

Ayənin sonunda tam aydınlaşır ki, aqil insanların tutduğu yol məntiqi davranış, ağılsız insanların tutduqları yol isə istehzadır.

### AYƏ 59:

[ قُلْ يَا أَهْلَ الْكِتَابِ هَلْ تَنقِمُونَ مِنَّا إِلاَّ أَنْ آمَنَّا بِاللّهِ وَمَا أُنزِلَ إِلَيْنَا وَمَا أُنزِلَ مِن قَبْلُ وَأَنَّ أَكْثَرَكُمْ فَاسِقُونَ ]

**TƏRCÜMƏ:**

***«De: "Ey kitab əhli, məgər bizdən yalnız Allaha, (Onun tərəfindən) bizə nazil olana və bizdən öncə (keçmiş peyğəmbərlərə) nazil olana iman gətirməyimizi, sizin çoxunuzun isə itaətsiz olmağınızı eyb tut(m)ursunuz?!" (Bu ayə bu sözə oxşayır ki: "Mənə mənim yalnız varlı, sənin isə yoxsul olmağını, yaxud mənim alim, sənin isə nadan olmağını eyb tutursan.")»***

## AYƏNİN NAZİLOLMA SƏBƏBİ

Bu ayə və ondan sonrakı ayənin nazil olması barədə İbn Abbasdan belə nəql olunur ki, bir qrup yəhudi Peyğəmbərin (s) hüzuruna gəlib öz əqidəsini onlar üçün bəyan etməsini istədi.

Peyğəmbər (s) buyurdu: "Mən böyük və yeganə Allaha iman gətirmişəm. İbrahimə, İsmailə, İshaqa, Yəquba, Musaya, İsaya və bütün ilahi peyğəmbərlərə nazil olmuşları haqq bilirəm. Onların arasında heç bir fərq qoymuram."

Onlar dedilər: “Biz İsanı tanımır və onu peyğəmbər kimi qəbul etmirik.” Sonra əlavə etdilər: “Biz sizin dininizdən pis bir din tanımırıq!” Bu ayə nazil olaraq onlara cavab verdi.[1]

**TƏFSİR:**

Bu ayədə Allah-təala Peyğəmbəri-Əkrəmə (s) göstəriş verir ki, kitab əhlindən belə soruşsun: «Deyin görək, bizdən hansı bir pis və yaramaz iş baş vermişdir ki, bizə irad tutub tənqid edirsiniz? Səbəbi bundan başqa şeydirmi ki, biz yalnız yeganə olan Allaha iman gətirmişik, bizə və bizdən qabaqkı peyğəmbərlərə nazil olmuşların müqabilində təslimik?! Ayənin axırında həqiqətdə əvvəlki cümləni bəyan edən bir cümlə də buyurulur: Sizin xalis tövhidi, bütün səmavi kitabların qarşısında sözsüz təslim olmağı bizə irad tutmağınızın səbəbi budur ki, sizin əksəriyyətiniz fasiq və günaha aludə olanlarsınız. Sizin özünüz aludə və azğın olduğunuza görə müəyyən şəxslər pak və haqq yolda olsalar, bu sizin nəzərinizdə eyibli bir işdir.

**Qeydlər:**

1. Haqqın inkar edilməsi və haqq ardıcıllarına əzab-əziyyət verilməsi fasiqlikdir.

2. Düşmənin ciddi müqavimətləri qarşısında ədalət və insafı əldən vermək olmaz; hamını eyni səviyyədə fasiq hesab etməyin.

---

[1] «Məcməul-bəyan, 3-cü cild, səh. 214

## AYƏ 60:

[قُلْ هَلْ أُنَبِّئُكُم بِشَرٍّ مِّن ذَلِكَ مَثُوبَةً عِندَ اللّهِ مَن لَّعَنَهُ اللّهُ وَغَضِبَ عَلَيْهِ وَجَعَلَ مِنْهُمُ الْقِرَدَةَ وَالْخَنَازِيرَ وَعَبَدَ الطَّاغُوتَ أُوْلَـئِكَ شَرٌّ مَّكَاناً وَأَضَلُّ عَن سَوَاء السَّبِيلِ]

**TƏRCÜMƏ:**

***«De: "Sizə Allah yanında cəzaları (sizin irad tutduğunuz bu möminlərinkindən) daha pis olan kəslərdən xəbər verimmi? Onlar (sizin keçənlərinizdən) Allahın lənət etdiyi, qəzəbləndiyi,bəzisini meymunlar və donuzlar surətinə saldığı və Tağuta pərəstiş etmiş kəslərdir. Onlardır yerləri daha pis olan və düz yoldan daha çox azanlar!"»***

**TƏFSİR:**

Bu ayədə kitab əhlinin vəziyyəti - onların yaramaz əməlləri, təhrif olunmuş əqidələri və onların məruz qalacaqları cəzalar, həqiqi möminlər və müsəlmanların vəziyyəti ilə müqayisə olunur ki, bu iki dəstədən hansı birinin məzəmmət və tənqidə layiq olduğu məlum olsun. Bu da təəssübkeş və inadkar şəxslərin öz işlərinə diqqət yetirilməsi üçün istifadə edilən bir yoldur. Bu müqayisədə belə deyilir: Ey Peyğəmbər! Onlara de, möminlərin yeganə Allaha və səmavi kitablara iman gətirmək işi məzəmmətə layiqdir, yoxsa əməllərinin mükafatı Allah dərgahında hər şeydən pis olanların yaramaz əməlləri?![1]

Daha sonra bu mətləbi bir qədər ətraflı şəkildə bəyan edərək buyurur: Öz yaramaz əməllərinin nəticəsində Allahın lənətinə gələn, Onun qəzəbinə düçar olan, nəticədə meymun və donuz surətinə salınan, həmçinin tağuta və bütə pərəstiş edənlərin dünyadakı

[1] «Tərcümeyi Nur», 3-cü cild, səh. 124, «Təfsiri nümunə»nin xülasəsi, 1-ci cild, səh. 530

yerləri, eləcə də Qiyamətdəki məqamları ən pis məqam olacaqdır və onlar düz yoldan ən çox azanlardır.

**AYƏ 61:**

[ وَإِذَا جَآؤُوكُمْ قَالُوَاْ آمَنَّا وَقَد دَّخَلُواْ بِالْكُفْرِ وَهُمْ قَدْ خَرَجُواْ بِهِ وَاللّهُ أَعْلَمُ بِمَا كَانُواْ يَكْتُمُونَ ]

**TƏRCÜMƏ:**

***«Onlar sizin yanınıza gələndə "iman gətirdik" deyərlər, halbuki, şübhəsiz (sizin hüzurunuza) küfr əqidəsi ilə gəlib və (elə) həmin əqidə ilə də xaric olublar! Allah onların həmişə gizlətdiklərini daha yaxşı bilir.»***

**TƏFSİR:**

Bu ayədə kitab əhlindən olan münafiqlər barədə bəhs təkmilləşdirilir, onların cəmiyyətdəki riyakarlıqları və batini ikiüzlülükləri ifşa edilir və müsəlmanlara belə bildirilir: Onlar sizin yanınıza gəldiyi zaman «iman gətirmişik» – deyirlər, halbuki, qəlbləri küfrlə dolu olan halda sizin yanınıza gəlir, həmin halda da sizin yanınızdan çıxıb gedirlər. Sizin məntiqli sözləriniz, kəsərli dəlil və sübutlarınız onların qəlblərinə azacıq belə təsir etmir.

Ayənin axırında onlara xəbərdarlıq edilir və buyurulur: Onlar öz işlərini nə qədər gizlətsələr, ört-basdır etsələr də, Allah onların gizlətdikləri şeylərdən xəbərdardır.

## AYƏ 62:

[ وَتَرَى كَثِيرًا مِّنْهُمْ يُسَارِعُونَ فِي الإِثْمِ وَالْعُدْوَانِ وَأَكْلِهِمُ السُّحْتَ لَبِئْسَ مَا كَانُواْ يَعْمَلُونَ ]

## TƏRCÜMƏ:

***«Onların çoxunun günah etmək, (başqalarının hüququna) təcavözkarlıq və haram yeməkdə tələsdiklərini görürsən. Onların həmişə etdikləri çox pisdir!»***

## TƏFSİR:

Keçən ayədə onların küfrlə dolu ruhiyyələrindən söhbət getdiyi halda, burada onların əxlaqi, ictimai və iqtisadi fəsadları, eybəcərlikləri bəyan edilir, münafiqlik və ikiüzlülük kimi sifətlərinin digər nişanələri xatırladılır. O cümlədən buyurulur ki, onların çoxu sanki iftixarlı bir hədəfə doğru irəliləyirmişlər kimi, günah, zülm və haram mal yemək yolunda bir-birini qabaqlayır və həya etmədən bir-birindən qabağa keçməyə can atırlar.

Buna əsasən, küfr və nifaq əsasında qurulan bir cəmiyyətin siması fəsad işlərdə yarışmaq, iman və düzlük əsasında qurulan İslami cəmiyyətin siması isə xeyir işlərdə bir-birindən qabağa keçməkdir.

Həmçinin, münafiqlərin əsl hədəfləri şəhvət, sərvət, qüdrət, sələmçilik, rüşvətxorluq, düşmənçilik və günah icad etmək və bundan da pisi, aşkarda günah edərək mənəvi aludəlik bataqlığında qərq olmaqdır.

Ayənin axırında onların əməllərinin nə qədər çirkin olmasını təkid etmək üçün buyurulur: Onların gördükləri işlər necə də çirkindir və onlar bu işləri davam etdirirlər.[1]

---

[1] «Tərcümeyi-nur», 3-cü cild, səh. 127, «Təfsiri nümunə»nin xülasəsi, 1-ci cild, səh. 531-532

## AYƏ 63:

[ لَوْلاَ يَنْهَاهُمُ الرَّبَّانِيُّونَ وَالأَحْبَارُ عَن قَوْلِهِمُ الإِثْمَ وَأَكْلِهِمُ السُّحْتَ لَبِئْسَ مَا كَانُواْ يَصْنَعُونَ ]

**TƏRCÜMƏ:**

***«Nə üçün (yəhudi və xaçpərəstlərin) ilahi alimlər(i) və dini bilik sahibləri onları günah danışıqdan və haram yeməkdən çəkindirmirlər?! Onların həmişə etdikləri çox pisdir!»***

**TƏFSİR:**

Daha sonra bu ayədə onların düşmənləri barədə buyurulur ki, öz sükutları ilə onları bu günah işlərə təşviq edirlər. Ayədə buyurulur: Nə üçün yəhudi və məsihi alimləri onları günah yaradan sözlərdən və qanunsuz mal-dövlət yeməkdən çəkindirmirlər?

Yəni alimlər fasid bir cəmiyyətin eybəcərliklərini islah etmək üçün ilk növbədə onların yanlış, xurafatçı əqidə və fikirlərini dəyişdirməlidirlər. Bu ayə alimlərə fasid bir düşüncə və təfəkküründəki inqilabdan başlanılmalı olan islahat yolunu göstərir.

Ayənin axırında Quran əsl günahkarları məzəmmət etdiyi kimi, əmr be məruf və nəhy əz münkər işini tərk edərək cəmiyyətdəki yaramaz halları müşahidə edən, onun müqabilində sükut edən alimləri də məzəmmət edərək buyurur: Onların gördükləri işlər necə də pis idi!

Beləliklə, əmr be məruf və nəhy əz münkər kimi böyük bir ilahi vəzifəni tərk edənlərin talelərinin (xüsusilə, alim olduqları surətdə) məhz həmin günahkarların taleyi ilə eyni olduğu və həqiqətdə onlarla bu günah işdə şərik sayıldıqları aydın olur. Məşhur müfəssir İbn Abbasdan nəql olunmuşdur ki, bu ayə öz vəzifələrinə aid olan bir iş qarşısında sükut edən alimləri məzəmmət edən ən şiddətli ayədir.

Aydındır ki, həmin hökm bu işlərin qarşısında sakit qalan yəhudi və məsihi alimlərinə məxsus deyil; camaatın günaha aludə olduğu, sürətlə zülm və fəsada tərəf irəliləyib bu işlərə qurşandığı zaman, sükut edib onlara əmr be məruf etməyən bütün alim rəhbərlərə şamil olur. Çünki bütün insanlar üçün Allahın hökmü eyni səviyyədədir.

Əmirəl-möminin Əli (ə) bir hədisdə («Qasiə» xütbəsində) buyurur: «**Keçmiş qövmlərin məhv olmalarının səbəbi bu idi ki, onlar günahlara mürtəkib olurdular, alimləri də sükut edərək onları bu işdən çəkindirmirdi. Bu zaman ilahi bəla və cəzalar onlara nazil oldu. Siz, ey insanlar! Əmr be məruf və nəhy əz münkər işini yerinə yetirin ki, onların düçar olduqları aqibətə düçar olmayasınız.**»

## AYƏ 64:

[وَقَالَتِ الْيَهُودُ يَدُ اللّهِ مَغْلُولَةٌ غُلَّتْ أَيْدِيهِمْ وَلُعِنُواْ بِمَا قَالُواْ بَلْ يَدَاهُ مَبْسُوطَتَانِ
يُنفِقُ كَيْفَ يَشَاء وَلَيَزِيدَنَّ كَثِيرًا مِّنْهُم مَّا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ طُغْيَانًا وَكُفْرًا وَأَلْقَيْنَا
بَيْنَهُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاء إِلَى يَوْمِ الْقِيَامَةِ كُلَّمَا أَوْقَدُواْ نَارًا لِّلْحَرْبِ أَطْفَأَهَا اللّهُ
وَيَسْعَوْنَ فِي الأَرْضِ فَسَادًا وَاللّهُ لاَ يُحِبُّ الْمُفْسِدِينَ]

## TƏRCÜMƏ:

***«Yəhudilər dedilər: "Allahın əli bağlıdır (həm şəriət mərhələsində və həm də insanlara əta və bəxşiş etməkdə! Və elə buna görə də dinin istər Tövratda, istərsə də başqasında olan hökmləri nəsx oluna bilməz. Həmçinin əta və bəxşişdə də ona görə ki, möminlərin hamısı yoxsuldurlar və Allah insanlardan borc istəyir)." Öz əlləri bağlansın və dedikləri sözün cəzası olaraq Allahın rəhmətindən uzaq düşsünlər! Əksinə, Onun hər iki (qüdrət) əli daim açıqdır və Onun kamil qüdrəti həmişə qalmaqdadır (hökm və şəriətləri nəsx edir, dost və düşmənlərə***

***dünyada və axirətdə) istədiyi kimi əta və bəxşiş edir. Şübhəsiz, Rəbbin tərəfindən sənə nazil olan şey, onların bir çoxunun azğınlıq və küfrünü artıracaqdır. Biz onların (yəhudilər, xristianlar və onların firqələri) arasında Qiyamət gününə qədər düşmənçilik və kin salmışıq. Nə vaxt (müsəlmanlarla) bir müharibə alovu yandırıblarsa, Allah onu söndürüb. Onlar yer üzündə fəsad yolunu gedirlər. Allah fəsad törədənləri sevmir.»***

**TƏFSİR:**

Tarix sübut edir ki, yəhudilər müəyyən bir dövrdə son dərəcə qüdrətdə yaşayır, həmin dövrün abad dünyasının mühüm bir nahiyəsinə hökmranlıq edirdilər. Buna nümunə olaraq Süleyman (ə) və Davudun (ə) dövranını göstərmək olar. Sonrakı əsrlərdə də onların qüdrəti müəyyən qədər davam etdi. Lakin İslamın zahir olması ilə onların qüdrət günəşləri, xüsusilə, Hicaz məntəqəsində qürub etdi. Peyğəmbəri-Əkrəmin (s) yəhudi qövmləri ilə, o cümlədən, Bəni-Qüreyzə, Bəni-Nəzir və Xeybər yəhudiləri ilə apardığı mübarizələr onların həddindən artıq zəifləmələrinə səbəb oldu. Bu zaman onlar özlərinin əvvəlki qüdrət və mövqelərini nəzərə alaraq istehza üzündən deyirdilər: «Allahın əli bağlanıb, bizə heç nə əta etmir!» Başqaları da onlarla razılaşdıqlarına görə Quran bu sözləri onların hamısına aid edərək buyurur: Yəhudilər dedilər: "Allahın əlləri zəncirə çəkilib."

Allah onların cavabında bu yersiz əqidəni məzəmmət edərək buyurur: Onların öz əlləri zəncirə bağlansın! Bu yaramaz sözə görə Allahın rəhmətindən uzaq olsunlar! Sonra bu yersiz əqidənin batil olmasını göstərmək üçün buyurur: «Allahın hər iki (qüdrət) əli açıqdır. İstədiyi hər kəsə istədiyi kimi bağışlayar. Onun işində nə bir məcburiyyət var, nə də tarixin məcburi təbii amillərinə məhkum olunur. Onun iradəsi hər şeyin fövqündə dayanır və hər şeydə nüfuzludur.

Sonra buyurulur: Hətta onların yanlış əqidə və sözlərini ifşa edən bu ayələr onlarda müsbət təsir qoysa və azğın yoldan qayıtsalar belə, onların çoxu inadkarlıq yolunu tutar, bu ayələr onların küfr və inadkarlıqlarını daha da artırar.

Onların küfr və tüğyançılıq yolunda bu qədər israr və inadkarlıq etmələri, yersiz əqidələri və sözləri müqabilində Allah-təala onlar üçün ağır cəzalar qərar vermişdir: Biz Qiyamət gününə qədər onların arasına düşmənçilik və ədavət saldıq.

Ayənin sonunda yəhudilərin müsəlmanlar arasında müharibə odu şöləléndirmək üçün göstərdikləri səylərə, bunun müqabilində də Allah-təalanın müsəlmanların fitnədən qurtuluşları üçün göstərdiyi mərhəmətə işarə edərək buyurur: Onlar hər zaman müharibə odu şöləléndirsələr, Allah onu söndürər və sizi ondan hifz edər. Bu da həqiqətdə Peyğəmbəri-Əkrəmin (s) həyatının möcüzəli hadisələrindən biridir.

Quran əlavə edib buyurur: Onlar yer üzündə fitnə-fəsad toxumu səpmək üçün səy edir və bu işdə davamlılıq göstərirlər, halbuki Allah-təala fəsad əhlini sevmir.

**AYƏ 65:**

[ وَلَوْ أَنَّ أَهْلَ الْكِتَابِ آمَنُواْ وَاتَّقَوْاْ لَكَفَّرْنَا عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلأدْخَلْنَاهُمْ جَنَّاتِ النَّعِيمِ ]

**TƏRCÜMƏ:**

***«Əgər kitab əhli (İslama) iman gətirsəydi və təqvalı olsaydılar, şübhəsiz, onların günahlarını təmizləyər və onları neməti bol olan Cənnətlərə daxil edərdik.»***

**TƏFSİR:**

Kitab əhlinin tutduğu azğın yol və məkrli tədbirlərin tənqid olunması ardınca bu və bundan sonrakı ayədə Quran tərbiyə üslublarının tələbinə görə kitab əhlindən olan yolunu azanları düz yola qaytarmaq, onların yaramaz işlərindən razı olmayan azsaylı bir

dəstənin əməyini və əməllərini dəyərləndirmək üçün əvvəlcə buyurur: Əgər kitab əhli iman gətirib təqvalı olsa, onların keçmiş günahlarını örtər və onlara güzəştə gedərik. Təkcə onların günahlarını bağışlamarıq, üstəlik, müxtəlif nemətlərin mövcud olduğu behişt bağlarına daxil edərik.

Bu söz mənəvi və axirət nemətləri ilə əlaqədardır.

**AYƏ 66:**

[وَلَوْ أَنَّهُمْ أَقَامُواْ التَّوْرَاةَ وَالإِنجِيلَ وَمَا أُنزِلَ إِلَيهِم مِّن رَّبِّهِمْ لأكَلُواْ مِن فَوْقِهِمْ
وَمِن تَحْتِ أَرْجُلِهِم مِّنْهُمْ أُمَّةٌ مُّقْتَصِدَةٌ وَكَثِيرٌ مِّنْهُمْ سَاء مَا يَعْمَلُونَ]

**TƏRCÜMƏ:**

***«Əgər onlar (əsl) Tövrata və İncilə və onlara nazil olana əməl etsəydilər, şübhəsiz (həm) başlarının üstündən və (həm də) ayaqlarının altından ruzi yeyərdilər (göyün və yerin bərəkətlərindən faydalanardılar).»***

**TƏFSİR:**

Əgər sair səmavi kitab ardıcılları Quranın qarşısında təslim olsaydılar və bu cür təslimçiliyi Bəni-İsrailin ərəblər qarşısında təslim olmaları hesab etməsəydilər, həmçinin peyğəmbərlərin təlimlərinin əsaslarının eyni olduğunu bilsəydilər, Tövrat və İncildən sonra nazil olanları əvvəlki göstərişlərin batil olması deyil, sadəcə olaraq daha yüksək səviyyəli bir mərhələyə daxil olmaq kimi qiymətləndirsəydilər, bu halda, Qiyamətdə axirət nemətlərindən bəhrələnməkdən əlavə, elə bu dünyada da onlara müxtəlif nemətlər nazil olardı.

Əvvəlki ayədə ruhi-mənəvi və axirət səadətində imanın rolu irəli çəkilirdi. Burada isə onun dünyəvi səadət və iqtisadi cəhətdən firavanlıqla əlaqədar rolu bəyan edilir.

Əvvəlki ayədə yəhudilərin «Allahın əlinin bağlı olması» ilə əlaqədar batil əqidələrindən söhbət gedirdi. Burada isə göstərilir: «Siz səmavi kitablara iman gətirdiyiniz halda mühakimə yürüdün və Allahın əlinin bağlı olub-olmadığını görün. Əgər sizin əzəmətiniz zillətə və xarlığa çevrilirsə, bu, Allahın (nəuzu billah) paxıllığına görə yox, sizin səmavi göstərişlərə etinasızlıq etdiyinizə görə verilən cəzadır.»

**AYƏ 67:**

[ يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ ]

**TƏRCÜMƏ:**

***«Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni insanlardan (onların fitnə və şərindən) qoruyacaq. Şübhəsiz, Allah kafirlərin dəstəsini hidayət etməz.»***

**TƏFSİR:**

***CANİŞİN TƏYİN EDİLMƏSİ RİSALƏTİN SON NÖQTƏSİDİR.***

Burada yalnız Peyğəmbərə (s) xitab olunur və yalnız onun vəzifəsi bəyan edilir. Bu ayə «ey Peyğəmbər» xitabı ilə başlanır və aşkar şəkildə təkidlə o Həzrətə (s) göstəriş verilir ki, Pərvərdigarı tərəfindən nazil olanları camaata çatdırsın.

Sonra daha artıq təkid üçün ona xəbərdarlıq edilir ki, əgər bu işdən imtina etsə, (halbuki o, heç vaxt imtina etməzdi) Allahın risalətini təbliğ etməmiş olur.

Sonra bu xüsusi hadisədən iztirab və nigaranlıq keçirən Peyğəmbərə (s) toxtaqlıq verərək buyurur: Bu vəzifənin yerinə yetirilməsində camaatdan qorxma. Çünki Allah səni onların şərindən qoruyacaqdır.

Ayənin sonunda bu məxsus vəzifənin ilahi bir hökm olduğunu inkar edənlərə, onun qarşısında küfr və inadkarlıq göstərənlərə cəza və təhdid olaraq buyurulur: Allah inadkar kafirləri hidayət etməz.

Doğrusu, görəsən, Peyğəmbərin (s) mübarək ömrünün axır aylarında baş verən bu mühüm məsələ nədən ibarət ola bilərdi ki, onun yerinə yetrilməməsi bütünlükdə risalətin təbliğ olunmaması ilə bərabər olsun?

Həm sünni, həm də şiələrin müxtəlif mötəbər kitablarında mövcud olan bir çox hədislər yuxarıdakı ayənin Peyğəmbərin (s) özündən sonra canişin təyin etməsi, İslamın və müsəlmanların gələcək müqəddəratının həll olunması ilə əlaqədar Qədir-Xumda nazil olmasını aşkar şəkildə göstərir. O cümlədən:

## ƏHLİ-SÜNNƏT KİTABLARINDAN:

1. «Əs-Sünən» (İbn Macə), 1-ci cild, səh. 55.
2. «Əl-Fəzail» (Əhməd İbn Hənbəl).
3. «Əl-Xəsais» (Nəsai), səh.21.
4. «Əl-kuna vəl-əsma» (Dulabi). 2-ci cild, səh. 61.
5. «Muşkilul-asar» (Təhavi), 2-ci cild, səh. 307.
6. «Əl-iqdul-Fərid», 3-cü cild, səh. 94.
7. «Əl-istiyab», 2-ci cild, səh. 460.
8. «Tarixi Bəğdad», 7-ci cild, səh. 377.

9-«Müstədrək» (Hakim Nişapuri), cild, səh. 10.

10-«Tarixi Dəməşq», 3-cü cild, səh. 166.

11. «Təfsir» (Hafiz İbn Kəsir), 2-ci cild, səh. 14.

## ƏHLİ-ŞİƏ XÜSUSİ KİTABLARINDAN:

1. «Ət-Təraib» (İbn Tavus), səh. 140.
2. «Mənaqib» (İbn Şəhraşub), 2-ci cild, səh. 228.
3. «Kitab» (Səlim İbn Qeys), səh. 111.
4. «İkmalud-din» (Şeyx Səduq), 1-ci cild, səh. 274, 25-ci hədis.
5. «Ehticac» (Təbərsi), 1-ci cild, səh. 210.
6. «Biharul-Ənvar», 37-ci cild, səh. 181, 68-ci hədis.
7. «İqbalul-iqbal», səh. 663.
8. «Rovzətul-Vaizin», 1-ci cild, səh. 89.
9. «Əl-Yəqin», səh. 343.
10. «Əl-ədədul-həviyyə», səh. 169.
11. «Ət-təhsin», səh. 578.
12. «Əs-siratul-mustəqim», 1-ci cild, səh. 301.
13. «Əl-Ğədir» (Əllamə Əmini).
14. «Əbəqatul-ənvar» (Əllamə Mirhamid Hüseyn Əl-Kəhvi).
15. «Ehqaqul-həqq», (Qazi Nurullah Tüstəri) və onlarla digər kitab.

## QƏDİR-XUM HADİSƏSİNİN XÜLASƏSİ

Peyğəmbərin (s) ömrünün son ilində "Həccətul-vida" (Vida Həcci) mərasimi son dərəcə əzəmətlə və elə o Həzrətin (s) hüzurunda sona çatdı. Bu səfərdə təkcə Mədinə əhalisi deyil, Ərəbistan yarımadasının müxtəlif nahiyələrindən gələn müsəlmanlar da belə bir böyük tarixi iftixara nail olmaq üçün Peyğəmbərlə (s) birlikdə gəlmişdilər. Hicaz günəşi öz yandırıcı şüalarını dağlara, dərələrə salırdı. Amma bu mənəvi və misilsiz səfərin şirinliyi hər cür çətinliyi asan etmişdi.

Hicrətin 10-cu ili, cümə axşamı günü idi. Qurban bayramından düz səkkiz gün keçirdi. Gözlənilmədən Peyğəmbərin (s) tərəfindən dayanmaq əmri verildi. Müəzzin «Əllahu-əkbər» deyərək camaatı zöhr namazına dəvət etdi. Hamı sürətlə bir yerə yığıldı. Amma hava

o qədər isti idi ki, bəziləri öz əbalarının bir hissəsini ayaqlarının altına, digər hissəsini isə başlarına çəkməyə məcbur olmuşdu.

Zöhr namazı qurtardı. Müsəlmanlar qərara almışdılar ki, dərhal özləri ilə gətirdikləri kiçik xeymələri qurub oraya sığınsınlar. Lakin Peyğəmbər (s) onlara xəbər verib buyurdu ki, yeni bir ilahi xəbəri eşitmək üçün hamı özünü hazırlasın. O xəbər Peyğəmbərin (s) müfəssəl bir xütbəsində bəyan olundu. O Həzrətdən (s) uzaqda olanlar, yaxud onun gözəl simasını camaat arasında görə bilməyənlərin bu sözü eşitməsi üçün dəvələrin palanlarından bir minbər düzəldildi və Peyğəmbər (s) onun üzərinə çıxdı. Əvvəlcə Allaha həmd-səna etdi, özünü Allaha tapşırdı. Sonra camaata xitab edərək buyurdu:

–Mən yaxın zamanlarda Allahın dəvətinə cavab verərək sizin aranızdan gedəcəyəm. Mən də məsuliyyət daşıyıram, siz də məsuliyyət daşıyırsınız. Siz mənim barəmdə necə şəhadət verirsiniz?

Hamı bir səslə dedi:

–Biz şəhadət veririk ki, sən risalət vəzifəni lazımınca təbliğ etdin və xeyir işlər gördün, bizim hidayət olunmağımız üçün son dərəcə çalışdın. Allah sənə xeyir versin!

Sonra buyurdu:

–Siz Allahın yeganəliyinə, mənim risalətimə, Qiyamət gününün haqq olmasına və o gündə ölülərin dirildilməsinə şəhadət verirsinizmi?

Hamılıqla dedilər:

–Əlbəttə! Şəhadət veririk.

Sonra dedi:

–Pərvərdigara, Özün şahid ol!

Daha sonra buyurdu:

–Ey insanlar! Mənim səsimi eşidirsinizmi?

Dedilər:

–Bəli.

Bunun ardınca sükut bütün səhranı bürüdü. Küləyin zümzüməsindən başqa bir səs eşidilmirdi. Peyğəmbər (s) buyurdu:

–...İndi baxın görün sizin aranızda əmanət qoyduğum bu iki şeylə necə rəftar edəcəksiniz!

Camaatın arasından bir nəfər dedi:

–Ya Rəsuləllah, bu iki ağır əmanət nədir?

Peyğəmbər (s) dərhal buyurdu: "Siqli-əkbər" olan birincisi Allahın kitabıdır ki, onun bir tərəfi Allahın, digər tərəfi isə sizin əlinizdədir. Ona sarılmaqdan əl çəkməyin ki, yolunuzu azmayasınız. Mənim qoyduğum ikinci əmanət isə mənim ailəmdir. Lətif və Xəbir olan Allah mənə xəbər vermişdir ki, bu iki əmanət Cənnətdə mənim yanıma gəlib çatana qədər heç vaxt bir-birindən ayrılmayacaqdır. Bu ikisindən qabağa keçməyin, əks halda həlak olarsınız. Ondan geri də qalmayın ki, yenə də həlak olarsınız.

Sonra camaat gördü ki, Peyğəmbər (s) nə isə axtarırmış kimi, öz ətrafına nəzər salır. Gözü Əliyə (ə) sataşdıqda əyildi və onun əlindən tutub qaldırdı. O qədər qaldırdı ki, hər ikisinin qoltuğunun altındakı ağlıq göründü. Camaatın hamısı onu görüb tanıdı və bildilər ki, o İslamın məğlubedilməz sərkərdəsi – Əlidir (ə). Burada Peyğəmbərin (s) səsi daha da aydınlaşdı və daha uca səslə buyurdu:

–Müsəlmanlara, onların özlərindən artıq ixtiyar sahibi olan kimdir?

Dedilər:

–Allah və Onun Peyğəmbəri daha yaxşı bilir!

Peyğəmbər (s) buyurdu:

–Allah mənim mövlam və rəhbərimdir. Mən də möminlərin mövlası və rəhbəriyəm. Onlara, onların özlərindən artıq ixtiyar sahibiyəm (yəni mənim iradəm onların iradələrindən öndədir). Sonra buyurdu: «**Mən hər kəsin mövlasıyamsa, Əli də onun mövlası və rəhbəridir.**»

Bu cümləni üç dəfə təkrar etdi. Bəzi rəvayətlərdə isə dörd dəfə təkrar etdiyi qeyd olunur.

Bunun ardınca üzünü asimana tutub belə dua etdi: «**Pərvərdigara! Əlini sevənləri sev. Əli ilə düşmən olanlarla Sən də düşmən ol. Ona kömək edənlərə kömək et, ona kömək etməyi tərk edənləri Öz köməyindən məhrum et. Haqqı həmişə onunla et və onu haqdan ayırma.**»

Sonra camaata buyurdu:

–Agah olun! Burada hazır olanların vəzifəsi bu xəbəri burada olmayanlara çatdırmaqdır.

Peyğəmbərin (s) xütbəsi sona çatdı. O həzrətin (s) və camaatın üzündən və başlarından qan-tər axırdı. Oradakıların sıraları pozulmamış Allah bu ayəni Peyğəmbərə (s) nazil etdi: «**Bu gün sizin dininizi kamil etdim. Öz nemətimi sizə tamamladım. Sizin üçün bir din olaraq İslamı bəyəndim.**» Peyğəmbər (s) buyurdu: –**Allah böyükdür, Allah böyükdür! Həmin Allah ki, Öz dinini kamil etdi, nemətini bizə tamamladı. Mənim risalət və nübüvvətimdən, Əlinin məndən sonrakı vilayət və rəhbərliyindən razı oldu.**»

Camaat arasında qəribə bir sevinc yaranmışdı. Hər biri gəlib bu ilahi məqama seçilməsi münasibəti ilə Əlini (ə) təbrik edirdi. Onu təbrik edən tanınmış şəxslərdən Əbu Bəkr, Ömər və s.-nin adı tarixdə qeyd olunmuşdur. Onlar camaatın arasından çıxıb belə dedilər: «**Mübarək olsun, mübarək olsun sənə, ey Əbu Talibin oğlu! Sən mənim və bütün mömin kişi və qadınların mövla və rəhbəri oldun!**»

Bu sünni və şiə alimlərinin kitablarında müfəssəl şəkildə qeyd olunan Qədir-Xum hadisəsinin xülasəsi idi.

## *İNCƏ MƏTLƏBLƏR*

1. Əhli-beytin (ə) rəvayətlərinə istinad edən bütün şiə alimləri, eləcə də sünni təfsirçilərinin bəziləri, o cümlədən, Fəxri Razi, eləcə də «Əl-Mənar» kitabının müəllifi demişlər ki, bu ayə Əli ibn Əbu Talibin (ə) vilayəti ilə əlaqədər olaraq Qədir-Xumda nazil olmuşdur.

2. Ayənin xitab növü və bəyan üslubu onu ondan əvvəlki və sonrakı ayələrdən seçib ayırır. Quranın bütünlüyündə yalnız bu ayədə Peyğəmbər (s), ona verilən xəbəri gizlədəcəyi təqdirdə təhdid olunur və buyurulur ki, əgər bunu deməsə, iyirmi üç illik risalət dövründə çəkdiyi zəhmətlər hədər gedəcək. Deməli, bu mühüm xəbərdarlığın nədən ibarət olduğunu araşdırmaq lazımdır.

3. Bu xəbər əhəmiyyət baxımından risalət və nübüvvət dövründəki bütün xəbərlərlə bərabərdir və o, Əli ibn Əbu Talibin (ə) vilayət, imamət və rəhbərlik məsələsidir ki, bu da Allah tərəfindən təyin olunur. Pərvərdigara, bizi və bizim övladlarımızı Əlinin (ə) və onun məsum övladlarının (ə) ardıcıllarından qərar ver və Qiyamətdə bizi onlarla birlikdə dirilt!

**AYƏ 68:**

[قُلْ يَا أَهْلَ الْكِتَابِ لَسْتُمْ عَلَى شَيْءٍ حَتَّىَ تُقِيمُواْ التَّوْرَاةَ وَالإِنجِيلَ وَمَا أُنزِلَ إِلَيْكُم مِّن رَّبِّكُمْ وَلَيَزِيدَنَّ كَثِيرًا مِّنْهُم مَّا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ طُغْيَانًا وَكُفْرًا فَلاَ تَأْسَ عَلَى الْقَوْمِ الْكَافِرِينَ]

**TƏRCÜMƏ:**

***«De: "Ey kitab əhli, siz (həqiqi) Tövrat və İncili və Rəbbiniz tərəfindən sizə nazil olanı (əməli surətdə) bərqərar etməyincə bir şeydə (doğru dində) deyilsiniz." Şübhəsiz, Rəbbin tərəfindən sənə nazil olan şey, onların çoxunun azğınlıq və küfrünü artıracaqdır. Buna görə də kafir dəstə üçün qəm yemə.»***

**TƏFSİR:**

Bütün səmavi kitablara iman gətirmək vacibdir və sadəcə iman iddiası etmək kifayət deyildir. Əməli olan tədbirlər icra etmək lazımdır. Buna görə də dini göstərişlərə əməl etməyənin dini yoxdur.

Ayrı-ayrı insanların şəxsiyyət və dəyərinin meyarı onların dini qayda-qanunlara necə əməl etmələrinə bağlıdır. Bəzilərinin küfr və inadkarlığı hər hansı bir nizama və məktəbə zərər vurmaz, əksinə, onun zərəri məhz şəxsin özünə çatar və Allah dinin himayəçisidir.

Əlbəttə, məlum olduğu kimi, bu ayə təkcə yəhud qövmünə məxsus deyildir, əgər müsəlmanlar da sadəcə İslamı qəbul etmələrini iddia etməklə qənaətlənərək peyğəmbərlərin dini təlimlərinə, xüsusilə öz səmavi kitablarına əməl etməsələr, nə Allah dərgahında, nə fərdi və nə də ictimai həyatlarında heç bir yüksək dəyər və mövqeyə malik olmayacaq, həmişə zəlil olaraq məğlubiyyətə uğrayacaqlar.

**AYƏ 69:**

[ إِنَّ الَّذِينَ آمَنُواْ وَالَّذِينَ هَادُواْ وَالصَّابِؤُونَ وَالنَّصَارَى مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وعَمِلَ صَالِحًا فَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ ]

**TƏRCÜMƏ:**

***«Həqiqətən, (İslama) iman gətirənlər, yəhudilər, Sabiilər (Nuhun, yaxud Yəhyanın ardıcılları) və xaçpərəstlərdən (bu dəstələrin öz peyğəmbərinin əsrində) Allaha və axirət gününə iman gətirib yaxşı işlər görən kəslər üçün (Qiyamət günü) bir qorxu yoxdur və onlar qəmgin olmazlar.»***

**TƏFSİR:**

Bu ayə öz dövrlərində müxtəlif din ardıcıllarının iman və əməlləri ilə əlaqədardır. Yeni din gəldikdən sonra onlar yeni ilahi şəriətə iman gətirməlidirlər. Əks halda, sonrakı peyğəmbərlərin besəti əbəs bir iş olardı. Yəhudilər, məsihilər və başqaları da müsəlmanlar kimi

İslama iman gətirib yaxşı əməl yerinə yetirsələr, Qiyamətdə onların heç bir qəm-qüssəsi və qorxusu olmayacaqdır.

Bütün səmavi dinlərdə səadətin meyarı sadəcə iddialar və şüarlar deyil, iman və saleh əməldir. Elə buna görə də iman heç vaxt əməldən ayrı ola bilməz və dünya-axirət əmin-amanlığı da məhz bunların sayəsindədir.

### “SABEİN”DEDİKDƏ KİMLƏR NƏZƏRDƏ TUTULUR?

Bəziləri demişlər ki, onlar dinlərini yəhudi və məsihilərdən əxz etmiş bir firqədir. Bəziləri də inanırlar ki, onlar Nuh peyğəmbərə (ə) inanan, ondan sonrakı peyğəmbərləri inkar edən bir dəstədir. Amma imam Rzanın (ə) buyurduğuna əsasən sabeinlər əvvəlcə ulduza pərəstiş edirmişlər. Daha sonra tövbə edərək Allaha və Qiyamət gününə iman gətirib saleh əməl yerinə yetirmişlər.[1]

**AYƏ 70:**

[ لَقَدْ أَخَذْنَا مِيثَاقَ بَنِي إِسْرَائِيلَ وَأَرْسَلْنَا إِلَيْهِمْ رُسُلاً كُلَّمَا جَاءهُمْ رَسُولٌ بِمَا لاَ تَهْوَى أَنْفُسُهُمْ فَرِيقًا كَذَّبُواْ وَفَرِيقًا يَقْتُلُونَ ]

**TƏRCÜMƏ:**

***«Həqiqətən, Biz İsrail övladlarından (tovhid və peyğəmbərlərə iman barəsində) əhd-peyman aldıq və onlara peyğəmbərlər göndərdik. Nə vaxt (hansısa) bir peyğəmbər onlara ürəkləri istəməyən bir şey gətirirdisə, (həmin peyğəmbərlərin) bir qismini təkzib edir, bir qismini öldürürdülər.»***

---

[1] «Ətyəbul-bəyan» təfsiri.

**TƏFSİR:**

Həm «Bəqərə» surəsində, həm də hazırda təfsir etdiyimiz surənin əvvəllərində Allahın Bəni-İsraildən aldığı təkidli əhd-peymanlara işarə olunur. Bu ayədə isə həmin əhd-peyman bir daha xatırladılaraq buyurulur: Biz (nazil etdiyimizə əməl etməklə əlaqədar) Bəni-İsraildən əhd-peyman aldıq, onların hidayət olunması üçün müxtəlif peyğəmbərlər göndərdik ki, bu əhd-peymana vəfadar qalmağı onlardan tələb etsinlər.

Sonra əlavə edilir: Onlar nəinki bu əhd-peymana əməl etmədilər, üstəlik hər vaxt peyğəmbərlər onların istəklərinin, nəfs istəklərinin əleyhinə olan bir hökm gətirsəydi (onunla ən ciddi və şiddətli şəkildə mübarizə aparırdılar), onlardan bir qrupunu təkzib etdilər, digər qrupunun isə təkzib etmək yolu ilə nüfuzlarının qarşısını ala bilmədiklərinə görə qətlə yetirirdilər.

**AYƏ 71:**

[ وَحَسِبُواْ أَلاَّ تَكُونَ فِتْنَةٌ فَعَمُواْ وَصَمُّواْ ثُمَّ تَابَ اللهُ عَلَيْهِمْ ثُمَّ عَمُواْ وَصَمُّواْ كَثِيرٌ مِّنْهُمْ وَاللهُ بَصِيرٌ بِمَا يَعْمَلُونَ ]

**TƏRCÜMƏ:**

***«Onlar (onlar üçün) imtahan və əzab olmayacağını güman etdilər. Beləliklə kor və kar oldular. Həmin vaxt Allah onlara nəzər saldı və tövbələrini qəbul etdi. Yenə onların çoxu kor və kar oldular. Allah onların etdiklərini görəndir.»***

**TƏFSİR:**

Bu ayədə onların saysız-hesabsız tüğyançılıqları və cinayətləri müqabilində yersiz qürurlarına işarə olaraq buyurulur: Bununla belə, onlar güman edirdilər ki, bəla və cəzalar onları tutmayacaqdır.

Başqa ayələrdə də aşkar bəyan olunduğu kimi, yəhudilər özlərini ən yüksək irq, hətta Allahın övladları təsəvvür edirdilər! Bu təhlükəli qürurun, özlərini hamıdan üstün saymağın nəticəsində onların gözlərinə və qulaqlarına pərdə salındı. Çünki «onlar Allahın ayələrini görməkdə kor, haqq kəlmələrini eşitməkdə kar idilər.»

Amma əməllərinin acınacaqlı aqibəti olan ilahi cəzalardan bir neçə nümunəni müşahidə etdikdə peşman olub tövbə etdilər, Allahın təhdidlərinin ciddi olduğunu, özlərinin heç də üstün irq olmadığını anladılar. Allah da onların tövbələrini qəbul etdi.

Lakin bu peşmançılıq çox davam etmədi: yenə də tüğyançılıq və inadkarlıq etməyə, haqq-ədalətin qarşısında müqavimət göstərməyə başladılar, nəticədə günahda qərq olmağın əsərlərindən ibarət olan qəflət pərdələri yenidən onların gözlərinə və qulaqlarına salındı, Allahın ayələrini görməkdə yenə də kor, haqq kəlmələrini eşitməkdə kar oldular və bu halət onların çoxunu tutdu.

Ayənin axırında qısa, lakin dolğun mənalı bir cümlədə buyurulur: Allah heç vaxt onların əməllərindən qafil olmamışdır və onların bütün əməllərini görür.

**AYƏ 72:**

[لَقَدْ كَفَرَ الَّذِينَ قَالُواْ إِنَّ اللّهَ هُوَ الْمَسِيحُ ابْنُ مَرْيَمَ وَقَالَ الْمَسِيحُ يَا بَنِي إِسْرَائِيلَ اعْبُدُواْ اللّهَ رَبِّي وَرَبَّكُمْ إِنَّهُ مَن يُشْرِكْ بِاللّهِ فَقَدْ حَرَّمَ اللّهُ عَلَيهِ الْجَنَّةَ وَمَأْوَاهُ النَّارُ وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَارٍ]

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, "Allah həmin Məryəm oğlu Məsihdir (vücudu vacib olan varlıq mümkün varlığa çevrilib və ya vücudu vacib olan varlıq mümkün varlığa daxil olub)" deyən kəslər kafir oldular. Halbuki Məsihin özü "ey İsrail övladları, (həm) mənim Rəbbim***

***və (həm də) sizin Rəbbiniz olan Allaha ibadət edin. Şübhəsiz, Allah Ona şərik qoşana Cənnəti haram edər və onun qalacağı yer oddur. Zalımlara əsla kömək edən yoxdur" demişdi.»***

**TƏFSİR:**

Əvvəlki ayələrdə yəhudilərin haqq yoldan azmaları ilə əlaqədar olan bəhslərin ardınca bu və bundan sonrakı ayədə məsihilərin yoldan azmasından söhbət açılır, əvvəlcə onların ən mühüm azğınçılıqları, yəni həzrət Məsihin ilahiləşdirilməsi məsələsini irəli çəkərək buyurur: Şübhəsiz, «Allah Məryəmin oğlu Məsihdir» – deyənlər kafir oldular. Halbuki, Məsihin özü Bəni-İsrailə aşkar şəkildə demişdi ki, «Mənim və sizin Pərvərdigarınız olan yeganə Allaha pərəstiş edin.»

Həmçinin Həzrət Məsih bu mətləbə təkid etmək, hər növ yanlış fikri və anlaşılmazlığı dəf etmək üçün əlavə etdi: "Hər kəs Allaha şərik qoşsa, Allah behişti ona haram edər və onun yeri cəhənnəmdir." Eləcə də daha artıq təkid etmək, şirkin və həddi aşmağın bir növ aşkar zülm olduğunu isbat etmək üçün onlara dedi: "Zalımların heç bir dostu və köməkçisi olmayacaqdır."

Yuxarıdakı ayədə Həzrət Məsihin (ə) tövhid məsələsi ilə əlaqədar israrlarında duyulan mətləb məsihilərin mövcud mənbələri ilə də uyğundur.[1] Bu da Quranın əzəmətli dəlillərindən hesab edilir.

**AYƏ 73:**

[لَّقَدْ كَفَرَ الَّذِينَ قَالُواْ إِنَّ اللّهَ ثَالِثُ ثَلاَثَةٍ وَمَا مِنْ إِلَـهٍ إِلاَّ إِلَـهٌ وَاحِدٌ وَإِن لَّمْ يَنتَهُواْ عَمَّا يَقُولُونَ لَيَمَسَّنَّ الَّذِينَ كَفَرُواْ مِنْهُمْ عَذَابٌ أَلِيمٌ]

---

[1] «Mərqus» İncilinin 12-ci bölməsinin 29-cu ayəsində İsa (ə) camaatı tövhidə də'vət edərək buyurur: «Bizim Allahımız yeganə və vahid olan Allahdır.» «Mətta» İncili, 6-cı bölmə, 24-cü ayədə də belədir.

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, "Allah üç ilahi ünsürdən (ata, oğul və Ruhul-Qudusdan) biridir" deyənlər kafir oldular, halbuki tək olan Allahdan başqa heç bir tanrı yoxdur. Əgər dediklərindən çəkinməsələr, şübhəsiz onlardan (bu etiqadla) kafir olanlara ağrılı bir əzab yetişəcəkdir.»***

**TƏFSİR:**

Diqqət yetirmək lazımdır ki, əvvəlki ayələrdə Allah barəsində həddini aşaraq İsa (ə) ilə Allahın ittihadını iddia etməkdən söhbət gedirdi, lakin bu ayədə məsihilərin nəzərindən məbudların çoxluğu, yəni tövhiddə üçlük məsələsinə işarə edilir və buyurulur: Allahın "üç allahdan" üçüncüsü olduğunu deyənlər, şübhəsiz kafir oldular.

Quran onların cavabında əvvəlcə qəti şəkildə buyurur: Yeganə Allahdan başqa heç bir məbud yoxdur. Sonda təkidli xitablarla onlara buyurur ki, əgər bu yanlış əqidədən əl çəkməsələr, onda küfrdə qalan belə şəxsləri dərdli əzablar gözləyir.

**AYƏ 74:**

[ أَفَلاَ يَتُوبُونَ إِلَى اللّهِ وَيَسْتَغْفِرُونَهُ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ ]

**TƏRCÜMƏ:**

***«Bəs nə üçün onlar, Allah çox bağışlayan və mehriban olduğu halda, Allaha tərəf qayıtmır və Ondan bağışlanmaq diləmirlər?»***

**TƏFSİR:**

Bu mübarək ayə inhirafçı əqidələr qarşısında ayıq olmağın zəruri və lazım olduğuna dəlalət edir. Bu ayə yollarından azanları ilahi rəhmət və əfvlə müjdələyərək düzgün yola dəvət edir və buyurur ki,

tövbə etdikləri təqdirdə Allah həm onları bağışlayar, həm də Öz rəhmətini onlara şamil edər.

**AYƏ 75:**

[مَّا الْمَسِيحُ ابْنُ مَرْيَمَ إِلاَّ رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ الرُّسُلُ وَأُمُّهُ صِدِّيقَةٌ كَانَا يَأْكُلاَنِ الطَّعَامَ انظُرْ كَيْفَ نُبَيِّنُ لَهُمُ الآيَاتِ ثُمَّ انظُرْ أَنَّى يُؤْفَكُونَ]

**TƏRCÜMƏ:**

***«Məryəm oğlu Məsih yalnız bir peyğəmbərdir ki, ondan əvvəl də peyğəmbərlər keç(ib-get)mişlər. Onun anası çox doğruçu və əməli düz bir qadın olub. Onların hər ikisi yemək yeyirdilər (dünyaya gəlməsi, peyğəmbərliyi və yemək yeməsi, bunların hər üçü İncildə var. Deməli onlar Allah olmayıblar). Gör Biz ayə və (Öz tovhidimizin və İsanın bəndə olmasının) nişanələri(ni) necə bəyan edirik, sonra (da) gör onlar necə və hara qaytarılırlar?!»***

**TƏFSİR:**

Bu ayədə Allah-təala Həzrət Məsihin (ə) ilahiləşdirilməsinin rədd olunmasına dair üç dəlil gətirir:

1. O, Məryəmin oğludur və anadan doğulmuşdur.

2. Onun kimi peyğəmbərlər də olmuşdur və o misilsiz deyildir.

3. O da başqaları kimi yemək yeməyə və təbii həyat üçün lazım olan şeylərə ehtiyaclıdır. O özünün fiziki qüvvəsini bir tikə çörəkdən əldə edir. Deməli, Allah olmaq üçün mütləq qüdrət sahibi deyildir. Yemək yeməyə ehtiyaclı olan bir şəxs həmin yeməyin xaliqi və yaradanı ola bilməz. Bunlar Quranın aşkar bəyanlarıdır və möcüzə kimi bəzi imtiyazlara və istisna hallara malik olmaq şəxsin ilahiləşdirilməsinə dəlil deyil. Halbuki, başqa peyğəmbərlər də möcüzə göstərirdilər. Yaxud Adəm peyğəmbər (ə) dünyaya atasız-

anasız gəlmişdir. Allah nə cismdir, nə doğulmuşdur. O heç bir cəhətdən ehtiyaclı deyildir və məkana da ehtiyacı yoxdur.

Aydın olur ki, Məryəm (ə) də Allahın övliyalarındandır. Quran müqəddəs qadınları tərifləmiş, Həzrət Məryəmi (ə) Siddiqə (doğruçu) hesab etmişdir. Başqa ayələrdə Məryəmin ilahi kəlmələri təsdiq etməsi və onun abidlərdən olması buyurulur.[1]

**AYƏ 76:**

[ قُلْ أَتَعْبُدُونَ مِن دُونِ اللّهِ مَا لاَ يَمْلِكُ لَكُمْ ضَرًّا وَلاَ نَفْعًا وَاللّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ ]

**TƏRCÜMƏ:**

***«De: "Allahı qoyub (müstəqil surətdə) sizə heç bir ziyan və xeyir vermək imkan və qüdrəti olmayan şeyə ibadət edirsiniz?! Allah eşidən və biləndir!"»***

**TƏFSİR:**

Yuxarıdakı dəlilləri təkmilləşdirmək üçün bu ayədə buyurulur: Siz bilirsiniz ki, Məsihin (ə) özü başdan-ayağa bəşəri ehtiyaclara malik idi, nəinki sizin xeyir və ziyanınız, hətta özünün belə xeyir və ziyanı öz əlində deyildi. De: "Yoxsa elə şeylərə pərəstiş edirsiniz ki, nə sizin özünüzün, nə də sizin faydanızın sahibidir?!"

Məhz buna görə də dəfələrlə düşmənlərin əlində giriftar oldu və ya dostları tərəfindən çətinliyə məruz qaldı. Əgər Allahın mərhəməti onların halına şamil olmasaydı, heç bir addım da ata bilməzdilər.

Ayənin axırında onlara xəbərdarlıq edilir: «Allahın sizin yaramaz sözlərinizi eşitmədiyini, yaxud sizin batini niyyətlərinizdən agah olmadığını güman etməyin; Allah həm eşidəndir, həm də biləndir!»

---

[1] «Təhrim» surəsi, ayə 13

*İNCƏ MƏTLƏBLƏR*

1. Şirk yolunun batil olmasında öz əqlinizə və vicdanınıza müraciət edin.

2. Allahdan başqa digər məbudlar nəinki sizin ehtiyaclarınızı aradan qaldırmaqda, hətta, onları eşidib dərk etməkdə belə acizdirlər.

**AYƏ 77:**

[ قُلْ يَا أَهْلَ الْكِتَابِ لاَ تَغْلُواْ فِي دِينِكُمْ غَيْرَ الْحَقِّ وَلاَ تَتَّبِعُواْ أَهْوَاء قَوْمٍ قَدْ ضَلُّواْ مِن قَبْلُ وَأَضَلُّواْ كَثِيرًا وَضَلُّواْ عَن سَوَاء السَّبِيلِ ]

**TƏRCÜMƏ:**

***«De: "Ey kitab əhli, öz dininizdə haqsız yerə ifrata varmayın (bəşər övladını Allah və ya Allahın oğlu, yaxud üç Allahdan biri hesab etməyin) və həmçinin bundan qabaq (fitrətin düz yolundan) azmış, çoxlarını azdırmış və doğru yoldan (peyğəmbərlərin şəriətlərindən) sapmış dəstənin nəfsi istəklərinə tabe olmayın"»***

**TƏFSİR:**

Bu ayədə Peyğəmbərə (s) göstəriş verilir ki, kitab əhlinin, ilahi peyğəmbərlərin barəsində ifrata varmaqla əlaqədar yol verdikləri yanlış fikirlərini aydınlaşdırsın, bunun ardınca aydın dəlillərlə onları haqqa dəvət etsin ki, bu yoldan ciddi şəkildə qayıtsınlar. Peyğəmbərə (s) buyurulur: De: "Ey kitab əhli! Öz dininizdə həddən ziyadə təcavüz etməyin və haqdan başqa bir şey deməyin."

Əlbəttə, məsihilərin həddini aşması tam aydındır. Lakin bu ayə «ya əhləl-kitab» xitabı ilə deyildiyinə görə yəhudilərə də şamil olur. Bəlkə də onların həddi aşmaları, Üzeyir peyğəmbər (ə) barəsində

dedikləri sözlərdir. Çünki yəhudilər onu Allahın övladı hesab edirdilər.

Həddi aşma və ifratçılıq əksər hallarda yolllarını azanların nəfs istəklərinə tabe olmaqdan irəli gəldiyindən bu sözün təkmil olunması üçün buyurulur: Sizdən əvvəllər yollarını azan və çoxlarını da yoldan azdıranların həvayi-nəfsinə tabe olmayın.

Bu cümlədə məsihilərin tarixində də aşkar görünən bir mətləbə işarə olunur. Bu da Həzrət Məsih (ə) haqqında ifrat əqidəyə varıb onu ilahiləşdirmələri, üçlüyə inanmalarıdır. Bu əqidə məsihiyyətin yarandığı ilk əsrlərdə onların arasında mövcud olmamışdır. Hind bütpərəstləri və onlar kimilər bu dinə iman gətirdikdən sonra özlərinin sabiq dinlərinin təslis (üçlük) və şirkdən ibarət olan qalıqlarını məsihi dininə artırmışlar.

**AYƏ 78:**

[ لُعِنَ الَّذِينَ كَفَرُواْ مِن بَنِي إِسْرَائِيلَ عَلَى لِسَانِ دَاوُودَ وَعِيسَى ابْنِ مَرْيَمَ ذَلِكَ بِمَا عَصَوا وَّكَانُواْ يَعْتَدُونَ ]

**TƏRCÜMƏ:**

***«Bəni-İsraildən kafir olanlar Davudun və İsa ibn Məryəmin dili ilə lənət olundular. (Peyğəmbərlərin bu nifrin və lənəti) onların mürtəkib olduqları təcavüzkarlıq və günahların cəzası idi.»***

**TƏFSİR:**

Həzrət Davud (ə) Bəni-İsraili şənbə günlərinin tətili barəsində olan göstərişdən boyun qaçırdıqlarına görə lənətləmişdi. Həzrət İsa (ə) isə Bəni-İsrailin qəlbi aramlıq tapmaları üçün səmavi süfrənin nazil olmasını istəmişdi. Onun duası ilə bu süfrə nazil olduqdan və yeyib-içdikdən sonra küfr etdiklərinə görə İsa (ə) onları lənətlədi. Buna görə də onlar ilahi qəzəbə və əzaba düçar oldular.

**AYƏ 79:**

[ كَانُواْ لاَ يَتَنَاهَوْنَ عَن مُّنكَرٍ فَعَلُوهُ لَبِئْسَ مَا كَانُواْ يَفْعَلُونَ ]

**TƏRCÜMƏ:**

***«Onlar etdikləri heç bir çirkin işdən əl çəkmir (və bir-birlərini çəkindirmir)dilər. Doğrudan da onların gördükləri iş çox pis idi.»***

**TƏFSİR:**

İmam Sadiq (ə) buyurur: «***Bəni-İsrailin yaxşı adamları günah yığıncaqlarına daxil olmurdular, lakin günahkarlarla gülərüzlü-lüklə, mehribanlıqla davranırdılar.***»[1]

Buna görə də fəsad işlər və eybəcərliklər müqabilində laqeydlik göstərənlər peyğəmbərlər tərəfindən lənət olunur. İnsanları pisliklərdən və çirkin əməllərdən çəkindirmək təkcə İslama məxsus deyil, bu vacib hökm bütün dinlərdə mövcud olmuşdur. Bəni-İsrail cəmiyyətində və yəhudilər içərisində fəsada rəvac verildiyinə görə də Allah və Rəsul (s) tərəfindən lənətə düçar oldular.

**AYƏ 80:**

[ تَرَى كَثِيرًا مِّنْهُمْ يَتَوَلَّوْنَ الَّذِينَ كَفَرُواْ لَبِئْسَ مَا قَدَّمَتْ لَهُمْ أَنفُسُهُمْ أَن سَخِطَ اللّهُ عَلَيْهِمْ وَفِي الْعَذَابِ هُمْ خَالِدُونَ ]

**TƏRCÜMƏ:**

***«Onların çoxunu kafirlərlə (müşriklərlə) dostluq edən görürsən. Doğrudan da nəfsi istəklərinin onlar üçün qarşıya çıxardığı şey pisdir ki, Allah onlara qəzəb etmiş və onlar ilahi əzabda həmişəlikdirlər.»***

---

[1] «Təfsiri Burhan», 1-ci cild, səh. 492

**TƏFSİR:**

Bu ayədə onların lənətə düçar olmalarına səbəb olan əməllərinin digər biri bəyan olunmuşdur. Bu da Bəni-İsrailin kafirlərlə dostluq və vilayət yaratmalarıdır. Deməli, kafirlərin vilayətini qəbul etmək Allahın qəzəbinə səbəb olur.

**AYƏ 81:**

[ وَلَوْ كَانُوا يُؤْمِنُونَ بِالله والنَّبِيِّ وَمَا أُنزِلَ إِلَيْهِ مَا اتَّخَذُوهُمْ أَوْلِيَاء وَلَـكِنَّ كَثِيرًا مِّنْهُمْ فَاسِقُونَ ]

**TƏRCÜMƏ:**

***«Əgər onların Allaha və Peyğəmbərə və ona nazil olana imanları olsaydı, onları (müşrikləri) dost tutmazdılar. Lakin onların çoxu itaətsizdirlər.»***

**TƏFSİR:**

Bu ayə bir neçə məna verə bilər. O cümlədən:

1. «Əgər yəhudilər Musaya (ə) və onun Tövratına həqiqi mənada iman gətirsəydilər, heç vaxt müşrikləri özlərinə vəli qərar verməzdilər.»[1]

2. «Əgər kafirlər və müşriklər müsəlman olsaydılar, yəhudilər onlarla həmkarlıq etməzdilər». («Əl-mizan» təfsiri)

3. Əgər kitab əhli, yaxud müsəlmanlar Allaha həqiqi iman gətirsəydilər kafirləri özlərinə vəli seçməzdilər. Çünki iman kafirlərin vilayətini qəbul etməklə uyğun gəlmir və bu iş fisq və imansızlıqdır ki, kafirlərlə əlaqədar onların hakimiyyət və istilasının qəbul edilməsinə səbəb olur.

---

[1] «Təfsiri-Alusi».

Ümumiyyətlə, hər kəs haqqın mehvərindən xaric olsa, tağutların və kafirlərin şikarı olar.

**AYƏ 82:**

[لَتَجِدَنَّ أَشَدَّ النَّاسِ عَدَاوَةً لِّلَّذِينَ آمَنُواْ الْيَهُودَ وَالَّذِينَ أَشْرَكُواْ وَلَتَجِدَنَّ أَقْرَبَهُمْ مَّوَدَّةً لِّلَّذِينَ آمَنُواْ الَّذِينَ قَالُوَاْ إِنَّا نَصَارَى ذَلِكَ بِأَنَّ مِنْهُمْ قِسِّيسِينَ وَرُهْبَانًا وَأَنَّهُمْ لاَ يَسْتَكْبِرُونَ]

**TƏRCÜMƏ:**

***«Şübhəsiz, insanların iman gətirənlərə qarşı düşmənçilikdə ən qatısının yəhudilər və müşriklər olmasını görəcəksən. Onların möminlərlə dostluqda ən yaxın olanlarının isə «biz xaçpərəstlərik» deyənlər olduğunu görərsən. Bu, ona görədir ki, onların bir qismi keşişlər və rahiblərdir və onlar təkəbbürlənmir, özlərini yuxarı tutmurlar.»***

**TƏFSİR:**

Bu ayə Həbəşistanın müsəlmanlarla gözəl rəftar edən məsihi padşahı ilə əlaqədar nazil olmuşdur. Belə ki, besətin beşinci ilində mühacir müsəlmanlar Cəfər ibn Əbu Talibin rəhbərliyi ilə Məkkədən köçərək oraya getdilər və Nəcaşinin himayəsi altında və sığınacağında olub Qüreyş başçıları tərəfindən Həbəşistana göndərilənlərin və müşrik başçılarının əzabından amanda qaldılar. Yəhudilər bu qədər möcüzələri, eləcə də Peyğəmbərin (s) gözəl əxlaqını görməklə ona iman gətirmədilər və müsəlmanların əleyhinə tökülən məkrli tədbirlərdə iştirak edib, əhd-peymanı pozur, fitnə-fəsad törədirdilər. Lakin Həbəşistandakı məsihi ruhanilər «Məryəm» surəsinin ayələrini eşidib ağladılar və müsəlmanları himayə etdilər.

Buna əsasən, yəhudilər İslamın və müsəlmanların ən inadkar və ən qatı düşmənləridir. Onların bu düşmənçiliklərinin dərin tarixi

kökləri vardır. Lakin məsihilərin haqq yoldan azmalarına, təslisə – üçlüyə etiqad bəsləməklərinə baxmayaraq nisbətən sağlam ruhiyyəyə malik olduqlarına görə haqqı qəbul etmək üçün daha artıq hazırlığa malikdirlər. Onlar, xüsusilə onların ruhaniləri, məkr və hiylə əhli deyil.

**AYƏ 83:**

[ وَإِذَا سَمِعُواْ مَا أُنزِلَ إِلَى الرَّسُولِ تَرَى أَعْيُنَهُمْ تَفِيضُ مِنَ الدَّمْعِ مِمَّا عَرَفُواْ مِنَ الْحَقِّ يَقُولُونَ رَبَّنَا آمَنَّا فَاكْتُبْنَا مَعَ الشَّاهِدِينَ ]

**TƏRCÜMƏ:**

***«Onlar Peyğəmbərə nazil olanı eşidən zaman haqqı tanıdıqları üçün gözlərindən yaş axdığını görərsən. Onlar deyərlər: "Ey Rəbbimiz, iman gətirdik, odur ki, bizi (daim Sənin hüzurunda) şahid olanlardan (və axirət aləminin şahidlərindən) et!"»***

**TƏFSİR:**

Məsihilərin haqqı dinlədikdə sevincdən göz yaşı axıtmalarına iki nümunə göstərmək olar. Onlardan biri Cəfər ibn Əbu Talibin «Məryəm» surəsinin ayələrini Həbəşistanda Nəcaşi üçün oxuduğu zaman, digəri isə məsihilərdən bir qrupunun Cəfərlə birlikdə Mədinəyə gəlib «Yasin» surəsinin ayələrini eşitdikləri zaman baş vermişdi.

Deməli, qəlblərində haqqı qəbul etməyə hazırlığı olanlar haqq kəlmələrini eşitməklə ruhən dəyişilirlər. Lakin buna ləyaqəti olmayanlar ilahi möcüzələri görməklə də təsirlənmirlər.

İnsan ruhən və fitrətən həqiqət aşiqidir. O öz məşuqu ilə vüsala çatdığı zaman sevinc yaşları axıdır. Əlbəttə, iman və təsdiq mərifət və bəsirət əsasında olmalıdır ki, insan yüz illik yolu bir anlığa qət

edə bilsin. Hər bir halda iman əhli öz aqibətinin gözəl sona çatması və imanının davam etməsi üçün daim dua etməlidir.

**AYƏ 84-86:**

[ وَمَا لَنَا لاَ نُؤْمِنُ بِاللّهِ وَمَا جَاءنَا مِنَ الْحَقِّ وَنَطْمَعُ أَن يُدْخِلَنَا رَبَّنَا مَعَ الْقَوْمِ الصَّالِحِينَ. فَأَثَابَهُمُ اللّهُ بِمَا قَالُواْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَذَلِكَ جَزَاء الْمُحْسِنِين. وَالَّذِينَ كَفَرُواْ وَكَذَّبُواْ بِآيَاتِنَا أُوْلَـئِكَ أَصْحَابُ الْجَحِيمِ ]

**TƏRCÜMƏ:**

***84. «Rəbbimizin bizi salehlərin dəstəsinə daxil və onlarla birgə etməsinə göz tikdiyimiz halda bizə nə olub ki, Allaha və haqdan bizə gələnə iman gətirməyək?»***

***85. «Beləliklə, Allah bu sözlərinin müqabilində onları (ev və ağaclarının) altından çaylar axan Cənnətlərlə mükafatlandırdı ki, orada əbədi qalacaqlar. Budur yaxşı işlər görənlərin mükafatı.»***

***86. «Kafir olub ayələrimizi və nişanələrimizi inkar və təkzib edən kəslər isə Cəhənnəmin yoldaşlarıdır.»***

**TƏFSİR:**

Haqqı dərk etdikdən sonra onu tam aşkar şəkildə, sədaqət və şücaətlə iqrar edənlər, özlərinin sabiq din yoldaşlarının yaratdığı irticaçı fəzadan qorxmayanlar ən yaxşı əməl sahiblərindəndir. Çünki həm özləri yaxşılıq edərək cəhənnəm əzabından xilas olur, həm də öz etirafları ilə başqaları üçün yolu açırlar. Buna əsasən imanın mükafatı behişt, küfr və təkzibin cəzası isə cəhənnəmdir.

Yuxarıdakı şərif ayədə «haqq» dedikdə məqsəd Quran, İslam və Peyğəmbərin (s) müqəddəs vücududur.

## AYƏ 87:

[ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تُحَرِّمُواْ طَيِّبَاتِ مَا أَحَلَّ اللّهُ لَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبُّ الْمُعْتَدِينَ ]

### TƏRCÜMƏ:

***«Ey iman gətirənlər, Allahın sizə halal etdiyi pak şeyləri (haram edilməmiş müxtəlif yaşayış vasitələrini) özünüzə haram etməyin və həddi aşmayın (halalın hədlərini aşaraq harama da keçməyin) ki, həqiqətən Allah həddi aşanları sevmir.»***

### TƏFSİR:

Bir gün Rəsuli-Əkrəm (s) Qiyamətdən və məhşər səhnələrindən danışırdı. Camaat həddindən artıq təəssüflənib ağlayırdı. Bundan sonra bəziləri qərara aldı ki, bir daha yaxşı yemək yeməsin, rahatlığı özünə haram etsin, daim oruc tutsun, həyat yoldaşlarını tərk etsinlər və gecələr az yatsınlar. Daha sonra buna əməl edəcəklərinə dair and içdilər.

Peyğəmbər (s) bundan xəbər tutan kimi camaatı məscidə toplayıb buyurdu: «**Mən yemək yeyirəm, gecələr yatıram, həyat yoldaşlarımı tərk etmirəm. Bizim dinimiz röhbaniyyət (guşənişinlik, rahiblik) dini deyildir. Hər kəs mənim sünnəmdən üz döndərsə, müsəlman deyildir.**»

Bəziləri dedilər: "Bəs and içdiyimiz şeylərlə nə edək?"

Sonrakı ayə nazil oldu və belə buyurdu: «**Allah sizi, (qəlbinizlə deyil, dilinizdə olan) əbəs andlar müqabilində cəzalandırmayacaq.**»

### *İNCƏ MƏTLƏBLƏR*

1. İslam fitrət dinidir. Bu dində guşənişinlik, rahiblik, ifrat və təfrit qadağandır.

2. Müsəlman şəxs ilahi fərmanlara qeydsiz-şərtsiz təslimdir; o nə halalı haram edir, nə də haramı halal.

Peyğəmbəri-Əkrəm (s) buyurur: «**Camaat! Mənim halal etdiklərim Qiyamətə qədər halal, haram etdiklərim də Qiyamətə qədər haramdır.**»[1]

3. Bütün halal ləzzətlər, yeməlilər və içməlilər insan üçün yaradılmışdır.

4. Halal nemətlərdən bəhrələnən zaman israf etmək və həddi aşmaq olmaz.

5. Quranın aşkar nəhyi (qadağası) müqabilində olan nəzir, əhd və andların heç bir dəyər və etibarı yoxdur.

**AYƏ 88:**

[ وَكُلُواْ مِمَّا رَزَقَكُمُ اللّهُ حَلاَلاً طَيِّبًا وَاتَّقُواْ اللّهَ الَّذِيَ أَنتُم بِهِ مُؤْمِنُونَ ]

**TƏRCÜMƏ:**

***«Və Allahın ruzi olaraq sizə verdiklərinin halal və pak olanlarından yeyin (və şəriətin haram buyurduqlarından və zatən murdar olan şeylərdən çəkinin) və iman gətirdiyiniz Allahdan qorxun.»***

**TƏFSİR:**

Keçən ayədə halal şeylərin haram edilməsi qadağan olunurdu. Bu ayədə isə ilahi nemətlərdən qanuni şəkildə bəhrələnməyə dair əmr edilərək buyurulur: «Allahın sizin üçün halal və pak-pakizə qərar verdiyi ruzilərdən yeyin.»

Peyğəmbəri-Əkrəm (s) buyurur: «**Halal ruzi axtarmaq (qazanmaq) hər bir müsəlman qadın və kişiyə vacibdir.**»[2]

Yenə buyurur: «**İbadət yetmiş qismdir. Onun ən yaxşısı halal ruzi axtarmaqdır (qazanmaqdır).**»[3]

---

[1] «Biharul-ənvar», 2-ci cild, səh. 260
[2] «Biharul-ənvar», 100-cü cild, səh. 9
[3] «Bəqiyyətullahi», «həlal» maddəsi, səh. 298

Başqa bir hədisdə buyurur: «**Halal ruzi axtarmaq Allah yolunda cihaddır.**»[1]

Yenə buyurur: «**Halal ruzi kəsb etmək vacib namazlardan sonra gələn ən lazımlı vacibi əməldir.**»[2]

Yenə buyurur: «**Halal yol ilə ticarətlə məşğul olub qazanc əldə etmək əməllərin ən üstünüdür.**»[3]

Yeganə şərt budur ki, iman gətirdiyiniz Allah ilə müxalifətçilik etməkdən çəkinəsiniz. Yəni sizin Allaha iman gətirməyiniz Onun bütün əmr və göstərişlərini möhtərəm sayamağınızı, həm də ilahi nemətlərdən bəhrələnməkdə etidal və təqva yoluna riayət etməyinizi tələb edir.

**AYƏ 89:**

[لاَ يُؤَاخِذُكُمُ اللهُ بِاللَّغْوِ فِي أَيْمَانِكُمْ وَلَكِن يُؤَاخِذُكُم بِمَا عَقَّدتُّمُ الأَيْمَانَ فَكَفَّارَتُهُ إِطْعَامُ عَشَرَةِ مَسَاكِينَ مِنْ أَوْسَطِ مَا تُطْعِمُونَ أَهْلِيكُمْ أَوْ كِسْوَتُهُمْ أَوْ تَحْرِيرُ رَقَبَةٍ فَمَن لَّمْ يَجِدْ فَصِيَامُ ثَلاَثَةِ أَيَّامٍ ذَلِكَ كَفَّارَةُ أَيْمَانِكُمْ إِذَا حَلَفْتُمْ وَاحْفَظُواْ أَيْمَانَكُمْ كَذَلِكَ يُبَيِّنُ اللهُ لَكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَشْكُرُونَ]

**TƏRCÜMƏ:**

***«Allah sizi bihudə və niyyətində olmadığınız andlar(ı pozmağınız)a görə cəzalandırmaz, lakin sizi ciddi iradə ilə içdiyiniz andlar(ı pozmağınız)a görə cəzalandırar. Buna görə də onu (pozmağı)n kəffarəsi öz ailənizə yedirtdiyiniz orta hesabla on fəqirə yemək vermək, yaxud onları geyindirmək və ya bir qul azad etməkdir. Beləliklə, əgər kimsə (bunları) tapmasa (onun kəffarəsi) üç gün oruc tutmaqdır. Budur and içdiyiniz (və onu pozduğunuz) zaman sizin andlarınızın***

---

[1] «Kənzül-ümmal», 1-ci cild, səh. 6
[2] «Kənzül-ümmal», 4-cü cild, səh. 5
[3] «Kənzül-ümmal», 4-cü cild, səh. 4

***kəffarəsi! Gərək öz andlarınızı qoruyasınız (və pozmayasınız). Allah Öz ayələrini sizin üçün bu cür açıqlayır (ki), bəlkə şükr edəsiniz.»***

**TƏFSİR:**

Bu ayədə halal şeylərin haram edilməsi və s. kimi şeylərlə əlaqədar and içmək barəsində ümumi şəkildə söhbət açılır və andlar iki qismə bölünür. Əvvəlcə buyurulur: Allah sizi əbəs andlarınız müqabilində cəzalandırmaz.

Təfsirçilərin və fəqihlərin nəzərinə görə «**əbəs yerə and içmək**» dedikdə müəyyən bir hədəfi olmayan, iradə və qəti qərar üzündən baş verməyən, möhtəvası bəzən şəriətə zidd, bəzən də ilahi göstərişlərin əksinə olan andlar nəzərdə tutulur.

İkinci qismi isə iradə və qəti qərar üzündən, ciddi olaraq içilən andlardır. Bu cür andlar barəsində ayənin davamında buyurulur: Allah sizi möhkəmləndirdiyiniz andlar müqabilində cəzalandırar və sizi ona əməl etməyə vəzifəli edər.

Əlbəttə, andın təkcə ciddi olması onun səhih olması üçün kifayət deyil. Andın möhtəvası da heç olmazsa mübah bir iş olmalıdır. Bunu da bilmək lazımdır ki, Allahın müqəddəs adından başqa şeyə içilən and mötəbər deyil.

Deməli, əgər bir şəxs Allahın adına and içsə, onun öz andına əməl etməsi vacibdir. Əgər onu pozarsa kəffarə verməlidir. Kəffarəsi də üç şeydən biridir: **İlk növbədə,** on miskinə təam verməlidir.

Amma bəzilərinin bu hökmün ümumi şəkildə deyilməsindən hər növ dəyərsiz və yararsız yeməyin kəffarə ünvanı ilə verilməsinin caiz olmasını təsəvvür etməməsi üçün aşkar şəkildə buyurulur ki, bu yeməklər heç olmazsa, sizin adətən öz ailənizdə yediyiniz orta səviyyəli təamlardan olmalıdır.

**İkincisi,** on nəfər ehtiyaclını libasla təmin etmək.

Əlbəttə, ayənin zahiri mənasından başa düşülür ki, bu adətən bədəni örtən libas olmalıdır ki, fəsillərin, məkanların və zamanların dəyişməsi ilə dəyişir.

Keyfiyyət baxımından ən aşağı səviyyədə olmasının kifayət olub-olmaması, yaxud burada da normal həddə riayət edilməsi məsələsinə gəldikdə isə, ayənin ümumi şəkildə bəyan edilməsinə əsasən hər növ libas kifayətdir.

**Üçüncüsü,** bir qul azad etmək.

Amma bəzən bir kəs üçün bu üç şeydən heç birinin müyəssər ola bilməməsi mümkün olduğuna görə, bu göstərişdən sonra bilavasitə buyurulur ki, bunların heç birini əldə edə bilməyənlər üç gün oruc tutmalıdırlar.

Sonra daha təkid üçün buyurulur: Sizin içdiyiniz andların kəffarəsi qeyd olunanlardır. Lakin bəziləri kəffarə verməklə səhih andları pozmağın haram olmamasını təsəvvür etməsinlər deyə, buyurulur ki, öz andlarınızı qoruyub hifz edin. Yəni andı pozmaqla günaha düçar olmayın.

Ayənin axırında buyurulur: Allah Öz ayələrini sizin üçün belə bəyan edir ki, bəlkə həm fərdin, həm də cəmiyyətin səadətinə təminat verən göstərişlər və hökmlər müqabilində Ona şükr edəsiniz.

## AYƏ 90:

[ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنصَابُ وَالأَزْلاَمُ رِجْسٌ مِّنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, həqiqətən şərab, qumar və asılmış bütlər(ə ibadət etmək, onlar üçün qurban kəsmək və həmin qurbanın ətindən yemək) və qumardakı püşk oxları nəcis və murdardır və Şeytanın ixtiralarındandır. Buna görə də onlardan çəkinin, bəlkə nicat tapasınız.»***

**TƏFSİR:**

Ərəblərin şerə, şəraba və müharibəyə çox maraqları var idi. Ona görə də şərab tədricən, mərhələ-mərhələ qadağan olundu. Əvvəlcə «Nəhl» surəsinin 67-ci ayəsi nazil oldu və buyurdu ki, xurmadan və üzümdən həm ruzi hazırlanır, həm də məstedicidir.

Sonra isə, «Bəqərə» surəsinin 219-cu ayəsində qumar və şərabın zahiri mənfəətlərinə işarə edilir və onun günahlarının daha çox olduğu qeyd olunur. Daha sonra isə «Nisa» surəsinin 43-cü ayəsində məst halda namaz qılmaq qadağan edildi.

Daha sonra yuxarıdakı ayə nazil olub bu işin çirkin, şeytani əməl və haram olduğunu göstərdi.[1]

«Xəmr» örtmək, gizlətmək mənasına olan «xumur»la eyni kökdən alınmışdır, qadınların başına bağladıqları şeyə «ximar» deyilir (cəm forması «xumur»). Çünki bu qadınların saçlarını örtdüyü kimi, şərab da insanın əqlini örtür, pərdələyir.

«Məysir» asanlıq mənasına olan «yusr» kökündən alınmışdır. Çünki qumarda şəxslər zəhmət çəkmədən çoxlu pul əldə edirlər. «Əzlam» da bir püşk atma növüdür ki, cahiliyyət dövründə yayılan çubuq vasitəsilə edilirdi.

### *İNCƏ MƏTLƏBLƏR*

1. İmanla şərab içmək bir-biri ilə uyğun gəlmir.
2. Şərab və qumar bütpərəstliklə eyni səviyyədədir.

(Hədisdə qeyd olunur ki, «**şərab içən bütpərəst kimidir**».)

3. İslamın əmr etdiyi və qadağan buyurduğu heç bir şey hikmətsiz və dəlilsiz deyildir.
4. Mömin şəxs şərab içməməkdən əlavə şərab qoyulan süfrəyə belə yaxın düşməməlidir. Çünki insanların səadətində sağlam qidanın çox təsiri vardır.[1]

---

[1] Əhməd ibn Hənbəlin «Müsnəd», Əbu Davudun, Nisainin və Tirmizinin «Sünən» kitablarında bu ayənin nazil olması ilə əlaqədar müəyyən mətləblər bəyan olunmuşdur ki, oraya müraciət edə bilərsiniz.

Buna əsasən, şərabdan çəkinməlisiniz ki, düz yola hidayət olunub qurtuluşa nail olasınız.

**AYƏ 91:**

[ إِنَّمَا يُرِيدُ الشَّيْطَانُ أَن يُوقِعَ بَيْنَكُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاء فِي الْخَمْرِ وَالْمَيْسِرِ وَيَصُدَّكُمْ عَن ذِكْرِ اللّهِ وَعَنِ الصَّلاَةِ فَهَلْ أَنتُم مُّنتَهُونَ ]

**TƏRCÜMƏ:**

***«Həqiqətən Şeytan şərab və qumarla (sizi onlara aludə edib onların düşkünü etməklə) aranızda düşmənçilik və kin salmaq və sizi Allahın zikrindən və namazdan saxlamaq istəyir. Belə isə əl çəkəcəksinizmi?»***

**TƏFSİR:**

Mövcud faktlara əsasən qətl, qəza hadisələri, təlaq (boşanma) halları, ruhi və böyrək xəstəlikləri və s.-nin çoxu şərabdan yaranır. Buna baxmayaraq, Qurani-Kərim onun haram edilməsinin fəlsəfəsi kimi iki əsas məsələni irəli çəkir: biri ictimai zərər (insanların bir-birinə ədavət bəsləməsi), digəri isə mənəvi zərərdir (namazdan və Allahı yad etməkdən qafil olmaq).

---

[1] Şərabın istehsal olunub paylanması, məsrəf edilməsi və s. işləri görmək və onda hər növ həmkarlıq etmək haramdır. İmam Baqir (ə) Peyğəmbəri-Əkrəmdən (s) nəql edir ki, o həzrət (s) şərabxorluqda hər hansı yollarla dəxaləti olan on dəstə adamı lə’nətləmişdir: Şərab məqsədi ilə üzüm kolu əkən, onu (həmin məqsədlə) becərib yetişdirən, şərab hazırlayan, onu içən, şarabı cama süzən, onu daşıyan, onu təhvil alan, satan, alan və hər kəs onun gəlirində müəyyən qədər rol oynasa məl’undur. «Nurus-səqəleyn», həmin ayənin təfsirində.

## *İNCƏ MƏTLƏBLƏR*

1. Hökmlərin fəlsəfəsinin bəyan edilməsi sözün təsir qoyması amillərindən biridir.

2. Kin-küdurət yaradan bütün amillərlə mübarizə aparmaq lazımdır.

3. Camaat arasında ədavət və kin-küdurətin yaranmasına səbəb olan hər kəs və hər bir hərəkət şeytani hərəkətdir.

4. Namazdan və Allahı yad etməkdən qafil olmağa, əqlin aradan getməsinə səbəb olan hər bir iş qumar və şərab kimi bəyənilməzdir.

5. Hər yerdə kin-küdurət və ədavət olsa, yaxşı olar ki, onun maddi mənfəətlərindən imtina edilsin. (Şərabda və qumarda mənfəət də vardır, lakin qoyduğu pis təsirlərə görə haram edilir.)

6. Ruhi və mənəvi zərərlər maddi və fiziki zərərlərdən daha ağırdır (halbuki şərabın cismi zərəri də vardır. Lakin bu məsələdə ədavət və qəflətlə əlaqədar təkid edilir).

Buna əsasən, şərab içmək və qumar oynamaq insanların həm axirətdəki, həm də dünyadakı xeyir və məsləhətlərinə görə qadağan edilmişdir. İbn Abbas deyir: "Bu ayədə məqsəd Səd ibn Əbi Vəqqas və ənsardan olan bir kişidir. Onlar bir-biri ilə əhd bağlamışdılar. Ənsardan olan kişi Sədi qonaqlığa çağırdı və təam süfrəsində şərab qoydu, məst oluncaya qədər yeyib-içdilər. Bu zaman hər biri digərinə öyünməyə başladı, iş onların arasında dava-dalaşa gətirib çıxartdı. Ənsardan olan kişi yekə bir sümük parçasını götürüb Sədin burnuna elə çırpdı ki, burnu sındı. Mütəal Allah bu ayəni onların barəsində nazil etdi və buyurdu ki, şeytan sizi aldadaraq əqlin cilovunu əlinizdən almaq, şərab içməyə və bununla da adi halda yerinə yetirmədiyiniz işlərə vadar etmək istəyir."

Qütadə deyir: "Bəziləri mal-dövlətlərini və hətta həyat yoldaşını belə qumara qoyur, nəhayət bunları uduzaraq qəm-qüssə çəkirdilər və rəqiblərindən intiqam almaq üçün tədbir tökürdülər."

Beləliklə, qumarın kin-küdurət və ədavətdən başqa heç bir nəticəsi olmur. Şeytan bu yolla sizi Allahı yad etməkdən yayındırmaq istəyir ki, Onun nemətlərinin şükrünü yerinə yetirməyəsiniz. O sizi dinin möhkəm sütunu olan namazdan qafil edir, belə isə Allaha itaət edin və Onun qadağanlarını görməməzliyə vurmayın.

## AYƏ 92:

[ وَأَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَاحْذَرُواْ فَإِن تَوَلَّيْتُمْ فَاعْلَمُواْ أَنَّمَا عَلَى رَسُولِنَا الْبَلاَغُ الْمُبِينُ ]

### TƏRCÜMƏ:

***«Allaha itaət edin, Onun peyğəmbərinə tabe olun və (onunla müxalifət etməkdən) çəkinin. Beləliklə, əgər üz döndərsəniz, bilin ki, Bizim peyğəmbərimizin vəzifəsi yalnız (ona tapşırılanı) aydın şəkildə çatdırmaqdır (onun icrası peyğəmbərin vəzifəsi deyildir. İcra imamətin vəzifələrindəndir və həmçinin peyğəmbərin vəzifəsi cəzalandırmaq da deyil, çünki bu, Allahın istək və iradəsindən asılıdır).»***

### TƏFSİR:

Peyğəmbəri-Əkrəmin (s) hakimiyyət, idarəçilik və siyasətlə əlaqədar olan fərmanları eynilə ilahi fərmanlar kimidir: onlara itaət etmək vacibdir. Əgər Allahın fərmanlarına itaət etməkdən imtina etsəniz, ilahi cəzalara düçar olacaqsınız. Çünki Peyğəmbərin (s) vəzifəsi aşkar təbliğ etməkdən başqa bir şey deyildir.

## AYƏ 93:

[لَيْسَ عَلَى الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ جُنَاحٌ فِيمَا طَعِمُواْ إِذَا مَا اتَّقَواْ وَّآمَنُواْ
وَعَمِلُواْ الصَّالِحَاتِ ثُمَّ اتَّقَواْ وَّآمَنُواْ ثُمَّ اتَّقَواْ وَّأَحْسَنُواْ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ]

**TƏRCÜMƏ:**

***«İman gətirib yaxşı işlər görən kəslərə (haram olmamışdan qabaq şərabdan, murdardan və qumarla əldə edilən məhsuldan) daddıqlarında (həmin şeylər haram olduqdan sonra isə) təqvalı olaraq (dinin əslinə ümumi şəkildə) iman gətirib yaxşı işlər gördükləri, sonra təqvalı olub (dinin hökmlərinə müfəssəl surətdə) iman gətirdikləri və yenə də təqvalı olub yaxşı iş gördükləri (din hökmlərini kamil və gözəl surətdə yerinə yetirdikləri) təqdirdə bir günah yoxdur. Allah yaxşıları və yaxşı iş görənləri sevir.»***

**TƏFSİR:**

Bu ayə, şərabı və qumarı qadağan edən yuxarıdakı ayənin nazil olmasından qabaq şərab içənlərin, yaxud uzaq məntəqələrdə yaşadıqlarına görə hələ bu hökmdən xəbərsiz olanların vəziyyətləri barəsində sual edənlərin cavabında buyurur: İman gətirib gözəl işlər görən və bu hökmün çatmadığı şəxslər, əgər şərab içsələr, yaxud qumardan əldə etdikləri qazancdan yesələr onlara günah yoxdur.

Sonra bu hökmü belə bir şərtlə əlaqələndirir ki, onlar təqvalı olub iman gətirsinlər və saleh əməllər yerinə yetirsinlər. Bir daha bu mövzunu təkrar edərək buyurur: Sonra təqvalı olub iman gətirsinlər. Üçüncü dəfə də azacıq təfavütlə həmin məsələni təkrar edərək buyurur: Təqvalı olub yaxşı iş görsünlər. Ayənin axırında isə buyurulur: Allah yaxşı əməl sahiblərini sevir.

Qeyd olunan bu tövsiyənin hər biri məsuliyyət və təqvalılıq hissinin bir mərhələsinə işarə edir.

Böyük şiə-sünni müfəssirləri bu şərif ayənin, xüsusilə «fi ma təimu» kəlməsinin təfsirində, «təqva» sözünün üç dəfə təkrar olunması ilə əlaqədar çox dərin araşdırmalar aparmışlar ki, biz ixtisara riayət edilsin deyə, onları qeyd etmirik. Maraqlananlar sünni və şiələrin böyük və məşhur təfsir kitablarına müraciət edə bilərlər:

Şiə təfsirlərindən: Əli ibn İbrahimin təfsiri, «Əl-mizan», «Kaşif», «Məcməül-bəyan», «Tibyan», «Ətyəbül-bəyan», «Minhacus-Sadiqin», «Safi» və «Nurus-səqəleyn» təfsirləri, Əbul Fütuh Razinin, Molla Sədranın, Şübbərin, Loğmanın, Əyyaşinin, İbn Abbasın, Fərat Kufinin, İmam Həsən Əskərinin (ə) təfsiri, «Camiul-cəvami» təfsiri və s.

Sünni təfsirlərindən isə Məhəmməd ibn Cərir Təbərinin yazdığı «Təfsiri camiul-bəyan», 5-ci cild, səh.36-37, «Zadul-məsir fi elmit-təfsir» (İbn Covzi), 2-ci cild, səh. 419, İbn Kəsirin təfsiri, 2-ci cild, səh. 91. 92, Fəxr Razinin «Əl-kəbir» təfsiri, 11-12-ci cüz, səh. 883.

**AYƏ 94:**

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لَيَبْلُوَنَّكُمُ اللّهُ بِشَيْءٍ مِّنَ الصَّيْدِ تَنَالُهُ أَيْدِيكُمْ وَرِمَاحُكُمْ
لِيَعْلَمَ اللّهُ مَن يَخَافُهُ بِالْغَيْبِ فَمَنِ اعْتَدَى بَعْدَ ذَلِكَ فَلَهُ عَذَابٌ أَلِيمٌ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, Allah gizlində Ondan qorxanları aşkar etmək (əzəli elminin xaricdə gerçəkləşməsi) üçün sizi mütləq əliniz və nizəniz çatan ovdan bir şeylə (ehram halında olan zaman quru heyvanlarını ovlamağı qadağan etməklə) imtahan edəcəkdir (ki, həmin heyvanlar sizdən hürkməsinlər və sizə yaxınlaşsınlar). Beləliklə, bundan sonra kim (müəyyənləşdirilmiş) həddi aşsa, onun üçün ağrılı bir əzab olacaqdır.»***

**TƏFSİR:**

Həcc mövsümündə və ehram halında həccə gedən şəxsin şikar etməyə haqqı yoxdur. Həmin dövrlərdə ov bəzən insanın lap yaxınlığına gəlir və adam bir qədər cəld hərəkətlə onu tuta bilər. Lakin Allah-təala insanları imtahan edərək buyurur ki, şikara əl vurmayın. Əgər şikar etsəniz sizə ilahi əzab nazil olar. Şikarın

özünün dərdli əzabı yoxdur. Əksinə, əzab qanunu pozmağa görədir. Belə bir müqəddəs məkanda İbrahim İsmaildən keçdiyi üçün siz də şikardan keçin.

**AYƏ 95:**

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَقْتُلُواْ الصَّيْدَ وَأَنتُمْ حُرُمٌ وَمَن قَتَلَهُ مِنكُم مُّتَعَمِّدًا فَجَزَاء مِّثْلُ مَا قَتَلَ مِنَ النَّعَمِ يَحْكُمُ بِهِ ذَوَا عَدْلٍ مِّنكُمْ هَدْيًا بَالِغَ الْكَعْبَةِ أَوْ كَفَّارَةٌ طَعَامُ مَسَاكِينَ أَو عَدْلُ ذَلِكَ صِيَامًا لِّيَذُوقَ وَبَالَ أَمْرِهِ عَفَا اللّهُ عَمَّا سَلَف وَمَنْ عَادَ فَيَنتَقِمُ اللّهُ مِنْهُ وَاللّهُ عَزِيزٌ ذُو انْتِقَامٍ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, ehram halında olarkən ov öldürməyin. Sizdən kim bilərəkdən onu öldürsə, boynuna (əhliləşdirilmiş) dördayaqlılar cinsindən, öldürdüyünün bənzəri olan bir kəffarə düşür (məsələn, dəvəquşunun kəffarəsi dəvə, dağ keçisinin kəffarəsi inək və ceyranın kəffarəsi qoyundur). Sizdən iki nəfər adil (adam) bu bənzərliyə şəhadət versin və o, qurbanlıq kimi Kəbəyə (Kəbənin ətrafındakı qurbanlıq yerinə) çatsın. Yaxud kəffarə (o bənzər heyvanın qiyməti qədər) fəqirlərə yemək vermək və ya onun qədər oruc tutmaqdır (onun qiymətinin bərabəri qədər hər fəqirə bir mudd yəni yeddi yüz əlli qram yemək verməlidir, yaxud müdlərin sayı qədər oruc tutmalıdır) ki, öz işinin cəzasını dadsın. Allah keçənlərə göz yumdu (birinci dəfəni kəffarə ilə bağışladı). Kim yenidən qayıtsa (yenidən Hərəmdə ov etsə , daha bunun kəffarəsi yoxdur, lakin) Allah ondan intiqam alacaqdır və Allah yenilməz qüdrət və intiqam sahibidir.»***

**TƏFSİR:**

Bu ayədə tam qətiyyətlə və aşkar şəkildə, ehram halında ovun haram edilməsinin hökmü ümumi halda verilir və buyurulur: Ey iman gətirənlər! Ehram halında şikar etməyin.

Sonra ehram halında ov etməyin kəffarəsi barədə buyurulur: Bir kəs qəsdən bir ovu qətlə yetirsə, gərək həmin heyvanın misli olan bir kəffarə versin, yəni qurbanlıq edərək onun ətini fəqirlərə versin.

Burada «misl» dedikdə məqsəd heyvanın görkəm və çəkisindəki oxşarlıqdır, yəni misal üçün, əgər bir şəxs dəvəquşu kimi böyük bir vəhşi heyvanı ovlasa, onun əvəzi olaraq dəvə versin, yaxud əgər ahu şikar edibsə gərək təqribən onun əndazəsində olan qoyun qurbanlıq etsin.

Bu ovun oxşarlıq məsələsi bəzilərində şəkk-şübhə yarada biləcəyindən Quran bu barədə göstəriş verib buyurur ki, bu məsələ iki adil və agah şəxsin nəzarəti altında baş verməlidir.

Kəffarə olaraq qurban kəsilməli olan heyvanın harada kəsilməsinə gəldikdə isə göstəriş verilir ki, qurbanlıq – hədy, Kəbəyə gətirilib, oraya çatdıqdan sonra elə orada zibh edilməlidir.

Sonra əlavə olaraq buyurulur ki, kəffarənin mütləq qurbanlıq şəklində olması vacib deyil. Əksinə, digər iki şey də onu əvəz edə bilər: ya onun dəyəri miqdarında pul ilə təam alınaraq miskinlərə verilməli, ya da onun əvəzində oruc tutulmalıdır.

Bu kəffarələrin səbəbi budur ki, öz qanunsuz əməlinizin cəzasını görəsiniz.

Amma heç bir hökm, adətən, verildiyindən əvvəlki dövrlərə aid olmadığı üçün buyurulur ki, bu barədə əvvəllər əncam verdiyiniz qanunsuz işləri Allah əfv edir.

Hərgah bir şəxs bu kimi təkrar xəbərdarlıqlara və kəffarə hökmünə etina etmədən yenidən ehram halında ov edərsə, Allah belə şəxslərdən intiqam alacaq. Allah qüdrətlidir və lazım olan zaman intiqam alır.

**AYƏ 96:**

[ أُحِلَّ لَكُمْ صَيْدُ الْبَحْرِ وَطَعَامُهُ مَتَاعًا لَّكُمْ وَلِلسَّيَّارَةِ وَحُرِّمَ عَلَيْكُمْ صَيْدُ الْبَرِّ مَا دُمْتُمْ حُرُمًا وَاتَّقُواْ اللّهَ الَّذِيَ إِلَيْهِ تُحْشَرُونَ ]

**TƏRCÜMƏ:**

***«Sizin və müsafirlər üçün bəhrələnmək vasitəsi olsun deyə, sizə (ehram halında olarkən) dənizdən ov ovlamaq və ondan yemək halal edildi. Nə qədər ki, ehramdasınız sizə qurudan ov ovlamaq haramdır. Qorxun o Allahdan ki, Onun hüzuruna toplanılacaqsınız.»***

**TƏFSİR:**

Bu ayədə dəniz heyvanlarının ovlanması ilə bağlı söhbət açılaraq buyurulur: «Dəniz heyvanlarını ovlamaq və onu yemək sizin üçün ehram halında haram deyildir.»

«Təam» dedikdə məqsəd ovlanmış balıq ətindən yeməkdir. Çünki ayə iki şeyə icazə vermək istəyir: biri ovlamağın özünə, digəri isə ovlanmış balıqdan hazırlanan yeməyə. Sonra bu hökmün fəlsəfəsi bəyan edilərək buyurulur: Bunun səbəbi də odur ki, siz və səfərdə olanlar ondan bəhrələnə biləsiniz. Yəni ehram halında yemək tapmaq üçün əzab-əziyyətə, məşəqqətə düşməməyiniz və bir növ ovdan istifadə edə bilməyiniz üçün dəniz heyvanlarını ov etmək icazəsi verilir. Əvvəldəki hökmü bir daha təkidləndirmək üçün buyurulur: Nə qədər ki, ehram halındasınız, çöl heyvanlarını ovlamaq sizin üçün haramdır.

Ayənin axırında qeyd olunan bütün hökmlərə təkid etmək üçün buyurulur: Qiyamət günü hüzuruna qayıdacağınız Allah qarşısında təqvalı olun, Onun əmrləri ilə müxalifətçilik etməyin.

## EHRAM HALINDA OVUN QADAĞAN EDİLMƏSİNİN SƏBƏBİ

Bildiyimiz kimi, həcc və ümrə elə ibadətlərdəndir ki, insanı maddi aləmdən ayıraraq mənəviyyatla dolu bir mühitə aparır. Belə bir mühitdə – həcc və ümrə mərasimində maddi həyatın nemətləri, müharibə, mübahisə, çəkişmə, düşmənçilik, cinsi ehtiras, maddi ləzzətlər ümumiyyətlə tərk olunmalıdır. İnsan burada bir növ ilahi qanun əsasında riyazət çəkir. Belə nəzərə çarpır ki, ehram halında ov etmək məhz bu məqsədlə qadağan olunmuşdur.

Bundan əlavə, əgər Allah evinin ziyarətçilərinə ov etmək icazəsi verilsəydi və bu, qanuni bir iş olsaydı, bu müqəddəs məkana illik gediş-gəlişin çoxluğunu nəzərə alaraq orada yaşayan heyvanların çoxunun nəsli kəsilərdi. Xüsusilə, ehram halından başqa vaxtlarda da hərəmdə ov etməyin, ağacları və bitkiləri çıxartmağın haram olmasına diqqət yetirdikdə aydın olur ki, bu göstəriş canlı mühitin mühafizəsi, heyvanların və bitkilərin qorunub saxlanması ilə çox münasibdir.

Buna əsasən, ilahi hökmlərin fəlsəfəsi həmişə zati deyildir. Bəzən zaman və məkanın, bəzən də tarix və coğrafi şəraitin tələbinə uyğun olaraq dəyişilə bilər. Buna görə də cəmiyyətin izdihamı və ibadi-siyasi mərasimin yerinə yetirilməsi heyvanların nəslinin kəsilməsinə, yaxud ağacların kökündən qoparılmasına və sairəyə səbəb olmamalıdır.

**AYƏ 97:**

[جَعَلَ اللّهُ الْكَعْبَةَ الْبَيْتَ الْحَرَامَ قِيَامًا لِّلنَّاسِ وَالشَّهْرَ الْحَرَامَ وَالْهَدْيَ وَالْقَلاَئِدَ ذَلِكَ لِتَعْلَمُواْ أَنَّ اللّهَ يَعْلَمُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَأَنَّ اللّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ]

**TƏRCÜMƏ:**

***«Allah Kəbəni – o möhtərəm və təhlükəsiz evi, haram ayı (Həcc ayını və ya dörd haram ayı), nişanəsiz qurbanlığı və nişanəli qurbanları insanların (din və dünyasının) dayaq və bərqərarlıq vasitəsi etdi. Bu***

***(böyük və hikmətli qanunvericilik) ona görədir ki, siz biləsiniz (ki): Şübhəsiz, Allah göylərdə olanı və yerdə olanı bilir və Allah hər bir şeyi biləndir.»***

**TƏFSİR:**

«Qiyam» xeymənin sütunu kimi möhkəmlik vasitəsidir.[1]

İmam Sadiq (ə) buyurur: «**Beytül-həram ona görə belə adlandırılıb ki, kafirlərin oraya daxil olması haramdır.**»[2]

İşlərin qaydaya salınması və onlara qivam verilməsi bir neçə şeyi tələb edir: 1. Mərkəziyyət. 2. Əminamanlıq. 3. Yemək. Allah bu üç vasitənin hər birini Kəbədə və Beytül-həramda qərar vermişdir. Çünki ora həm mərkəzdir, heç kəsin orada münaqişə etməyə haqqı yoxdur, həm də qurbanlıqlar müsəlmanların işlərinin sahmana salınması və onların yeməklə təmin olunması səbəbidir.

«Hədy» nişansız qurbanlıq, «qəlaid» isə nişanlanmış qurbanlıqdır.

Haram aylar aşağıdakılardan ibarətdir: Rəcəb, Zil-qədə, Məhərrəm. Bu aylarda müharibə qadağandır.

Belə bir müqəddəs məkanda milyonlarla insanın bir yerə yığılması, həm əməldə, həm də danışıqda heç bir münaqişə və mübahisəyə yol verilməməsi İslamın imtiyazlarından biridir. Əgər həccin bərəkətlərinə, o cümlədən, Həccə gedərkən başqalarından halallıq istəmək, qohum-əqrəba ilə görüşmək, Həcdə ticarətin rövnəqlənməsi, xüms-zəkatın verilməsi, ümmətlərin İslam maarifi ilə tanışlığı, ən qədim tövhid mərkəzində qərar tutmaq, hər növ təm-təraq və təşrifatı ləğv etmək, hamının eyni ahənglə Allah dərgahına üz gətirib ah-nalə etməsi, peyğəmbərlərin ayaq izlərinə ayaq qoymaq, «Ərəfat» səhrasında tövbə edib Qiyamətin səhnələrini xatırlamaq, kafirlərdən bezarlıq və onlara qarşı nifrət

---

[1] «Müfrədat», Rağib.

[2] «Nurus-səqəleyn» təfsiri.

mərasimi kimi siyasi hərəkatın təşkil edilməsi və s. nəzərə aldıqda anlamaq olar ki, həccin bu tədbirləri Allahın sonsuz elmindən qaynaqlanır. Belə ki, O bütün varlıqların hamısından agahdır və məhdud elm belə bir maraqlı tədbirlərə dair göstəriş verməyə qadir deyil.

**AYƏ 98-99:**

[ اعْلَمُواْ أَنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ وَأَنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ. مَّا عَلَى الرَّسُولِ إِلاَّ الْبَلاَغُ وَاللّهُ يَعْلَمُ مَا تُبْدُونَ وَمَا تَكْتُمُونَ ]

**TƏRCÜMƏ:**

***98. «Bilin ki, Allah (həm) ağır cəzalandırandır və (həm də) Allah çox bağışlayan və mehribandır.»***

***99. «Bizim peyğəmbərimizin vəzifəsi yalnız (dinin hökmlərini) çatdırmaqdır (və həmin hökmlərin cəmiyyətdə əməli surətdə icrası imamətin vəzifələrindən, savab və cəza vermək isə rübubiyyətə aid işlərdəndir). Allah aşkar etdiklərinizi də, gizlətdiklərinizi də bilir.»***

**TƏFSİR:**

***TƏŞVİQLƏ TƏHDİD HƏMİŞƏ YANAŞI OLMALIDIR.***

Siz öz işlərinizə cavabdehlik daşıyırsınız və Peyğəmbər (s) sizi heç bir şeyə məcbur etməməlidir. Onun vəzifəsi yalnız dinin hökmlərini çatdırmaqdır.

Allahın elmi hər şeyi tam əhatə etdiyindən sizin həm aşkar etdiyiniz, həm də gizlətdiyiniz şeylər Onun nəzərində eyni səviyyədədir. Sizin bu hökmləri gülərüzlüklə qəbul, yaxud ona etiraz etməyiniz Peyğəmbərdə (s) heç bir nöqsan icad etmir.

**AYƏ 100:**

[ قُل لاَّ يَسْتَوِي الْخَبِيثُ وَالطَّيِّبُ وَلَوْ أَعْجَبَكَ كَثْرَةُ الْخَبِيثِ فَاتَّقُواْ اللّهَ يَا أُوْلِي الأَلْبَابِ لَعَلَّكُمْ تُفْلِحُونَ ]

**TƏRCÜMƏ:**

***«De: "Murdarların çoxluğu səni təəccübləndirsə də, murdarla pak (istər insanın ruhiyyəsində olsun, istərsə də onun əqidə, əxlaq və əməlində) əsla bir deyildir." Odur ki, ey ağıl sahibləri, Allahdan qorxun, bəlkə nicat tapdınız.»***

**TƏFSİR:**

«Təyyib» (pak-pakizə) və «xəbis» (çirkin, yaramaz) həm insanlara, həm rəftarlara, həm mal-dövlətə, həm qazanclara, həm yeməyə, həm də əşyalara aid edilir. Burada meyar çoxluq və azlıq deyil, haqq və batildir. Buna əsasən ehtiyatlı olun ki, çoxluq sizi aldadaraq günaha tərəf çəkməsin. Əql sahibləri haqqın mehvərinə dolanır, çoxluğun mehvərinə yox. «**Palaza bürün, el ilə sürün**» məntiqi Quranın məntiqi deyildir.

Təqvasızlıq ağılsızlığın nişanəsidir.

**AYƏ 101-102:**

[يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَسْأَلُواْ عَنْ أَشْيَاء إِن تُبْدَ لَكُمْ تَسُؤْكُمْ وَإِن تَسْأَلُواْ عَنْهَا حِينَ يُنَزَّلُ الْقُرْآنُ تُبْدَ لَكُمْ عَفَا اللّهُ عَنْهَا وَاللّهُ غَفُورٌ حَلِيم. قَدْ سَأَلَهَا قَوْمٌ مِّن قَبْلِكُمْ ثُمَّ أَصْبَحُواْ بِهَا كَافِرِينَ]

**TƏRCÜMƏ:**

***101. «Ey iman gətirənlər, (ömrün müddəti, dostların ölümü, var-dövlətin əldən çıxması və yaradılış aləminin hikmətinə və kamil quruluşuna uyğun olaraq gizli qalan məsələlər kimi) sizə aşkar olacağı təqdirdə sizi narahat və qəmgin edəcək şeylər barəsində (Peyğəmbərdən) soruşmayın. Əgər Quran nazil (və vəhy mələyi hazır) olan zaman onların barəsində soruşsanız, sizin üçün aşkar olar. Allah onlardan (keçmişdə verilmiş yersiz suallardan) keçdi (onları əfv etdi). Allah çox bağışlayan və həlimdir.»***

***102. «Əlbəttə, sizdən qabaq bir dəstə bu şeyləri soruşdu, sonra isə ona kafir oldu.»***

## AYƏNİN NAZİLOLMA SƏBƏBİ

Bu və bundan sonrakı ayənin nazil olması barəsində Əli ibn Əbu Talibin (ə) belə buyurduğu nəql olunur: "Bir gün Peyğəmbər (s) xütbə oxudu və həcc barəsində Allahın göstərişini bəyan etdi. Ükaşə (başqa rəvayətə görə Süraqə) adlı bir şəxs dedi:

–Bu göstəriş hər il üçündürmü və həcc əməli hər il yerinə yetrilməlidirmi?

Peyğəmbər (s) onun sualına cavab vermədi. Lakin o tərslik edərək sualını yenidən iki-üç dəfə təkrar etdi. Peyğəmbər (s) buyurdu:

**–«Vay olsun sənə! Nə üçün bu qədər israr edirsən? Əgər sənin cavabında «bəli» desəm, həcc bütün illərdə sizin hamınıza vacib olacaqdır. Əgər hər il vacib olsa, onu yerinə yetirməyə qadir olmayacaqsınız, müxalifət də etsəniz, günahkar olacaqsınız. Buna görə də nə qədər ki, sizə bir söz deməmişəm onun üzərində israr etməyin.»**

Bu ayə də nazil olaraq onları bu işdən çəkindirdi.

**TƏFSİR:**

***YERSİZ SUALLAR***

Şübhəsiz, sual edib soruşmaq həqiqətlərin dərk olunmasının açarıdır. Quran ayələrində və İslam rəvayətlərində müsəlmanlara təkidlə göstərişlər verilir ki, bilmədikləri şeyləri soruşub öyrənsinlər. Amma hər bir qanunun müəyyən istisna halları olduğundan bu təlim-tərbiyə metodunda da istisna halları vardır. O da bundan ibarətdir ki, bəzi hallarda müəyyən məsələlərin aşkar edilməməsi cəmiyyətdə ictimai müvazinətin qorunub-saxlanması və ayrı-ayrı fərdlərin məsləhətinin təmin olunması üçün daha yaxşıdır. Bu cür hallarda həqiqətin aşkar olması üçün müntəzəm şəkildə axtarış aparmaq və cidd-cəhdlə soruşmaq fəzilət deyil, üstəlik xoşagəlməz və məzəmmət olunan bir işdir.

Quran yuxarıdakı ayədə bu məsələni qeyd edərək aşkar şəkildə buyurur: Ey iman gətirənlər, o işlər ki, onların aşkar edilməsi sizin narahat olmağınıza və çətinliyə düşməyinizə səbəb olacaqdır, onlar barəsində sual etməyin. Lakin ayrı-ayrı şəxslərin tərəfindən ardıcıl suallar verilməsi və bunların cavabsız qalması başqaları üçün şəkk-şübhə yaradaraq daha artıq fəsad gətirəcəyindən bu kimi hallarda çox israr etsəniz, Quran vasitəsilə sizə açıqlanacaq və nəticədə əziyyətə düşəcəksiniz.

Sonra əlavə edilir: Allah-təala bəzi məsələləri bəyan etmirsə, əsla Onun qafil qaldığını təsəvvür etməyin. Əksinə, Allah istəmişdir ki, sizi genişlikdə, asudəlikdə qərar versin və bağışlasın. Allah bağışlayan və helm sahibidir.

Həzrət Əlidən (ə) nəql olunan bir hədisdə buyurulur: «**Allah sizin üçün müəyyən vaciblər qərar vermişdir. Onları zay etməyin, müəyyən hədd-hüdud və sərhəd də qoymuşdur. Onları keçməyin. Sizi müəyyən işlərdən çəkindirmişdir ki, onların qarşısında (israr edərək) pərdələri yırtmayın. Müəyyən işlər barəsində sükut etmiş, məsləhəti onun örtülü qalmasında görmüşdür və bunun örtülü**

**qalması unutqanlıq üzərindən deyildir. Bu kimi işlərin aşkar olunmasına israr etməyin.**»

102-ci ayədə mətləbin təkid olunması üçün buyurulur: Əvvəlki qövmlərin bəzilərində bu kimi suallar olunmuş və bunun cavabının ardınca onlar müxalifətçilik edərək itaətsizliyə başlamışdılar.

Bəhsin sonunda bunu qeyd etməyi lazım bilirik ki, yuxarıdakı ayələr məntiqli araşdırmaların, insanı məlumatlandıran sualların yolunu əsla bağlamır. Əksinə, bu hökm yalnız müəyyən işlərlə əlaqədar verilən yersiz suallara aiddir ki, onların örtülü qalması daha yaxşı və bəzən vacib olur.

**AYƏ 103:**

[ مَا جَعَلَ اللّهُ مِن بَحِيرَةٍ وَلاَ سَآئِبَةٍ وَلاَ وَصِيلَةٍ وَلاَ حَامٍ وَلَـكِنَّ الَّذِينَ كَفَرُواْ يَفْتَرُونَ عَلَى اللّهِ الْكَذِبَ وَأَكْثَرُهُمْ لاَ يَعْقِلُونَ ]

**TƏRCÜMƏ:**

***«Allah heç bir heyvanı(n istifadəsini) "bəhirə", "saibə", "vəsilə"və "ham" (adı ilə haram və qadağan) etməmişdir. (Bəhirə beş dəfə doğmuş dəvə, saibə xəstə üçün nəzr deyildiyinə görə azad olunmuş dəvə, vəsilə balası onların və bütlərin arasında müştərək olan qoyun və ham on dəfə doğmuş dəvədir ki, cahiliyyət dövründə bunlardan istifadəni haram sayırdılar.) Lakin kafirlər Allaha qarşı yalan uydururlar və onların çoxu düşünmürlər.»***

**TƏFSİR:**

Bu ayədə cahil ərəblərin arasında adət halını almış yersiz bidətlərdən dördü qeyd olunur. Onlar müəyyən səbəblər üzündən heyvanların bir qisminə əlamət qoyub ətlərinin yeyilməsini qadağan edirdilər. Hətta onların südünü içməyi, yununu qırxmağı,

ona minməyi belə caiz hesab etmir və əməli olaraq heyvanı istifadəsiz buraxırdılar.

Quran buyurur: Allah bu hökmlərdən heç birini rəsmi olaraq qəbul etmir; o, nə “bəhirə” qərar vermişdir, nə “saibə”, nə “vəsilə”, nə də “ham”. Bu dörd heyvanın izahında aşağıdakılar qeyd olunur:

1. “Bəhirə” o heyvanlara deyilirdi ki, beş bala doğmuş olsun və onun beşinci balası dişi (başqa rəvayətə görə erkək) olsun. Belə bir heyvanın ətini özlərinə haram edərək azad buraxır, heç vaxt onu kəsmirdilər.

2. “Saibə” on iki (başqa rəvayətə görə on üç) bala doğmuş dəvədir ki, onu azad edirdilər. Heç kəs ona minmirdi. Amma bəzən onun südünü sağaraq qonaqlara verirdilər.

3. “Vəsilə”  yeddi bala doğan, başqa bir rəvayətə görə əkiz doğan qoyunlara deyilir. Belə qoyunu kəsməyi də haram hesab edirdilər.

4. “Ham” dişi heyvanların mayalandırılmasında on dəfə istifadə olunan və hər dəfə də onun nütfəsindən heyvan doğulan erkək heyvana deyirdilər. Bir sözlə, məqsəd həqiqətdə öz sahiblərinə çoxlu xidmətlər edərək təkrar xeyirlər verən və heyvanların nəslini artıran erkək heyvanlardır. Onlar da bunun müqabilində bu heyvanlara ehtiram qoyub onlara tam azadlıq verirdilər.

Sonra buyurulur: Kafirlər və bütpərəstlər özlərinin bu kimi işlərini Allaha nisbət verərək deyirdilər ki, bu ilahi bir qanundur. Onların əksəriyyəti bu barədə əql qüvvəsini azacıq belə işə salmır və fikirləşmirdilər ki, başqalarına kor-koranə təqlid etməsinlər.

**AYƏ 104:**

[ وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ إِلَى مَا أَنزَلَ اللّهُ وَإِلَى الرَّسُولِ قَالُواْ حَسْبُنَا مَا وَجَدْنَا عَلَيْهِ آبَاءنَا أَوَلَوْ كَانَ آبَاؤُهُمْ لاَ يَعْلَمُونَ شَيْئًا وَلاَ يَهْتَدُونَ ]

**TƏRCÜMƏ:**

***«Onlara "Allahın nazil etdiyinə və Peyğəmbərə tərəf gəlin" deyiləndə, "atalarımızın getdiyi yol (onların əqidə və əməlləri) bizə bəsdir!"deyərlər. Görəsən ataları hətta bir şey bilməmiş və (düz yola) hidayət olunmamış olsalar belə (bunlar yenə də kor-korana surətdə onları təqlid edəcəklər)?»***

**TƏFSİR:**

Əsl və ilkin qayda ata-babaların yanlış adət-ənənələri yox, İslam mədəniyyətidir. Buna əsasən sırf yenilikçilik və sırf köhnə adət-ənənələrə tabe olmaq məzəmmət olunur. Əsas məsələ elm və hidayətdir. Keçmiş nəsillərə ehtiram göstərib ədəb qaydalarına riayət etmək müsbət bir işdir. Lakin onların cəhalət və nadanlıqla dolu fikirlərinə kor-korana təqlid etmək ağılsızlıq əlamətidir.

**AYƏ 105:**

[ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ عَلَيْكُمْ أَنفُسَكُمْ لاَ يَضُرُّكُم مَّن ضَلَّ إِذَا اهْتَدَيْتُمْ إِلَى اللّهِ مَرْجِعُكُمْ جَمِيعًا فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ ]

**TƏRCÜMƏ:**

***«Ey iman gətirənlər, özünüzü gözləyin! Əgər siz özünüz doğru yolda olsanız, yolunu azmış kəs(in zəlaləti) sizə heç bir zərər yetirə bilməz (hərçənd ki, onu da doğru yola dəvət etməlisiniz). Hamınızın qayıdışı Allaha tərəfdir. Beləliklə O, sizi etdiklərinizdən xəbərdar edəcəkdir.»***

**TƏFSİR:**

***HƏR KƏS ÖZ ƏMƏLİNİN MƏSULİYYƏTİNİ DAŞIYIR.***

Bundan əvvəlki ayədə cahiliyyət dövrünün insanlarının öz azğın ata-babalarına kor-korana təqlid etməsi məsələsi irəli çəkilmişdi.

Quran onlara aşkar şəkildə xəbərdarlıq edərək buyurur ki, belə təqlidçilik əql və məntiqlə uyğun deyil. Bu mövzunun ardınca təbii olaraq belə bir sual yarana bilər ki, əgər biz öz hesabımızı bu kimi ata-babalarımızdan ayırsaq, onda görəsən onların taleyi necə olacaqdır? Bundan əlavə, əgər biz belə təqlidçilikdən əl çəksək, bu cür təqlid əsasında olan camaatın əksəriyyətinin taleyi necə olacaqdır? Yuxarıdakı ayə bu kimi sualların cavabında buyurur: «Ey iman gətirənlər! Siz öz əməllərinizin məsuliyyətini daşıyırsınız. Əgər hidayət olunsanız, başqalarının yolunu azması (istər ata-babalarınız, istər dostlarınız, istərsə də sizinlə eyni vaxtda yaşayan qohumlarınız) sizə azacıq belə ziyan çatdırmaz.»

Sonra Qiyamətə, hesab-kitaba, əməllərin araşdırılmasına işarə edərək buyurur: «Sizin hamınızın qayıdış yeri Allaha tərəfdir. Sizin hər birinizin əməllərinin hesabına ayrılıqda baxılacaqdır. Allah sizi gördüyünüz işlərdən agah edəcəkdir.»

## AYƏ 106:

[يِا أَيُّهَا الَّذِينَ آمَنُواْ شَهَادَةُ بَيْنِكُمْ إِذَا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ حِينَ الْوَصِيَّةِ اثْنَانِ ذَوَا عَدْلٍ مِّنكُمْ أَوْ
آخَرَانِ مِنْ غَيْرِكُمْ إِنْ أَنتُمْ ضَرَبْتُمْ فِي الأَرْضِ فَأَصَابَتْكُم مُّصِيبَةُ الْمَوْتِ تَحْبِسُونَهُمَا مِن بَعْدِ الصَّلاَةِ
فَيُقْسِمَانِ بِاللّهِ إِنِ ارْتَبْتُمْ لاَ نَشْتَرِي بِهِ ثَمَنًا وَلَوْ كَانَ ذَا قُرْبَى وَلاَ نَكْتُمُ شَهَادَةَ اللّهِ إِنَّا إِذًا لَّمِنَ الآثِمِينَ]

## TƏRCÜMƏ:

***«Ey iman gətirənlər, sizdən birinin ölümü çatan zaman, vəsiyyət vaxtı aranızdakı şahid, sizin özünüzdən (möminlərdən) iki adil kişi olsun. Yaxud əgər ölüm müsibəti sizə səfərdə olduğunuz zaman yetişsə (və möminlərdən şahid tapmasanız), özünüzdən olmayan iki nəfər (şahid) olsun. Əgər (şəhadət verdikləri zaman onların düz danışmalarına) şəkk etsəniz, hər ikisini namazdan sonra saxlayırsınız və onlar da Allaha and içirlər ki: biz (şahidlik etdiyimiz məsələ) qohumlarımız(la əlaqədar) olsa belə öz şəhadətimiz vasitəsilə azacıq***

***(da olsa) bir qazanc əldə etmir və ilahi şəhadəti gizlətmirik, yoxsa mütləq günahkarlardan olarıq.»***

## AYƏNİN NAZİLOLMA SƏBƏBİ

Bu və bundan sonra gələn iki ayənin şəni-nüzulu barəsində qeyd olunur ki, müsəlmanlardan İbn Əbi Mariyə adlı bir nəfər ərəb məsihilərindən iki nəfərlə – Nəmin və Ədi ilə (onlar iki qardaş idilər) birlikdə ticarət məqsədi ilə Mədinədən çıxdılar. Yol əsnasında müsəlman İbn Əbu Mariyə xəstələndi. Vəsiyyətnamə yazıb onu öz səfər vəsaitləri arasında gizlətdi. Mal-dövlətini məsihi səfər yoldaşlarına tapşırdı. Onlara dedi ki, bunları onun evinə çatdırsınlar. O bu sözləri dedikdən sonra dünyadan getdi. Səfər yoldaşları onun yüklərini açıb qiymətli əşyaları götürdülər, yerdə qalanlarını isə vərəsələrə qaytardılar.

Vərəsələr vəsaitləri açdıqda gördülər ki, İbn Əbu Mariyənin özü ilə apardığı mal-dövlətin bir qismi yoxdur. Gözləri vəsiyyətnaməyə sataşdıqda gördülər ki, oğurlanmış mal-dövlətin hamısının adı orada qeyd olunub. Bu mətləbi o iki məsihiyə dedilər. Amma onlar inkar edərək «o bizə nə vermişdisə, hamısını sizə təhvil verdik» deyə cavab verdilər. Çarəsiz qalıb Peyğəmbərə (s) şikayət etdilər. Yuxarıdakı ayə nazil olaraq bu məsələnin hökmünü bəyan etdi.

### TƏFSİR:

İslam dininin təkid etdiyi ən mühüm məsələlərdən biri camaatın hüquq və mal-dövlətinin qorunması, itctimai ədalətin bərqərar edilməsidir. Əvvəlcə mərhumun mal-dövlətindən vərəsənin, yetimlərin və digər şəxslərin haqqı aradan getməsin deyə, möminlərə belə göstəriş verir: «Ey iman gətirənlər! Sizlərdən hər hansı birinin əcəli çatdıqda vəsiyyət edərkən iki adil müsəlman şəxsi şahid tutmalı, öz mal-dövlətini əmanət adı altında vərəsəyə çatdırsınlar deyə, onlara təhvil verməlidir.»

Əlbəttə, buradakı şəhadət vəsiyyətlə yanaşıdır, yəni bu iki nəfər həm vəsi, həm də şahiddirlər. Sonra əlavə olaraq buyurulur: «Əgər səfərdə olsanız və ölüm müsibəti gəlib çatsa, müsəlmanlardan hətta bir nəfər belə şahid tapılmasa, onda bu məqsədlə qeyri-müsəlmanlardan iki nəfəri şahid seçin.» Qeyri-müsəlman dedikdə məqsəd kitab əhli, yəni yəhudi və məsihidir. Çünki İslam dini müşriklərə və bütpərəstlərə heç bir halda əhəmiyyət verməmişdir.

Sonra göstəriş verilir ki, əgər şəhadət verən zaman onların danışığında şəkk etsəniz, onları namazdan sonra saxlayıb Allaha and içdirin. Onlar and içərək şəhadət versinlər ki, haqqı başqa bir şeyə (maddi mənfəətə) dəyişməyə razı deyillər və öz qohum-əqrəbaları barədə olsa belə, nahaq yerə şahidlik etməyəcəklər. İlahi şəhadəti heç vaxt gizlətməzlər. Əks halda günahkarlardan olarlar.

**AYƏ 107:**

[فَإِنْ عُثِرَ عَلَى أَنَّهُمَا اسْتَحَقَّا إِثْمًا فَآخَرَانِ يَقُومَانُ مَقَامَهُمَا مِنَ الَّذِينَ اسْتَحَقَّ عَلَيْهِمُ الأَوْلَيَانِ فَيُقْسِمَانِ بِاللهِ لَشَهَادَتُنَا أَحَقُّ مِن شَهَادَتِهِمَا وَمَا اعْتَدَيْنَا إِنَّا إِذًا لَّمِنَ الظَّالِمِينَ]

**TƏRCÜMƏ:**

***«Beləliklə, əgər (yalan danışmaqla) o ikisinin (həmin iki şahidin) günaha batmaları məlum olsa, zülm və xəyanətə məruz qalan kəslərdən və ölənə yaxın olanlardan (yəni iddiaçı olmalarına baxmayaraq ölənin varislərindən olan) digər iki şahid onların yerinə keçir və Allaha and içirlər ki: bizim şahidliyimiz o ikisinin şahidliyindən daha düzgündür və biz (haqq barəsində) həddi aşmamışıq, əks halda zalımlardan olarıq.»***

**TƏFSİR:**

Aydındır ki, mərhumun qəyyumlarının and içib şahidlik etmələri əvvəlcədən onun mal-dövləti barədə (səfər və qeyri-səfər hal-

larında) əldə etdikləri məlumatlar əsasında olmalıdır. Buna əsasən, sizin bu barədə axtarış aparmağa haqqınız yoxdur. Lakin məlumat əldə edilsə, vəzifə dəyişiləcəkdir. (Rağibin «Müfrədat»da dediyinə əsasən, axtarış aparmadan olan agahlığa «usr» deyilir.)

### AYƏ 108:

[ ذَلِكَ أَدْنَى أَن يَأْتُواْ بِالشَّهَادَةِ عَلَى وَجْهِهَا أَوْ يَخَافُواْ أَن تُرَدَّ أَيْمَانٌ بَعْدَ أَيْمَانِهِمْ
وَاتَّقُوا اللّهَ وَاسْمَعُواْ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ ]

**TƏRCÜMƏ:**

***«Bu (üsul, yəni şəkk yaranan kimi şahidlərə and içdirilməsi və onun yalançı olması fərz olunduqda iddiaçının and içməsi) onların şəhadəti düzgün yerinə yetirmələrinə və ya onların andlarından sonra başqa andların (iddiaçılara) qaytarılmasından (və nəticədə rüsvay olmaqdan) qorxmalarına daha yaxındır. Allahdan qorxun və (Onun əmrlərini) eşidin. Allah itaətsiz camaatı hidayət etmir.»***

**TƏFSİR:**

Bu ayədə şəhadət vermək və şahid tutmaq məsələlərində həddindən artıq ciddi və tələbkar olmağın fəlsəfəsi bəyan edilir ki, bu da əvvəlki iki ayədə irəli çəkilmişdir. Namazdan sonra camaatın hüzurunda and içmək şəhadətlərin yalan deyil, həqiqi olmasına səbəb olur. Çünki, onların şəhadətləri qəbul olunmadığı təqdirdə şəhadət və andlarının etibarsız olduğuna görə cəmiyyətdəki abır-heysiyyətlərinin aradan getməsi mümkündür.

## AYƏ 109:

[ يَوْمَ يَجْمَعُ اللهُ الرُّسُلَ فَيَقُولُ مَاذَا أُجِبْتُمْ قَالُواْ لاَ عِلْمَ لَنَا إِنَّكَ أَنتَ عَلاَّمُ الْغُيُوبِ ]

**TƏRCÜMƏ:**

***«(Yada sal) o gün(ü) ki, Allah bütün peyğəmbərləri bir yerə toplayaraq deyəcək: "(Dəvətiniz müqabilində) sizə nə cavab verildi?" Deyəcəklər: "Bizim heç bir elmimiz yoxdur (Sənin elmin müqabilində bizim elmimiz heçdir; yaxud onların işlərinin batinini bilmirik və ya bizdən sonra etdiklərindən xəbərimiz yoxdur). Həqiqətən gizlinləri kamil surətdə bilən Sənsən."»***

**TƏFSİR:**

Bu ayə həqiqətdə əvvəlki ayələri bir növ təkmilləşdirir. Çünki keçən ayələrdə haqq və batil şəhadətlərlə əlaqədar təqvalı olub Allahın fərmanları ilə müxalifətçilik etməkdən çəkindirilirdi. Bu ayədə isə buyurulur: Elə bir gündən qorxun ki, o gündə Allah bütün peyğəmbərləri bir yerə yığaraq onlardan ilahi məmuriyyət və vəzifələri barəsində soruşar və buyurar ki, «camaat sizin dəvətiniz qarşısında necə cavab verdi?» Onlar bir şey bildiklərini inkar edərək bütün həqiqətləri Allahın elminə həvalə edərək deyərlər: «Pərvərdigara, bizim heç bir elmimiz yoxdur, Sən bütün qeyblərdən və gizli şeylərdən xəbərdarsan.» Beləliklə, bizə xatırladılır ki, bütün qeyb elmlərini bilən Allah qarşısında duracaq və belə bir məhkəmədə hazır ediləcəksiniz, buna görə də şəhadət verərkən haqq-ədalətə hökmən riayət edin.

Ayənin axırında bir daha xatırladılır ki, həqiqi elm yalnız Allaha məxsusdur. Hər kəsin elmi varsa, mənşəyi yalnız Odur. Eləcə də bütün qeyb elmini yalnız O bilir və qeyb elmini istədiyi şəxslərə verir.

## AYƏ 110:

[إِذْ قَالَ اللهُ يَا عِيسى ابْنَ مَرْيَمَ اذْكُرْ نِعْمَتِي عَلَيْكَ وَعَلَى وَالِدَتِكَ إِذْ أَيَّدتُّكَ بِرُوحِ الْقُدُسِ تُكَلِّمُ النَّاسَ فِي الْمَهْدِ وَكَهْلاً وَإِذْ عَلَّمْتُكَ الْكِتَابَ وَالْحِكْمَةَ وَالتَّوْرَاةَ وَالإِنجِيلَ وَإِذْ تَخْلُقُ مِنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ بِإِذْنِي فَتَنفُخُ فِيهَا فَتَكُونُ طَيْرًا بِإِذْنِي وَتُبْرِىءُ الأَكْمَهَ وَالأَبْرَصَ بِإِذْنِي وَإِذْ تُخْرِجُ الْمَوتَى بِإِذْنِي وَإِذْ كَفَفْتُ بَنِي إِسْرَائِيلَ عَنكَ إِذْ جِئْتَهُمْ بِالْبَيِّنَاتِ فَقَالَ الَّذِينَ كَفَرُواْ مِنْهُمْ إِنْ هَـذَا إِلاَّ سِحْرٌ مُّبِينٌ]

**TƏRCÜMƏ:**

***«(Yada sal) o zaman(ı) ki, Allah dedi: Ey Məryəm oğlu İsa, Mənim sənə və anana olan nemətimi xatırla, o zaman ki, səni Ruhul-Qudusla qüvvətləndirdim və sən camaatla beşikdə ikən (möcüzə yolu ilə) və orta yaşlarında (vəhy yolu ilə) danışırdın; o zaman ki, sənə kitab (öz kitabını və səmavi kitabları), şəriət hökmlərini, əqli elmləri, Tövratı və İncili öyrətdim; o zaman ki, Mənim (yaradılış) iznimlə gildən quş şəklinə bənzər (bir şey) düzəldir, sonra ona üfürürdün və o, Mənim iznim və iradəmlə quş olurdu; Mənim iznimlə anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verirdin; o zaman ki, Mənim iznimlə ölüləri (qəbirdən diri) çıxarırdın; o zaman ki, İsrail övladları üçün (peyğəmbərliyə dair) aydın dəlillər gətirdiyin vaxt, onların (şərrinin sənə dəyməsinin) qarşısını aldım, beləliklə, onlardan kafir olanlar dedilər: Bu (möcüzələr), aşkar cadudan başqa bir şey deyildir!»***

**TƏFSİR:**

Bu ayədən başlayaraq surənin axırıncı ayələrinə qədər söhbət Həzrət İsadan (ə) gedir.

Bu ayədə müxtəlif ilahi nemətlər, onların da hamısından öncə Həzrət Məsihin (ə) Ruhul-qüdslə qüvvətləndirilməsi xatırladılır. Bəlkə də «həzrət İsanın (ə) anasına əta olunan nemət» deyildikdə,

məqsəd Həzrət İsaya (ə) verilən müjdə və mələklərin Məryəmlə danışmasıdır.[1] Buna əsasən, peyğəmbərlər də Allahın nemətlərini unutmamalıdırlar. Allahın Öz övliyalarına mərhəməti haqq yolçuları üçün bir növ təskinlikdir.

Bunu da qeyd edək ki, bu ayədə aşağıda bəyan olunan bəzi mühüm incəliklər gizlənmişdir:

1. Qadın elə bir yüksək mənəvi məqama çata bilər ki, peyğəmbərlərlə yanaşı qeyd olunsun.

2. Həzrət İsa (ə) beşikdə ikən danışmaqla həm özünün nübüvvətini, həm də anasının ismət məqamını və iffətini sübut etdi.

3. Peyğəmbərlər həm elm, həm də görüş sahibi olmalı, keçmişdəkilərin sözlərini bilməli, həm də yeni (müasir) kəlamlara malik olmalıdır.

4. Məsihi nəfəsi cansız təbiətə ruh verir, bununla belə, Bəni-İsrailin daşlaşmış qəlblərini dirildə bilmir.

5. Allah-təala peyğəmbərlərə ölüləri diriltmək və şəfa vermək kimi xariqüladə qüvvə verirsə, deməli camaatın onlara təvəssül edərək kömək diləmələri də caizdir. (Təvəssülü inkar edənlərə deyirik: Ola bilərmi ki, Allah bir şəxsə müəyyən qüdrət versin, amma camaatın ona diqqət yetirməsini qadağan etsin?)

6. Bəni-İsrailin həzrət İsaya (ə) olan sui-qəsdləri Allah tərəfindən dəf edilir.

## AYƏ 111:

[ وَإِذْ أَوْحَيْتُ إِلَى الْحَوَارِيِّينَ أَنْ آمِنُواْ بِي وَبِرَسُولِي قَالُوَاْ آمَنَّا وَاشْهَدْ بِأَنَّنَا مُسْلِمُونَ ]

[1] «Ali-İmran» surəsi, ayə 45 və 57

**TƏRCÜMƏ:**

***«Həvarilərə (İsanın vəzirlərinə və xas səhabələrinə) "Mənə və Mənim peyğəmbərimə iman gətirin" deyə vəhy göndərən zaman onlar "iman gətirdik, şahid ol ki, biz Sənin əmrinə təslim olanlarıq" dedilər.»***

**TƏFSİR:**

Həvarilərə vəhy olunması dedikdə məqsəd ya onların qəlblərinə ilham olunmasıdır, ya da Həzrət İsanın (ə) vasitəsilə verilən vəhy xəbəridir. Buna görə də Allah-təala bəzən ruhi hazırlığı olan qəlblərə müəyyən şeyləri ilham edir. İnsanlara edilən ilahi ilhamlar peyğəmbərlərin ilhamlarının qüvvətləndirilməsi istiqamətindədir, nəinki onlarla eyni səviyyədədir. Buna əsasən, Allaha iman gətirmək onun peyğəmbərinə iman gətirməyin ayrılmaz hissəsidir.

**AYƏ 112-113:**

[ إِذْ قَالَ الْحَوَارِيُّونَ يَا عِيسَى ابْنَ مَرْيَمَ هَلْ يَسْتَطِيعُ رَبُّكَ أَن يُنَزِّلَ عَلَيْنَا مَآئِدَةً مِّنَ السَّمَاءِ قَالَ اتَّقُواْ اللّهَ إِن كُنتُم مُّؤْمِنِينَ. قَالُواْ نُرِيدُ أَن نَّأْكُلَ مِنْهَا وَتَطْمَئِنَّ قُلُوبُنَا وَنَعْلَمَ أَن قَدْ صَدَقْتَنَا وَنَكُونَ عَلَيْهَا مِنَ الشَّاهِدِينَ ]

**TƏRCÜMƏ:**

***112. «(Və yada sal) o zaman(ı) ki, həvarilər dedilər: "Ey Məryəm oğlu İsa, sənin Rəbbin bizə göydən «maidə» (tabaq, yaxud yeməklə dolu bir süfrə) göndərə bilərmi (zamanın məsləhəti bunu tələb edirmi)?" Dedi: "Əgər möminsinizsə, Allahdan qorxun." (Olmaya mənim peyğəmbərliyimdə şəkkiniz var və bu səbəbdən möcüzə istəyirsiniz?!)»***

***113. «Dedilər: "İstəyirik ki, ondan yeyək və qəlblərimiz rahatlıq və sakitlik tapsın və (gözlə görüb yəqinlik əldə edərək) bilək ki, sən bizə doğru demisən və biz də buna şahidlərdən olaq."»***

**TƏFSİR:**

112. Bu şərif ayə asimani süfrə nazil olması kimi məşhur hadisəyə işarədir. Burada buyurulur ki, Həzrəti İsanın (ə) xüsusi dostları ona dedilər: “Sənin Pərvərdigarın bizim üçün asimandan yemək göndərə bilərmi?”

Həzrət İsa (ə) bu qədər ayə və nişanələrin qeyd olunmasından sonra bir növ şəkk-şübhə sezilən bu istəkdən nigaran oldu və onlara xəbərdarlıq edərək buyurdu: “Əgər imanınız varsa Allah qarşısında təqvalı olun.”

113. Lakin onlar İsaya (ə) dərhal xəbər verdilər ki, onların bu təklifi verməkdə düzgün olmayan bir hədəfləri yoxdur. Əsas məqsədləri inadkarlıq deyil. Əksinə, bu süfrədən yemək istəyirlər ki, (asimani yeməklərdən qidalanma nəticəsində ruhiyyələrində yaranacaq nuraniyyətdən əlavə), qəlbləri xatircəmlik tapsın, bu böyük möcüzəni müşahidə etməklə “eynul-yəqin” həddinə çatsınlar və bilsinlər ki, İsanın (ə) dedikləri onlara doğrudur. Həmçinin bu işə şahidlik edə bilsinlər.

## *İNCƏ MƏTLƏBLƏR*

1. «Maidə» surəsinin belə adlandırılması məhz səmavi süfrə istənilməsinə görədir.
2. Maidə həm yemək, həm də yeməyin qoyulduğu süfrə mənasındadır.

**AYƏ 114:**

[ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ اللَّهُمَّ رَبَّنَا أَنزِلْ عَلَيْنَا مَآئِدَةً مِّنَ السَّمَاء تَكُونُ لَنَا عِيداً لِّأَوَّلِنَا وَآخِرِنَا وَآيَةً مِّنكَ وَارْزُقْنَا وَأَنتَ خَيْرُ الرَّازِقِينَ ]

**TƏRCÜMƏ:**

***«Məryəm oğlu İsa dedi: "İlahi, ey Rəbbimiz! Bizə göydən yeməklə dolu bir «maidə» (süfrə) nazil et ki, o bizim üçün - həm birincimiz, həm də sonuncumuz üçün bir bayram və Sənin tərəfindən bir nişanə və möcüzə olsun; və bizə ruzi ver ki, Sən ruzi verənlərin ən yaxşısısan."»***

**TƏFSİR:**

Qeyd olunmalıdır ki, Qurandakı dualar hər yerdə «Rəbbəna» kəlməsi ilə başlanır, lakin bu ayədə «Əllahummə Rəbbəna» kimi iki kəlmədən təşkil olunmuşdur. Bəlkə də bu, hadisənin əhəmiyyətinə və onun nəticələrinin mühüm olduğuna görədir.

Hacətin Allah övliyalarından dilənməsi, onlara təvəssül etmək və onlardan bir şey istəmək caizdir.

Peyğəmbərlər tarixdəki bütün insanlar və bəşər nəsilləri üçün gəlmişlər.

Quran nəzərindən bayram mərasimi və şadlıq keçirmək düzgün bir işdir. Allah övliyalarının miladları, Rəsuli-Əkrəmin (s) besəti kimi mühüm hadisələr səmavi süfrənin nazil olmasından heç də geri qalmır və bunlar Allahın qüdrət nişanəsi olduğuna görə onlardan həmişə ibrət dərsi alınmalıdır.

**AYƏ 115:**

[ قَالَ اللّهُ إِنِّي مُنَزِّلُهَا عَلَيْكُمْ فَمَن يَكْفُرْ بَعْدُ مِنكُمْ فَإِنِّي أُعَذِّبُهُ عَذَابًا لاَّ أُعَذِّبُهُ أَحَدًا مِّنَ الْعَالَمِينَ ]

**TƏRCÜMƏ:**

***«Allah buyurdu: "Həqiqətən, Mən onu sizə nazil edəcəyəm. Beləliklə, əgər bundan sonra kimsə kafir olsa, şübhəsiz, Mən ona aləmdə hələ heç kimə vermədiyim bir əzab verəcəyəm."»***

**TƏFSİR:**

Bu ayə camaata xəbərdarlıq etmək baxımından nazil olan ən təhdidli ayədir. Aydındır ki, daha çox və mühüm nəzərə çarpan məsələ (səmavi süfrə) çoxlu təəhhüdlərə, iltizamlara da malik olmalıdır. Uca zirvənin xətərli dərələri də vardır.

Bunu da bilməliyik ki, rəvayətlərə əsasən, Həzrət İsanın (ə) dostlarına səmavi süfrə nazil olubsa, Peyğəmbər (s) üçün də Həzrət Zəhranın (ə.s) yaranmasının mənşəyi olan behişt meyvələri nazil olmuşdu.

**AYƏ 116:**

[وَإِذْ قَالَ اللّهُ يَا عِيسَى ابْنَ مَرْيَمَ أَأَنتَ قُلتَ لِلنَّاسِ اتَّخِذُونِي وَأُمِّيَ إِلَـهَيْنِ مِن دُونِ اللّهِ قَالَ سُبْحَانَكَ مَا يَكُونُ لِي أَنْ أَقُولَ مَا لَيْسَ لِي بِحَقٍّ إِن كُنتُ قُلْتُهُ فَقَدْ عَلِمْتَهُ تَعْلَمُ مَا فِي نَفْسِي وَلاَ أَعْلَمُ مَا فِي نَفْسِكَ إِنَّكَ أَنتَ عَلاَّمُ الْغُيُوبِ]

**TƏRCÜMƏ:**

***«Və (yada sal Qiyamət gününü) o zaman(ı) ki, Allah buyuracaq: "Ey Məryəm oğlu İsa, insanlara sən demisən ki, «məni və mənim anamı Allah yerinə iki tanrı kimi qəbul edin?" Dedi: "(Ey Rəbbim,) Sən (hər bir***

***eyb və nöqsandan) paksan, mənə haqqım olmayan şeyi demək yaraşmaz, əgər demiş olsaydım şübhəsiz, Sən onu bilərdin, Sən mənim nəfsimdə olanı bilirsən, (amma) mən Sənin zatında olanı bilmirəm, həqiqətən Sənsən gizlinləri kamil bilən!"»***

**TƏFSİR:**

## *HƏZRƏT MƏSİHİN ŞİRKDƏN VƏ ŞİRK ARDICILLARINDAN BEZARLIĞI*

Bu və bundan sonrakı iki ayə Qiyamət günündə Allahın Həzrət Məsihlə (ə) aparacağı söhbətləri bəyan edərək buyurur: Qiyamət günü Allah-təala İsaya deyər: Sən camaata demisənmi ki, məni və anamı Allahdan başqa bir məbud qərar verərək ona sitayiş edin?

Həzrət İsa (ə) bu suala tam ehtiramla cavab verərək bir neçə cümlədə deyər:

1. Əvvəlcə Allahı, Onun üçün hər hansı oxşar və şərik olmaqdan pak və münəzzəh hesab edərək deyər: Pərvərdigara, Sən hər növ şirkdən pak və münəzzəhsən!

2. Necə ola bilər ki, mən özümə layiq olmayan bir şey deyim?

Həqiqətdə təkcə bu sözü deməsini inkar etməz, üstəlik deyər ki, ümumiyyətlə, onun belə bir şeyə səlahiyyəti çatmır, onun məqam və mövqeyinin bu kimi sözlərlə heç bir uyğunluğu yoxdur.

3. Daha sonra Pərvərdigarın sonsuz elminə işarə edərək deyər: «Mənim şahidim budur ki, əgər belə bir şey demiş olsaydım, Sən hökmən bilərdin. Çünki Sən mənim ruhumda və qəlbimdə olanlardan agahsan. Halbuki mən Sənin zatından xəbərsizəm. Çünki Sən qeybləri bilənsən, gizli sirlərin hamısından agahsan.»

**AYƏ 117-118:**

[مَا قُلْتُ لَهُمْ إِلاَّ مَا أَمَرْتَنِي بِهِ أَنِ اعْبُدُواْ اللّهَ رَبِّي وَرَبَّكُمْ وَكُنتُ عَلَيْهِمْ شَهِيدًا مَّا دُمْتُ فِيهِمْ فَلَمَّا تَوَفَّيْتَنِي كُنتَ أَنتَ الرَّقِيبَ عَلَيْهِمْ وَأَنتَ عَلَى كُلِّ شَيْءٍ شَهِيد. إِن تُعَذِّبْهُمْ فَإِنَّهُمْ عِبَادُكَ وَإِن تَغْفِرْ لَهُمْ فَإِنَّكَ أَنتَ الْعَزِيزُ الْحَكِيمُ]

**TƏRCÜMƏ:**

***117. «Mən onlara yalnız Sənin mənə əmr etdiyini – "mənim Rəbbim və sizin Rəbbiniz olan Allaha ibadət edin" demişəm. Nə qədər ki, onların arasında idim, onlara şahid idim. Elə ki, məni (Özünə tərəf) qaldırdın, Sən Özün onlara nəzarətçi idin. Sən hər bir şeydən xəbərdar və (hər bir şeyi) bilənsən.»***

***118. «Əgər onlara əzab versən, onlar Sənin bəndələrindir (və Sənin əzabın eynilə ədalətdir) və əgər onları bağışlasan (bu qüdrət və hikmət əsasındadır və) həqiqətən, Sən Özün yenilməz qüdrət və hikmət sahibisən.»***

**TƏFSİR:**

117. Peyğəmbərlər ismət məqamında olub Allahın fərmanlarından başqa bir şeyə itaət etməzlər, Allahın vəhyində heç bir təsərrüf və dəyişiklik etməzlər.

Həzrət İsa (ə) özünü və bütün insanları Allahın pərvəriş verdiyi bəndə hesab edir. Bunu da qeyd edək ki, peyğəmbərlər insanların əməllərinə nəzarətçidirlər.

118. Bu şərif ayədə Həzrət İsa (ə) özünü heç bir şeyə sahib olmayan şəxs kimi təqdim edir və cəza verib bağışlama haqqını Allaha həvalə edərək deyir: Bu barədə mənim heç bir qüdrətim və təsirim yoxdur. Bəndələrinin ixtiyar sahibi məhz Sən Özünsən. İstəsən onlara əzab verərsən, istəsən də bağışlayarsan. Sənin nə

bağışlamağın zəiflik əlamətidir, nə də cəzalandırmağın hikmətsizdir.

Əbuzərin rəvayət etdiyinə əsasən Peyğəmbəri-Əkrəm (s) bir gecə sübhə qədər bu ayəni təkrarladı, onu rükuda və səcdədə oxudu. Allahdan o qədər şəfaət istədi ki, axırda ona əta edildi (Təfsiri-Məraği). Həzrət bu oxumaqla əllərini qaldırıb ağlar halda öz ümmətinə dua etdi.

## AYƏ 119-120:

[قَالَ اللّهُ هَذَا يَوْمُ يَنفَعُ الصَّادِقِينَ صِدْقُهُمْ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا رَّضِيَ اللّهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ. لِلّهِ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا فِيهِنَّ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ]

### TƏRCÜMƏ:

***119. «Allah buyurar: "Bu doğruçulara (əqidə, danışıq və əməldəki) düzlüklərinin fayda verdiyi bir gündür. Onlar üçün (ev və ağaclarının) altından çaylar axan Cənnətlər vardır, orada əbədi qalacaqlar. Allah onlardan razıdır və onlar da Allahdan razıdırlar. Budur böyük uğur!"»***

***120. «Göylərin, yerin və onlarda olanların həqiqi malik və hakimi Allahdır (çünki, onların yaradılışı, qorunması, işlərinin nizama salınması və sonra nəzərdə tutulan vaxtda yox edilməsi Allahın kamil istək və iradəsindən asılıdır) və O hər şeyə qadirdir.»***

### TƏFSİR:

119. Allahın Həzrət Məsihlə (s) söhbətini bəyan edən ayələrin ardınca bu ayədə oxuyuruq: Allah bu söhbətlərdən sonra buyurar: Bu gün (Qiyamət) elə bir gündür ki, doğruçulara onların doğru işlərindən başqa heç bir şeyin faydası olmaz. Sonra doğruçuların əməllərinin mükafatına işarə edərək buyurur: Onlar üçün ağac-

larının altından arxlar axan behişt bağları vardır, həmişəlik orada qalacaqlar. Onlar bu maddi nemətlərdən daha mühüm olan bir şeydən də faydalanacaqlar; Allah onlardan, onlar da Allahdan razıdır. Şübhəsiz, bütün maddi və mənəvi nemətləri əhatə edən bu böyük nemət daha böyük qurtuluş hesab olunur.

120. Bu ayədə Allahın malikiyyət və hökumətinə işarə edilərək buyurulur: Asimanların, yerlərin və onlarda olanların hakimiyyəti yalnız Allaha məxsusdur və O hər şeyə qadirdir.

**SON**